# NUR SIRASI

**FAZİL BƏŞİR OĞLU LƏNKƏRANİ**

**MƏHƏMMƏD FAZİL LƏNKƏRANİ**

**MƏHƏMMƏDCAVAD FAZİL LƏNKƏRANİ**

بسم الله الرحمن الرحيم


نام کتاب:.....................................سلسله نور

مؤلف:...............................شیرمحمد نظرلی

ناشر:............................................ .شهریار

تاریخ چاپ:..................................1386

نوبت چاپ:.........................................دوم

تیراژ:........................................10000

**Kitabın adı:...........................................Nur sırası**

**Müəllif:................................Şirməmməd Nəzərli**

**Nəşr edən:............................................Şəhriyar**

**Çap tarixi:................................................2007**

**Çap növbəsi:..........................................İkinci**

**Tiraj:.......................................................10000**

Mündəricat

MÜƏLLİF ..................................................................................... 5
ƏZİZ OXUCULAR! ..................................................................... 8
ƏRKİVAN ..................................................................................... 9
YENİ ƏRKİVANLI ......................................................................15
EKSKURS DAVAM EDİR. NİYƏ «LƏNKƏRANİ?» ........................20
ŞEYX FAZİL LƏNKƏRANİNİN ÖMÜRLÜYÜNDƏN .....................27
ŞEYX YUSİF DƏBİSTANİNİN DEDİKLƏRİNDƏN ........................35
MARAQLI GÖRÜŞ.........................................................................40
QUM ŞƏHƏRİ.................................................................................42
ŞƏHƏRIN ADI HAQQINDA...........................................................43
PROBLEMLI QUM .........................................................................44
QUMLA BAĞLI BƏ’ZI RƏQƏMLƏR...............................................45
ŞİƏ ALƏMİNİN MƏRCƏYİ-TƏQLİDİ AYƏTULLAHÜL-ÜZMA HACI ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN ÖMÜRLÜYÜNDƏN .........................................................................46
ALI (XARIC) DƏRSLƏR.................................................................49
BIR XATIRƏ ...................................................................................50
DIGƏR DƏRSLƏR............................................................................51
TƏDRIS .............................................................................................51
ELMI HÖVZƏDƏ XIDMƏTI ..............................................................52
AYƏTULLAH LƏNKƏRANI MƏRCEYI-TƏQLID KIMI ................54
MƏZIYYƏTLƏRI ..............................................................................54
ƏHLI-BEYT (Ə) MƏHƏBBƏTI ..........................................................56
SIYASI SƏHNƏDƏ ...........................................................................57
MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN AZƏRBAYCAN GƏNCLƏRİNƏ MÜRACİƏTİ ..............................................................59
AYƏTULLAH-ÜZMA ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN YALNIZ ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ ..............61
AYƏTULLAH-ÜZMA ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN «TOVZİHUL-MƏSAİL» ƏSƏRİ HAQQINDA AYRICA DANIŞMAQ İSTƏYİRİK ...................................................62
MÜDAFİƏ MƏSƏLƏLƏRİ ..................................................................63
LƏNKƏRANİNİN DƏFTƏRXANASI ..................................................65
İRAH TƏƏSSYRATLARI: BİLDİKLƏRİMİZ VƏ GERÇƏKLİKLƏR .............................................................................................66

MƏRCEYİ-TƏQLİDLƏR VƏ YA DÖVLƏT İÇƏRİSİNDƏ DÖVLƏT HAQQINDA ....66
YAZI ....66
QARABAĞ AZƏRBAYCANLILARIN VƏHDƏTİ SAYƏSİNDƏ AZAD OLUNACAQ! ....68
ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİ DƏFTƏRXANASININ NÜMAYƏNDƏLİKLƏRİ ....73
MOSKVA ....73
ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN MOSKVADA YAŞAYAN MÜQƏLLİDLƏRİNİN 2005-Cİ İL RAMAZAN TƏƏSSÜRATLARI ....76
ŞƏBAN AYININ FƏZİLƏTİ VƏ ƏMƏLLƏRİ ....81
ŞƏBAN AYININ ƏMƏLLƏRI ....82
USTAD ŞEYX MƏHƏMMƏDCAVAD FAZİL LƏNKƏRANİNİN QISA AVTOBİOQRAFİYASI ....83
USTAD ŞEYX MƏHƏMMƏDCAVAD FAZİL LƏNKƏRANİNİN ƏSƏRLƏRİ: ....84
«MƏSUM İMAMLAR» BEYNƏLXALQ FİQHİ ARAŞDIRMALAR MƏRKƏZİ ....86
"MƏSUM İMAMLAR" BEYNƏLXALQ FİQHİ ARAŞDIRMALAR MƏRKƏZİNİN YENİ BİNASI HAQQINDA ....93
ALİMİN ƏSƏRLƏRİ HAQQINDA BİR NEÇƏ SÖZ ....95
TARİX TƏKRARLANIR ....97
BƏ'Zİ TERMİNLƏRİN İZAHI ....99
İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT ....102
ALLAHA XALİSANƏ TAPINMAĞIN NƏTİCƏSİ ....104
İSLAM DÜNYASININ GÖRKƏMLİ ALİMİ, MƏŞHUR MƏRCƏİ-TƏQLİD MƏRHUM HƏZRƏT AYƏTULLAH-ÜZMA FAZİL LƏNKƏRANİNİN (R) VƏSİYYƏTNAMƏSİNDƏN ....112
MƏRHUM AYƏTULLAH-ÜZMA FAZİL LƏNKƏRANİNİN (R) İKİ İL ÖNCƏ QƏLƏMƏ ALINMIŞ MƏKTUBU ....112
HİCRİ-QƏMƏRİ 1427-Cİ İLİN MÜBARƏK RAMAZAN AYINA TƏSADÜF ETMİŞ SON VƏSİYYƏT ....114

***Əvvəl Cənab Şeyx Məhəmməd Fazil Lənkəraninin 75 yaşı münasibətilə sanballı bir kitab yazmaq təşəbbüsünə bulunduq. Amma...***

## MÜƏLLİF

Son illər müstəqil tədqiqatçıların fikrincə, müasir İran ərazisində "Lənkərani" soy adı və ya ləqəbilə yüzlərlə azərbaycanlı din alimi, irfani sima, sadəcə şeyx yaşamışdır. Azərbaycanda sosialist inqilabı dövründə, xüsusən də sovet hakimiyyəti qurulandan sonra İslam dini (dindarlar) təqiblərə, təzyiqlərə məruz qaldıqları üçün doğma yurdlarını tərk etmək məcburiyyətində qalmışlar. Onlardan əqidəsinə görə edam, sürgün edilənlər, ev dustağı olanlarla yanaşı, özlərinin və ailələrinin xilası naminə hicrət edənlər də çox olmuşdur.

Təbii ki, təriqət və əqidəvi uyğunluğa görə İran ərazisi ən münasib pənah yeri sayılmışdır. İranda ayrı-ayrı mö'minlər, himayə və qayğı görmüş həmin şəxslər buranın İslam elminin cazibə mərkəzinə və Əhli-beyt dəyərlərinə söykənməsindən bəhrələnərək yüksək təhsil almış, tədris və təbliğatla məşğul ola bilmiş, əsərlər yazmışlar. Zülmə,

ədalətsizliyə müxalifliyi ilə, Şah rejiminə mütəmadi etirazları ilə tanınan, eyni zamanda regionda "İslam dini akademiyası" hesab olunan Qum şəhərinin ab-havası bu insanların irfani aləmə yönəlməsində böyük rol oynamışdır. Sözügedən arif şəxslər arasında "Lənkərani" kimi tanınan şəxslər deyildilər və onlar da Azərbaycan xalqının bir növ təmsilçiləri statusunu qazanmışdılar.

Çox böyük təəssüflə qeyd edilməlidir ki, müstəqil Azərbaycanın bu gününün şahidi olmaq həmin elmli, pak qəlbli, nur simalı əsilzadələrin yalnız bir qisminə nəsib olmuşdur. Yaşadığımız sərbəstlik, müstəqillik dövrü imkan verir ki, vaxtilə yer-yurdlarından didərgin salınmış və dünyanın çox yerinə səpələnmiş, amma əqidəsini, imanını, milliliyini yaşatmış həmin insanları–ilahi ne'mətləri axtarıb tapaq, onları tarixi vətənlərində tanıtdıraq, soydaşlarının da onları unutmadıqlarını çatdıraq. Bu baxımdan boynumuza vəzifə düşdü ki, böyük alim, təvazö nümunəsi, özünü, ailəsini İslamın əsgəri hesab edən Mərceyi-təqlid, Şeyx Məhəmməd Fazil Lənkəranini, onun rəhmətlik atası, Qum Elmi Hövzəsinin görkəmli simalarından olmuş, görkəmli alim Fazil Lənkəranini və nəhayət, bu nəslin, eyni zamanda, ayətullahlar aləminin cavan nümayəndəsi, Lənkərani şəcərəsinin davamçısı, ləyaqəti məşhur alimlər tərəfindən təsdiqlənən istedad sahibi Şeyx Məhəmmədcavad Lənkəranini geniş oxucu kütləsinə daha yaxından tanıtdıraq. Bu məqsədlə çox yerlərə səfər etməli olduq, tutarlı faktlarla üzləşdik. Nəticə isə bu oldu ki, soydaş, dindaş, həmyerli qismində tapacağımız insanlarla görüşmək niyyətilə işə başlasaq da, Allah-təalanın iznilə bu gün dünya müsəlmanlarının bəhrələnə biləcəyi nur saçan insanlarını kəşf etdik.

Amma dünya müsəlmanlarının yaxşı tanıdıqları ata və oğul Lənkəranilər onlar haqqında kitab yazmaq istəyimizə bir o qədər maraq göstərmədilər; bunu təvazökarlıqdan uzaq

bir iş kimi diqqətimizə çatdırdılar. Şeyx Məhəmmədcavada deyəndə ki, baban vaxtilə atanın gələcəyindən ötrü narahatlıq keçirmişdi. İndi şəcərənizi dəyərləndirənlər, xüsusilə də azərbaycanlılar, atanızın davamçısı haqqında ətraflı mə'lumat almaq istəyirlər; yəni azərbaycanlılarda özünəməxsus maraq hissi vardır ki, görəsən ağanın övladları arasında onun yolunu davam etdirən vardırmı?

Şeyx Məhəmmədcavad Fazil Lənkərani bizə baxıb mənalı gülümsədi və dedi: «Daha çox zəhməti olan böyüklərdən yazsanız, yaxşı olar...»

Beləliklə, əvvəl boynumuza düşmüş vəzifə yükü xeyli ağırlaşdı və indi biz bu nurlu simaların şəxsiyyəti ilə bağlı istədiyimizi ala bilməyəcəyimizi yəqin edib onların yalnız fəaliyyətlərini işıqlandırmaqla kifayətləndik. Bu əsər deyilən məqsədlə gördüyümüz ilk tədqiqat işi olduğundan, nöqsanlardan, yəqin ki, xali deyil. Ona görə də, əziz oxucular, üzürxahlığımızı qəbul edərək, niyyətimizin həyata keçməsi üçün dua edin. Biz isə Allah-təaladan kömək istəyirik. Amin!

Beləliklə, əvvəl boynumuza düşmüş vəzifə yükü xeyli ağırlaşdı və indi biz bu nurlu simalar haqqında yazacağımız kitabı Azərbaycan, fars, rus, ərəb və başqa dillərdə tərtib edib yaymalıyıq. İndiki əsər deyilən məqsədlə görülmüş ilk tədqiqat işi olduğundan, çatışmazlıqlardan və qeyri-dəqiqliklərdən, yəqin ki xali deyil. Ona görə də, əziz oxucular, üzrxahlığımızı qəbul edin, niyyətimizin həyata keçməsi üçün dua edin. Biz isə Allah-təaladan kömək istəyirik. Amin!

**Dədə Nəzərli**

## *ƏZİZ OXUCULAR!*

İslam tarixində hər biri məktəb ola biləcək simalar kifayət qədərdir. Məhəmməd Peyğəmbərin (s) vəfalı, sədaqətli, imanlı səhabələri, İmam Əlinin (ə) ixlaslı silahdaşları, digər on bir imamımızın təqvalı ardıcılları mənəviyyat örnəyi kimi tanınırlar. Onlar haqqında aparılan araşdırmalar əsər halında oxuculara təqdim edilibsə də, tədqiqatlar davam edir, bu yolda gecəni gündüzə qatan İslam alimləri yüksək ruhiyyə ilə işlərini davam etdirirlər. Danılmaz həqiqətdir ki, bu yolun yolçuları nəfsini boğmuş, özünü tərbiyələndirmiş şəxslər olduğundan tarixi oçerklər yazmazdan qabaq insanların həyatını, əxlaqını, yaşam tərzini, ədəb-ərkanını, fəaliyyətini tənzimləyən əbədiyaşar “Qur’an akademiyasının” məzunlarıdırlar. Qur’an ruhunda formalaşmış şəxsiyyət nəinki tarixi nümunələrdən faydalı əsərlər yazır, həm də nəticədə özü bir örnək olur.

Əziz oxucularımıza böyük ehtiramla təqdim etdiyimiz “Nur sırası” kitabı kökü Azərbaycana bağlı o cür şəxsiyyətlərə həsr edilmişdir.

**Nəşriyyat**

## *ƏRKİVAN*

# Qısa tarixi ekskurs

Azərbaycan Respublikası Masallı rayonunun Ərkivan kəndi respublikanın qədim yaşayış məntəqələrindəndir. Burada aşkar edilmiş tunc və dəmir dövrünə aid tapıntılar da bunu sübut edir.

Hazırki Ərkivan Masallı şəhərindən iki kilometr qərbdə, Viləş çayının sağ sahilində, Lənkəran ovalığında və Talış dağlarının ətəyində yerləşir. Lənkəran ovalığı isə Talış sıra dağları ilə Xəzər dənizi arasında qərar tutub.[1] (1)

Deyirlər Ərkivan Dəştvəndin bir parçasıdır. Dəştvənd isə Talış xanlığının 8 məşhur mahalından biri olmuşdur. Bu mahal qərbdən Talış dağları, şərqdən Xəzər dənizi və Muğan düzü ilə, cənubdan bugünkü Boradigahın, şimaldan Göytəpənin ərazisini əhatə edən çox sərvətli bir məkan olub. Ərkivan isə bu mahalın mərkəzi, sanki üzük qaşı sayılıb. Bir sıra tədqiqatçılar isə ümumiyyətlə Dəştvənd və Ərkivanın eyni yer olduğunu bildirirlər. S. Kazımbəyoğlunun fikrincə, "Talış xanlığının ən böyük mahallarından biri olan Ərkivan, xanlığın şimalında yerləşib, qərb hissəsi dağlıq, şərqi isə düzənlik olan bir mahal olmuşdur. Şimaldan və şimali-şərqdən Şirvan vilayəti, şərqdən Xəzər dənizi, cənubdan Lənkəran və dağlıq mahalları, qərbdən Səfdəşt mahalı və İranla sərhəd olmuşdur."

"Dəştvənd" adına görə bir çox tədqiqatçılar Ərkivanı çöl kənarı, dəniz kənarı olan yer adlandırır. Son illərə qədər

---

[1] (ASE, IV cild, Bakı, 1982).

kənddə bir neçə yerdə tapılmış lövbər qalıqları buranın dəniz kənarında yerləşən bir yer olması ehtimallarını daha da gücləndirir. Xəzərin səviyyəsinin son minilliklərdə 6-7 dəfə kəskin şəkildə yüksəlməsi, Lənkəran şəhəri özü də daxil olmaqla, bir sıra yerlərin su altında qalması bu fikri bir daha təsdiq edir.

Bir sıra tarixçi alimlər Şeyx Səfiəddinin (1252-1334) Ərkivanda olduğunu iddia edirlər.

Rus dilində çap edilmiş "Azərbaycanın tarixi coğrafiyası" kitabında XVI əsrə aid tərtib edilmiş xəritədə Ərkivan toponiminə də rast gəlirik.

Rus çarı I Pyotr (1672-1725) Ərkivan məntəqəsini Rusiya xadimlərindən "Kerç" ləqəbi ilə tanınan Bernard Aleksandroviçə hədiyyə etmişdi.

Bəs, "Ərkivan" nə deməkdir?

"Ərk" fars dilində "qala", "istinadgah", "i" birləşdirici səs, "van" isə yer deməkdir. Ərkivanın mənası qalanın yaxınlığında, istinadgah yerində salınmış kənd deməkdir.[2] (2)Ərkivan qalalı yer, qala yeri deməkdir. "Ərk" qala, "van" yer deməkdir.[3](3) Başqa bir mənbədə - Vaqif Yusiflinin "Ərkivan və ərkivanlılar" kitabında isə göstərilir: Ərkivan, Ərkəvan, Ardjuvan və Akon kimi göstərilir. "Akon" talış dilində "əkon" sözündəndir. "Ə" o, "kə" ev, "on" cəm şəkilçisidir. Bu toponimin talışca daha inandırıcı variantı "Arkon"dur, yəni ərklilər deməkdir.

Dilçi alim, professor Ağamusa Axundov yazır ki, "Ərkivan" qala yeri deməkdir.

Məlum olduğu kimi, tariximizdə mühüm və əhəmiyyətli yer tutan səfəvilər dünyəvi və ruhani hakimiyyətini birləşdirmişdilər. Ərkivanın səfəvilərlə bağlılığı artıq təsdiq

---

[2] ("Kənd həyatı" jurnalı. 17-ci sayı, 1977).

[3] (Ağamusa Axundov. "Torpağın köksündə tarixin işləri" Bakı, 1983.)

olunmuş həqiqətlərdəndir. Tarixçi alimlər Şeyx Səfiəddinin Ərkivan kəndində (7 il) yaşadığını (1274-1281) qeyd edirlər. Tarixi mənbələrin verdiyi məlumata görə, 1501-ci ildə Təbrizdən qayıdarkən Şah İsmayıl Xətai yolüstü Ərkivanda dayanaraq bir müddət dincəlmiş və Şeyx Səfiəddin bulağından su içmişdir.

V-VI əsrlərdə tikilmiş Ərkivan qalası isə həmişə hərbi strateji əhəmiyyətə malik olmuşdur. Aparılan elmi tədqiqatlar Ərkivan qalasının müdafiə məqsədilə tikildiyini və düşmənə qarşı mərdliklə döyüşmüş Ərkivan əhalisinin qəhrəmanlıq simvolu olduğunu göstərir.

Nadir şahın vəfatından sonra İranda mərkəzi hakimiyyət zəifləyir və Azərbaycanda ayrı-ayrı xanlıqlar, o cümlədən XVIII əsrin sonlarında Talış xanlığı meydana çıxır. Ərkivan qalası Talış xanlığının iqtisadi cəhətdən ən inkişaf etmiş ərazilərindən biri hesab olunur.

XVIII əsrin əvvəllərindən başlayaraq Ərkivan Rusiya dövlətinin diqqətini cəlb etməyə başlamışdır. XIX əsrin əvvəllərində Rusiya və İran arasında gedən müharibə dövründə (1904-1913) Ərkivan hər iki tərəf üçün mühüm əhəmiyyətə malik idi. Təsadüfi deyil ki, general P.S.Kotlyarevskinin rəhbərliyi ilə rus qoşunları Talışa gələrkən ilk növbədə Ərkivanı ələ keçirməyi daha vacib hesab edirdi. Bu zaman Ərkivanı Sadiq xanın rəhbərliyi ilə İran qoşunları qoruyurdu. O, Kotlyarevskiyə müqavimət göstərməyib cənuba doğru geri çəkildi. Rus qoşunları Ərkivanı ələ keçirtdilər. A. A. Bakıxanov yazır: “General Kotlyarevski Muğana gedib burada Qarabağ elatını və Ərkivanı aldı.”[4](4) ”Rus və Talış qoşunlarının qələbəsi nəticəsində Ərkivan vuruşunda düşmənin 2 topu və çoxlu silahı ələ keçirildi.”[5] (5)

---

[4] “Gülüstani-İrəm”əsərindən.

[5] F. Əsədov, “Dar gündə yaxşı arxa” kitabından.

“Cəvahirnameyi-Lənkəran” kitabında Ərkivan qalası barədə yazılıb: “Bu qala Mir Mustafa xanın səadət ulduzu çıxmamışdan Mir Əhməd xanın və onun əmisi uşaqlarının məskəni olmuşdur. Hazırda onlardan bir dəstəsi, o cümlədən, Mir Əhməd xanın övladlarının tikdirdiyi imarətin binası dağıdılmışdır”.

Amma 1747-1750-ci illərdə Ərkivan qalasının içində həmin imarəti tikmək üçün Mir Həsən xana vəsait verilmişdir.

Həmin kitabda həmçinin qeyd olunmuşdur ki, bu imarət bir-birinin içində yerləşən üçqat divardan hörülmüş qala içərisində olmuşdur.

1912-ci il dekabrın 31-də 1913-ci ilin yanvarına keçən gecə Lənkəran şəhəri və Ərkivan tamamilə rusların əlinə keçir. Gülüstan sülh müqaviləsindən sonra Ərkivan qalasında imarəti olan Mir Həsən xan burada hakimiyyət başına gəlir.

Bu gün Ərkivan qalasının taleyi necədir? Ərkivanın Cəbili məhəlləsində yerləşən bu abidə qızıl həvəskarlarının və həvəskar arxeoloqların kortəbii qazıntıları nəticəsində insafsızcasına dağıdılıb. Yaşlı adamların bildirdiyinə görə, bəziləri dərin quyulardan qiymətli zinət əşyaları tapmışlar.

Uzun illər indiki Masallı rayonunun mərkəzi, paytaxtı olmuş Dəştvən-Ərkivan, 1930-cu ildə Azərbaycan Sovet Respublikasında rayonlaşma aparılarkən mərkəz funksiyasını indiki Masallı şəhərinə vermişdir. Həmin vaxt kənddəki məşhur Qala bazarı da Masallıya köçürülmüşdür.[6] (6)

**“İman gətirib yaxşı əməllər edənlərə gəldikdə isə,**
**Biz yaxşı işlər görənlərin mükafatını zay etmərik.”**
**(“Kəhf”, 30)**

[6] Zahir Əmənov, “Ərkivan” kitabı.

# BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Azərbaycan torpağı tarix boyu özünün Əhli-beytə olan məhəbbət və sədaqəti ilə məşhur olmuşdur. Bu diyar minlərlə alim yetirmiş, Allah yolunda şəhidlər vermişdir.

On ikinci imamın böyük qeyb dövründə öhdəsinə ağır məsuliyyətlər götürmüş və həqiqi İslamı yaşatmalı olan alimlər arasında azərbaycanlı müctəhidlərin xüsusi yeri vardır. Onlardan Ayətullah Şeyx Sədra Badkubeyi, Ayətullah Seyyid Hüseyn Badkubeyi və digərləri dövrümüzün dahi müctəhid və filosoflarından olan Əllamə Təbatəbainin, Şəhid Məhəmmədbaqir Sədrin və digər məşhur alimlərin ustadları olmuşlar.

Görkəmli Nəcəf alimlərindən olan həmyerlimiz mərhum Şeyx Əli Ali-İshaq deyirdi: “Bir zaman Bakı şəhərində risalə müəllifi olan 120 müctəhid var idi. Müxtəlif yerlərdən buraya oxumağa və şəri məsələləri öyrənməyə gəlirdilər. Nəcəfdə mərceyi-təqlidi təyin edən doqquz müctəhiddən beşi Azərbaycandan idi”.

Yetmiş illik kommunist rejimi dövründə alim və müctəhidlərimiz həbs, sürgün və edam edilmiş, müsəlman ölkələri və elm ocaqları ilə əlaqələr kəsilmiş və bununla da böyük dini, elmi və mənəvi boşluqlar yaranmışdır.

Bütün bunlara baxmayaraq sevindirici haldır ki, hazırda İslam dünyasının ən parlaq simaları arasında həmyerlilərimizə də rast gəlmək olur. Haqqında söhbət açacağımız Ayətullah Şeyx Məhəmməd Fazil Lənkərani məhz belələrindəndir.

Şeyx Fazil Lənkərani İrana getdikdən sonra bir neçə il Məşhəd və Zəncan elmi hövzələrində təhsil və tədrislə məşğul olmuş, Qum elmi hövzəsi təsis olunduqdan bir il sonra isə o şəhərə getmişdir.

Mərhum Şeyx Fazil Lənkəraninin məqam və fəziləti barəsində təkcə bunu demək kifayətdir ki, o, şiə dünyasının ən böyük mərceyi–təqlidləri olan Ayətullah Bürucerdi və İmam Xomeynilə yaxın dost olmuşdur.

Ayətullah Bürucerdi ixtiyarında olan imam səhminin (xümsün) 50 faizini özünün böyük oğlu və həm də Ayətullah Fazil Lənkərani tərəfindən elmi hövzə işlərinə sərf edilməsini vəsiyyətnaməsində qeyd etmişdi. Habelə Qum şəhərində həzrət Məsumənin (ə) məqbərəsi yanında Məscidi-əzəmi tikdirdikdən sonra günorta namazlarına imamlıq etməyi ona tapşırmışdı. Şeyx Fazil həm də Ayətullah Bürucerdinin istifta (şəri suallara cavab) şurasının üzvü olmuşdur.

## *YENİ ƏRKİVANLI*

Kitabımızla bağlı bu günün Ərkivanında olduq. Masallının Ərkivan məntəqəsi rəsmi sənədlərdə kənd kimi qeyd olunsa da böyük qəsəbə statusuna tam uyğun gəlir. Hazırda burada 16 min sakin yaşayır. Bizi Şeyx Fazil Lənkəraninin qardaşı oğlu Möhsün Murad oğlu Bəşirov qarşıladı. Lənkəranilərin şəcərəsi, məşğuliyyəti haqqında məlumatı da bizə o verdi.

Vaxtilə İranın hansı məntəqəninsə Ramazanlı məhəlləsindən Bağır adlı cavan bir şəxs Ərkivana pənah gətirir, burada məskunlaşır. (Ehtimal olunur ki, Hicrətlə bağlı Ərkivanda yeni məhəllə yaranmış və bura yeni sakinlərin İrandakı dədə-baba yurdları şərəfinə Ramazanlı adlandırılmışdır. Beləliklə Ərkivanda mövcud on dörd məhəllədən biri də «Ramazanlı»dır. Onun Şahgəldi adlı oğlu, onun da Hacı Bəşir adlı övladı hələ də yaddaşlarda qalmaqdadır. Onlar haqqında kimisi ata-babasından eşitmiş, kimisi Hacı Bəşirin şəklini görüb nurani simasını xatirəsində saxlamışdır. Onların yaxın şəcərəsi aşağıdakı kimidir:




Bu şəcərədə göstərilənlərin Ərkivanda məşğuliyyəti əsasən bu məkanın qədim tarixi ilə həmahəng görünür. Təkcə Hacı Bəşirin kiçik oğlu Fazilin məşğuliyyəti fərqli olub ki, irəlidə bu barədə danışılacaq. Biz isə Ərkivan əhalisinin məşğuliyyəti ilə bağlı tarixə qısa ekskursumuzu davam etdirək.

Tunc dövrünün əvvəllərində dulusçuluq özünün yüksək mərhələsinə çatır. Artıq bu dövrdə qabların əl ilə, lakin simmetrik formada hazırlanmış nümunələrinə təsadüf edilir. Eyni zamanda, qulplu qabların sayları artmağa başlayır. Aparılan elmi tədqiqatlar zamanı ilk nehrələrin meydana çıxması müəyyən olunmuşdur. Maraqlıdır ki, neolit dövründən – yəni İX minillikdən Ərkivanda başlanmış gil qablar istehsalı bu gün də davam etdirilir.

Gil qabların hazırlanmasında ən mühüm yenilik dulus çarxlarının meydana gəlməsidir. Bu çarx gilin daha yaxşı yoğrulmasına, daha mükəmməl və müxtəlif növlü qabların kütləvi şəkildə hazırlanmasına imkan verdi. Ərkivanın

Bağlıküçə məhəlləsində dulus çarxları ilə qablar hazırlanması bu gün də nəsildən-nəslə ötürülür. Xan qızı Natəvanın Ərkivan dulusçularının əməyindən faydalandığı barədə məlumatlar var. Belə ki dulusçu Abdullanın bildirdiyinə görə, Ərkivan dulusçularının köməyi ilə Şuşada bu sənət inkişaf tapıb.

Bağır kişi və Şahgəldi nəslindən olan ərkivanlılar da, əsasən, dulusçuluqla məşğul olmuşlar. Bununla yanaşı, çox zəhmətkeş, zirək və bacarıqlı Hacı Bəşir təbii imkanlardan faydalanaraq maldarlığa da diqqət verib. Əkinçilik əsasında inkişaf edib artan xeyli mal-qara sürüsü olub. Şahidlərin dediyinə görə, tövləsinin uzunluğu 50 metrdən artıq imiş. O, ətraf məntəqələrdə də əsl təsərrüfatçı nüfuzuna malik olmuşdur.

Hacı Bəşirin oturduğu-durduğu, ünsiyyət saxladığı kişilər də özü kimi halal ruzi ilə dolananlar, xeyriyyəçilər, yüksək əxlaq sahibləri imişlər. İrfani məclislərin birində dünyəvi məsələlərə yer ayrılarkən Ərkivan hacılarından kimsə ondan ərkyana soruşub: “Hacı Bəşir, oğlanların üçün nə etmisən?”

Dünyagörmüş, mömin Hacı sualın elə-belə verilmədiyini anlayıb, cavaba hazırlaşarkən müsahibi deyib: “Göndər oğlanlarından birini qoy oxusun.”

Hacı Bəşir oğullarını başına yığıb oxumaq təklifini verir. Bağır, Cahangir və Miqdad evli olduqları, təsərrüfat işlərində hacıya yaxından kömək etdikləri üçün subay və elmə daha çox həvəsli kiçik oğul Fazil tez razılıq verir. Beləliklə, 18 yaşlı Fazil həm qardaşlarını namünasib vəziyyətdən qurtarır, həm atasını elin gözündə başıuca edir, həm də arzusuna çatmaq üçün yaranmış imkandan bəhrələnir. O, Ərdəbildə 5 il mədrəsə təhsili alır və doğma Ərkivana qayıdır. Kənd camaatı ilə əvvəlki kimi qaynayıb-qarışır, atasına təsərrüfat işlərində yardımçı olur, həm də yeniyetmələrlə Ərdəbil mədrəsəsində qazandığı biliyi

paylaşır. Yeri gələndə məclislərdə də iştirak edir. Məclislərin birində isə tükü-tükdən seçən, arif və ayıq kənd əhlindən bəziləri illər boyu formalaşmış xüsusiyyətlərini unuda bilməyib 23 yaşlı Fazilin moizəsinə qıyqacı baxırlar: “Sənin ki, əmmamən yoxdur, moizən şübhəli görünə bilər...”

Məhz bu illərdə Şeyx Fazil öz unudulmaz ustadı Şeyx Qüdrətlə yaxından tanış olur, onun dərslərində iştirak edir və az bir zamanda öz ustadının dərin rəğbətini qazanır. Şeyx Fazil məşhur fiqh kitabı olan «Şərhi-Lümə»nin ikinci cildini bitirdikdən sonra Şeyx Qüdrətin məsləhəti və xüsusi məktubu ilə təhsilini davam etdirmək və bolşeviklərin başladığı represiyadan amanda qalmaq üçün İrana gedir.

Gənc Fazil atası, ustadı və yaxın qohum-əqrəbası ilə xudafizləşib Ərdəbilə yola düşür və bir müddət orada qalıb təhsilini davam etdirir. Bir müddət sonra ustadlar onun bilik və bacarığını nəzərə alıb təhsil aldığı mədrəsədə dərs deməyi təklif edirlər. Müəyyən vaxtdan sonra isə xeyirxah ustadların zəmanəti ilə Qumda cənab Ərakinin hövzəsində dərsə başlayır. Cənab Ərakinin tövsiyəsilə təhsilini tanınmış alim Bürucerdinin sinfində davam etdirir.

Xeyirxah niyyət, saf zəmin hazırlamaq məqsədilə edilmiş təklifi düzgün qiymətləndirib qəbul edən azərbaycanlı Fazil, Qum dini hövzəsinin rəhbəri Seyyid Təbatəbainin qızı ilə ailə qurur. Xoşbəxt ailədə 9 övlad dünyaya gəlir. Həmin övladlardan biri də Məhəmməd Fazil Lənkəranidir. O böyük İslam alimi və övladları haqqında irəlidə ətraflı mə’lumat veriləcək.

İranda yaşayan övladlarının xoş sorağını eşidən Hacı Bəşir bunu doğru olaraq Allah-təalanın lütfü kimi qəbul edir və qərara gəlir ki, kəndlərində məscid inşa etdirsin. Əsas tikinti materialları olan kərpici, dam örtüyü – kirəmiti, taxta-şalbanı öz öhdəsinə götürür. Kənd camaatının işlək qüvvəsi ilə məscid tikilib möminlərin ixtiyarına verilir.

Hazırda məscidin yanında kiçik məzarlıq var. Hacı Bəşir, qardaşları və dünyadan köçmüş övladları burada dəfn olunublar.

Uzun illər müsəlmanların istifadəsində olan məsciddə yalnız bir dəfə əsaslı təmir işinə ehtiyac olub – 1986-87-ci illərdə. Bu Allah evində indi əvvəlkitək ibadət edilir, dini mərasimlər, əlamətdar hadisələr yola verilir və onun nəzdində Qur'an kursları fəaliyyət göstərir. Kənd uşaqlarından hər il 20-dən çoxu burada müqəddəs kitabı oxumaq şərəfinə yiyələnirlər. Kim bilir, bəlkə onların arasında yeni Lənkərani yetişir?! Hələlik isə bu bölgədə yaxşı tanınan ruhani alim Hacı Əlihəsən və kəndin mollası Möhsün Bəşirov din ocağına tez-tez baş çəkir, problemlərlə maraqlanır, qayğılarını əsirgəmirlər.

Sovetlər dağılana qədər Ərkivanda 20 minə yaxın sakin yaşayırdı. Hazırda bu rəqəm 16 mindir.

## *EKSKURS DAVAM EDİR. NİYƏ «LƏNKƏRANİ?»*

Talış xanlığı XVIII əsrin ortalarında Azərbaycanda yaranmış feodal dövləti olub Gilan, Ərdəbil, Qaradağ, Cavad xanlıqları və Salyan sultanlığı ilə həmsərhəd idi. Mərkəzi əvvəllər Astara, sonralar isə Lənkəran şəhəri olmuşdur. Talış xanlığında əhali əkinçilik (xüsusilə çəltikçilik) və maldarlıqla məşğul olurdu. Balıqçılıq və arıçılıq da təsərrüfat həyatında mühüm yer tuturdu. Talış xanlığında yüksək keyfiyyətli düyü növləri (sədri, akülə, yetim bilgicri, ənbərbu və s.) yetişdirilirdi. Lənkəran, Astara, Qızılağac xanlığın əsas ticarət mərkəzləri idi. Əkinçilik texnikasının primitivliyi və süni suvarma sisteminin, demək olar ki, yoxluğu üzündən Talış xanlığında kənd təsərrüfatı zəif inkişaf etmişdi.

Digər xanlıqlarda olduğu kimi, Talış xanlığında da əhali ağır vəziyyətdə yaşayırdı. Burada 19 adda vergi və mükəlləfiyyət (mal-cəhət, vücuhat, ixracat, ələfə, qonalqa, ulaq, bigar və s.) mövcud idi. Vergi toplayan məmurların özbaşınalığı kəndlilərin feodal torpaqlarından qaçmasına səbəb olurdu. Talış xanları sülaləsinin banisi Səfəvi nəslinə mənsub olan Ərdəbilli Seyyid Abbas idi. İranda baş verən qarışıqlıqlar zamanı Talışa gələn Seyyid Abbas yerli feodallarla yaxınlıq etmiş, 1736 ildə Nadir şahın hakimiyyətini tanımış və sonralar oğlu Camalı (Qara xan) onun xidmətinə göndərmişdi. Nadir şah rəsmi fərmanla Seyyid Abbası Talışın nəsli hakimi elan etmişdi. Nadir şah öldürüldükdən (1747) sonra Azərbaycanda yaranmış müstəqil xanlıqlardan biri də Talış xanlığı idi. Seyyid Abbas

öldükdə yerinə Qara xan keçdi. Qara xan Talışın iqtisadi və siyasi qüdrətini möhkəmlətmək üçün bir sıra tədbirlər həyata keçirdi, daimi qoşun təşkil etdi. Talışda torpaq sahələrinin əksəriyyəti xan nəslindən olmayan yerli feodalların əlində idi. Qara xan həmin feodalların iqtisadi və siyasi qüdrətini qırmaq məqsədilə mərkəzi hakimiyyətlə hesablaşmayanların torpaqlarını müsadirə etdi, paytaxtı Lənkərana köçürtdü və abadlıq işləri apardı. Bu tədbirlər şəhərin ticarət və mədəniyyət mərkəzinə çevrilməsinə şərait yaratdı.

Qara xan xarici siyasətdə Rusiyaya meyl göstərirdi. Bu bəzi İran hakimlərini, xüsusilə də gilanlı Hidayət xanı narahat edirdi. 1768 ildə Hidayət xan 12 min nəfərlik qoşunla Talışa hücum etdi. Şindan qalasına çəkilən Qara xan bir müddət müqavimət göstərsə də, Hidayət xana təslim olmaq məcburiyyətində qaldı. Hidayət xan çoxlu xərac alaraq Qara xanı azad etdi. Qara xan Gilan təcavüzünə qarşı yardım almaq məqsədilə qardaşı Kərbəlayi Sultanı kiçik silahlı dəstə ilə Qubada Fətəli xanın xidmətinə göndərdi. Beləliklə, Talış xanlığı Quba xanlığından asılı vəziyyətə düşdü. Fətəli xanın vəfatından sonra Qara xan müstəqil siyasət yürütməyə başladı. Qara xanın vəfatından sonra yerinə oğlu Mir Mustafa xan (1786-1814) keçdi. Hərbi cəhətdən nisbətən zəif olan Talış xanlığı üçün İran ciddi təhlükə törədirdi. Ağa Məhəmməd şah Qacarın hücumu ərəfəsində Mir Mustafa xan Rusiyaya meyl edən Azərbaycan xanlarına məktub yazaraq İrana qarşı birgə mübarizə aparmağa hazır olduğunu bildirdi. 1795 ildə Ağa Məhəmməd şah Qacar Talışa hücum etdi. Mir Mustafa xan müqavimət göstərmək iqtidarında olmadığı üçün Lənkəran əhalisini Xəzər dənizindəki Sarı adasına köçürüb müdafiə mövqeyi tutdu. İran qoşunları getdikdən sonra Talışa qayıdan Mir Mustafa xan 1795 ilin sentyabrında öz nümayəndəsi Zaman bəyi Şimali Qafqaza rus generalı

Qudoviçin yanına, oktyabr ayında isə Kərbəlayi Əsədulla bəyi Peterburqa göndərdi. 1796 il martın 12-də Kərbəlayi Əsədulla bəy Talış xanlığının Rusiyanın himayəsinə qəbul edilməsi haqqında Mir Mustafa xanın məktubunu II Yekaterinaya təqdim etdi. 1800-cü ildə Talış xanlığı Rusiyanın himayəsinə qəbul olundu. Mir Mustafa xanın ölümündən sonra hakimiyyətə Mir Həsən xan (1814-26) keçdi. 1826-cı ildə çar hökumətinin fərmanı ilə Talış xanlığı ləğv edildi.[7](1)

Lənkəranın ümumi inkişafı, əsasən, XVIII əsrin ikinci yarısına təsadüf edir. Qara xanın hakimiyyəti dövründə (1747-86) Talış xanlığının mərkəzi Astaradan köçürüldü. Tədqiqatçıların fikrincə, bu, Lənkəranın iqtisadi, siyasi, mədəni həyatında dönüş yaratmışdır. Belə ki sənətkarlıq, mədəniyyət və ticarət inkişaf etmişdir. Bu sahənin insanları isə, məlumdur ki, qabaqcıl və real düşüncə sahibləri olub, cəmiyyətdə aparıcı mövqe tuturlar.

Qonşu İran, Orta Asiya, Hindistan, Rusiya ilə fəal ticarət marşrutu üzərində qərarlaşdığından Lənkəran Xəzər dənizinin əsas liman şəhərlərindən biri statusunu alır. Yəqin elə buna görə də bu liman şəhərində müdafiə qalası tikilmişdi.

XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın qoşunları Lənkərana hücum çəkir. 1812-ci ildə müdafiə qalası yaxınlığında İran və Rusiya qoşunları arasında döyüş olur. 1913-cü il yanvar ayının 1-də general P.S. Kotlyarevskinin başçılığı ilə rus qoşunları qəti hücumla Lənkəranı tuturlar. Gülüstan sülh müqaviləsinə əsasən (1813) Lənkəran Rusiyaya birləşdirilir və qəza mərkəzinə çevrilir. 1897-ci ildə şəhər özünüidarə sistemi yaradılır.

Ərkivan qədim insanların yaşayış yeri, özəl təbiətli şəxslərin məskəni, aqrar təsərrüfat baxımından irəlidə olan

---

[7] ASE, IV cild, Bakı, 1980-ci il.

bir məkan idisə, Lənkəran bütün bu xüsusiyyətlərlə yanaşı, həm də iki qüdrətli dövlətin (İran və Rusiya) maraqlarının toqquşduğu, ticarət gəmilərinin lövbər saldığı, inkişaf etməkdə olan şəhər və mədəniyyətlərin qovuşduğu mərkəz idi. Tarix boyu gedən məşhur Talış üsyanları (1629-cu il, 1931-ci il), Rusiya ilə İranın buradakı mövqeyi uğrunda gedən müharibələr, nəhayət, liman şəhəri statusu da Lənkəranı Çindən Hindistana qədər hər yerdə tanıtmaqda böyük rol oynamışdır.

Əslində Lənkəran qəzası çar hökumətinin Qafqazda inzibati islahat haqqında 1840-cı il 10 aprel qanununa əsasən Kaspi vilayətinin tərkibində yaradılmışdır. 1859-cu ildə Bakı quberniyasının tərkibinə daxil idi. İndiki Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad rayonlarını əhatə edirdi. Lənkəran şəhəri mərkəz idi. Səbican, Lənkəran, Ərkivan məntəqələrindən və Muğan pristavlığından ibarət qəza idarəsində hakimiyyət rəisin əlində idi. 1897-ci ildə şəhər özünüidarə sistemi yarananda Lənkəran qəzasının sahəsi 5321,5 kvadratkilometr, əhalisi 131 min nəfər idi.

Lənkəran düyü istehsalına görə Qafqazda birinci yeri tuturdu. Burada o zamanlar çox qiymətli sayılan qızılboya istehsal edilirdi. Azərbaycanda Sovet hakimiyyəti 1920-ci iləd qurulmuşdusa da, Lənkəran qəzası yalnız 1929-cu ildə ölkənin rayonlaşdırılması siyasətinə uyğun olaraq ləğv edilmişdir.[8](2)

Qısa tarixi oçerkdən məlum olur ki, Fazil Bəşir oğlunun Azərbaycandan kənar yerdə özünü **Lənkərani** təxəllüsü ilə tanıtdırması elə anadan olduğu bölgəsini, yerini-yurdunu, coğrafi məkanını tanıtdırmaq kimi anlaşıqlı çıxır. Bu baxımdan cənab Fazil Lənkəraninin məhəlləçilikdən uzaq,

[8] ASE, IV cild, Bakı, 1980.

qəza mərkəzinə uyğun böyük ad seçməyi birləşdirici-ümumiləşdirici mövqeyi başa düşüləndir.

## 1774-1783-cü illər. İmperiya rəqabətinin Qafqaz meydanı. Rusiya istilasının əvvəlləri.

AZƏRBAYCAN XX ƏSRİN SONLARINDA

## *ŞEYX FAZİL LƏNKƏRANİNİN ÖMÜRLÜYÜNDƏN*

Rəhmətlik Fazil Lənkəraninin İrana mühacirət etməsi, onun həyatında maraqdoğurucu məqamlardan biridir. O, (h.q) 1342-ci ildə təkbaşına Ərkivandan İrana köçdü." Mühacirət amili bir çox tarixi şəxsiyyətləri ülvi dərəcələrə çatdırmış və bəşər tarixini əvəz edən ünsürə çevirmişdir. İlahi və mənəvi yönümlü mühacirətlərdə bu iş daha bariz şəkildə özünü göstərir. "Müfrədat" kitabının müəllifi Rağib İsfahani, küfr diyarından iman diyarına köçüləcək mənəvi hicrəti isbat edərkən **"Hər kəs Allaha tərəf müraciət etmək məqsədi ilə evindən çıxsa..."** [9] (1) ayəsinə əsaslanır.

Daxilən hicrət xaricə köç etməyə zəmin yaradır. Pislik və ruhi aludəlikdən qurtularaq, sadəlik və təvazökarlığa adət etmiş, eləcə də dinin keşiyində layiqincə durmaq üçün bütün maddi nemətlərə göz yumaraq saysız müsibətlərə sinə gərən şəxs mühacirətin ən gözəl növünü icra etmişdir. Ayətullah Lənkərani də bu insanlardan sayılırdı. O, bir çox əxlaqi keyfiyyətləri, o cümlədən, düşüncə saflığı, əməldə xalislik, təqva, tam varlığı ilə Allaha bağlanma hissi, fədakarlıq və Allah yolunda dözüm kimi səciyyəvi xüsusiyyətləri özündə cəmləşdirmişdi. Lənkəran qəzasında dinə düşmən kommunistlərin fəaliyyəti, müsəlman meydanını kiçildir və din təbliğatçılarına hər cür təzyiq göstərilirdi. Təzyiqlər bir çox hallarda edamlar, işgəncələr, həbs və sürgünlərlə sonuclanırdı. Ateist cəmiyyətin fəal üzvlərinə "allahsızlıq kitabçası" təqdim edilirdi. Dini

---

[9] Nisa, 100.

kitablar sıradan çıxarılırdı Xəfiyyələrin. ələ keçirdikləri dini materiallar, cinayət sənədi sayılırdı. Möminlər dini ədəbiyyatı quyulamağa məcbur olurdular. Belə bir boğucu və əzazil mühit hər növ dini fəaliyyətin qarşısına sədd çəkirdi. Beləliklə, Fazil Lənkəraninin doğma vətəni tərk edərək İrana gəlməsinin bir səbəbi də aydınlaşır. Təhsilini bitirdikdən sonra vətənə dönürsə də, orada yaşaya bilməyib yenidən İrana dönmək məcburiyyətində qalır. Əslində Ayətullah Lənkərani "Hər kim dinini qorumaq üçün hətta bir qarış da olsa öz vətənini tərk etsə, Allah ona cənnəti əta edər və onu Məhəmməd (s) və İbrahimin (ə) dostlarından edər."7 hədisini praktiki olaraq gerçəkləşdirmişdir.

O, tələbələrinə navazişlə buyurardı:

"Siz Allaha tərəf köç etməkdəsiniz. Elə əslində mühacirətinizin də səbəbi uca Allaha görədir. Əgər ona xatir elmi təhsil almağı seçmisinizsə, Allah sizin ruzinizi yetirəcək və "Allahın mühacirləri" dərəcəsinə yiyələnəcəksiniz".

Tələbələrə böyük təsir bağışlayan bu çıxışlarda bəzən Qur'ani-kərimdə hicrətlə bağlı ayəni sitat gətirirdi.

Həzrət Ayətullah Lənkərani yetkinliyə çatdıqdan sonra Lənkəran qəzasından Ərdəbil şəhərinə gələrək dörd il müddətində orada məskunlaşmalı oldu. Bu vaxt ərzində müqəddimə dərslərini və ərəb dilinin qramatikasını elmli və imanlı ustadların hüzurunda oxudu. Daha sonra Ərdəbildən vətənə dönərək orada təbliğ və tədrislə yanaşı təhsilini də davam etdirmiş, səth dərslərini yarıya qədər yerli ustadların yanında oxumuşdur. Atasının tə'kidi ilə İranda təhsilini natamam qoyub vətənə qayıtmış Fazil öz ustadı Şeyx Qüdrətin məsləhəti ilə yenidən İrana qayıtmalı olur. Çünki ustadı ona dinə qarşı mübarizənin gün-gündən gücləndiyini, həmçinin elm və mə'nəviyyatda kamilləşmək üçün yaşadığı məntəqənin gələcəkdə ona kifayət etməyəcəyini xatırladır. Ustadına bütün varlığı ilə bağlı olan, onu hədsiz dərəcədə

sevən Fazil atasından icazə alır, yenidən Ərdəbilə qayıdır və orada 3 il qaldıqdan sonra Zəncana köçərək 3 il müddətində oranın görkəmli alimlərindən faydalandı.

Hicri-qəməri tarixi ilə 1337-ci ildə Ayətullah Fazil Lənkərani müqəddəs Məşhəd şəhərinə köçür. O, İmam Rzanın (ə) pak məqbərə–ziyarətgahı yaxınlığında məskən salır. Çalışqanlığı sayəsində 5 il müddətində Ayətullah Ağazadə Kifayi Xorasani, Ayətullah Şeyx Murtəza Aştiyani və Ayətullah əl-üzma Ağa Hüseyn Qumi kimi görkəmli şəxsiyyətlərdən son dərəcə bəhrələnə bilir.

Ayətullah Lənkərani 1342-ci (h. q.) ildə müqəddəs Qum şəhərinə gəlməklə həyat kitabının yeni səhifəsini açdı. Bu müqəddəs şəhərdə bir tərəfdən çoxsaylı alimlərin və şiə mərceyi-təqlidlərinin mövcudluğu, digər tərəfdən özünün samballı ustadlardan istifadə etməyə son dərəcə maraqlı olması ona bilik əldə etmək, əxlaqi dəyərlərə yiyələnmək və nəfsini paklaşdırmaq yolunda cidd-cəhd etməkdə əlverişli şərait yaradırdı. Fiqh və üsul dərslərində Qum elmi hövzəsinin təsisatçısı Ayətullah əl-üzma Hairi Yəzdi kimi şəxsiyyətlərə şagirdlik etmişdir. Ayətullah əl-üzma Bürucerdi Quma gəldikdən sonra Fazil Lənkərani onun tədris etdiyi dərs halqasına birləşdi.10 Bəlkə də onun Ayətullah Bürucerdinin şagirdləri sırasına qatılmasının səbəbi hələ gənc ikən gördüyü yuxu idi. Bu barədə onun hörmətli oğlu, Ayətullah əl-üzma Fazil Lənkərani (Allah onu hifz etsin) belə deyir:

“Atam buyurardı: Ayətullah Bürucerdi Quma gəlməzdən əvvəl bir dəfə yuxuda Cəmkəran məscidində olduğumu gördüm. Məscidin həyətində isə su anbarının üzərində bir mənbər düzəltmişdilər. Məscidin həyəti cəmiyyətlə (tələbələrlə) dolu idi və Şeyx Tusi də minbərin üzərində nitq söyləyirdi. Atam yuxunun yozumunu gələcəkdə Ayətullah Bürucerdinin Quma gəlişi ilə izahlandırdı. Mən isə Ayətullah əl-üzma Bürucerdinin

təqvası və elmi dərəcəsinə vaqif olduğum üçün heç bir şübhə etmədən ona qoşuldum.”

Ayətullah Fazil özünəməxsus məziyyətləri və elmi təhsilə son dərəcə həvəs göstərməsi nəticəsində, bir çox şəxsiyyətlərin diqqət mərkəzində olmuş və Ayətullah Hairi və Ayətullah əl-üzma Bürucerdinin hörmətini qazana bilmişdi.

Məscidi-Əzəmdə (Böyük məscid) tikinti işi qurtardıqdan sonra, Ayətullah Bürucerdinin bəzilərinin narazılığına baxmayaraq, Lənkərani ağanı oraya imam-camaat seçməsi ona olan xüsusi rəğbət və e’timaddan qaynaqlanırdı. Qeyd etmək lazımdır ki, elm və alimlər diyarı olan Qum şəhərinin bir sıra özəllikləri var. Məsələn, bu şəhərin kimin hansı məscid və ya mədrəsədə, hansı dərs və ya kitabı tədris etməsi onların e’lan olunmadan, hansı məqam və dərəcədə olmasının göstəricisidir. Məscidi-Ə’zəm də Qumda (o zaman) say və keyfiyyət e’tibarı ilə camaat namazı qılınan ən mühüm mərkəz idi. Ayətullah Bürucerdinin Şeyx Fazili oraya imam-camaat tə’yin etməsi ona olan ən yüksək e’timadın təzahürüdür. Ayətullah Lənkərani Qumda yaşadığı müddətdə böyük maraq və həvəslə təhsil və tədrislə məşğul idi. Belə ki, qısa bir müddətdən sonra Həzrət Fatimeyi-Məsumənin (ə) məqbərəsinin və Əbdullah məscidinin (Ayətullah Fazilin dəftərxanası kənarında yerləşir) kənarında fiqh və üsul elmlərinin tədrisinə başladı. Habelə onun bir neçə il ərzində tədris etdiyi ali (xaric) fiqh dərsləri ətrafına xeyli tələbə toplaya bilmişdi. Bu elm bulağından su içmiş şəxslərə nümunə olaraq mərhum Şeyx Mehdi Hadəvi və cənab Vaizini göstərmək olar.

Ayətullah Fazilin elmi məsələlərə böyük həvəsi və yorulmaz səyi onu yüksək dərəcəyə çatdırmışdı. O, Bürucerdi, Kuhkəməri, Sədr kimi şəxsiyyətlərin zamanında çalışqanlıq göstərərək ictihad dərəcəsinə çatmış və şəriət

hökmlərinin izahı əsasında ərəb dilində “Nihayətul-əhkam” adlı elmi əsərini yazmışdır.

O, Qumda yaşadığı ilk zamandan öz mənzilində İmam Xomeyni, Ayətullah Bürucerdi, Ayətullah Gülpayqani, Ayətullah Sultani, Ayətullah Qazi və digər görkəmli alimlərin iştirakı ilə cümə günləri səhərlər rövzə məclisi keçirirdi. Bu mərceyi-təqlidlərin iştirakı məclisə xüsusi mənəvi ab-hava və cazibədarlıq bəxş edirdi. Məclis alimlərdən birinin çıxışı ilə başlayır və mə’sum imamların başına gəlmiş müsibətlər xatırlanırdı. Daha sonra alimlər müzakirəyə qoyulmuş hər hansı fiqhi məsələ ətrafında bir neçə saat polemika aparır və fikirlərini bölüşürdülər. Danışırlar ki, bu elmi dairədə Mərhum Ayətullah Lənkərani mübahisələri böyük həvəslə izləyir və bu məsələlərdə fəallıq göstərirdi.

Bir əsrə yaxındır ki, bu rövzə məclisinin təşkili davam etdirilir. Hazırda məclis rəhmətlik Ayətullah Lənkəraninin qədim evində (Ayətullah əl-üzma Fazil Lənkəraninin dəftərxanası) bir çox elm adamının və tələbələrinin iştirakı ilə hər cümə günləri keçirilməkdədir.

Ayətullah Lənkərani özünəməxsus əxlaqi xüsusiyyətlərilə fərqlənir.

Cəmiyyət və tanınmış alimlər əsl ixlas sahibi olduğu üçün ona hörmətlə yanaşırlar. Hələ Qumda ali (xaric) fiqh dərslərinin tədrisi ilə məşğul olarkən, mərceyi-təqlid kimi tanınacaq dərəcədə müctəhidlik həddinə yiyələnmişdi. Qum şəhərinə gəldikdən sonra şəriət hökmlərinə dair elmi risalə və yüksək elmi dərəcə sahibi olmasına baxmayaraq, Ayətullah əl-üzma Bürucerdinin dəftərxanasında ona ünvanlanan şəri sualları cavablandırma şöbəsinin məsulu vəzifəsində çalışırdı. O deyibmiş: “Cənab Bürucerdinin xidmətində olmaq əslində İslama xidmət etməkdir.”

Şücaətli olması onun digər bir səciyyəvi xüsusiyyətlərindən sayılır. Çoxları onun İslama

hörmətsizliklə danışanlara qarşı kəskin mövqe tutmasının şahidi olmuşdur. O din, şəriət, müsəlmanlarla bağlı məsələlərə diqqətlə yanaşır və nəhayət dərəcədə həssaslıq göstərirdi. Höccətül-İslam Səid İşraqinin onun cəsarətinə dair söylədiyi bir hadisəni nümunə gətirək:

“Ayətullah əl-üzma Bürucerdinin mərceyi-təqlidliyi vaxtlarında, bir gün Həzrət Məsumənin (ə) hərəminə (məqbərəsinə) gedərkən yolda üzləşdiyi mənzərə Ayətullah Lənkəranini hiddətə gətirir. O görür ki, iki polis, şah rejiminin əleyhinə danışan tələbələrin əllərinə qandal vuraraq qaravula (polis şöbəsinə) aparır. Bu səhnənin şahidi olan Lənkərani ağa hiddətlənib özünü Cənab Bürucerdiyə çatdırır. Möhkəm əsəbləşdiyindən bədəni titrədiyi halda yumruğunu yerə vurur. Ayətullah Bürucerdi təəccüblə onun bu hərəkətinin səbəbini soruşduqda, Fazil Lənkərani deyir: “Ağa! Qum şəhərində siz ola-ola necə İmam Zamanın (ə.c) əsgəri sayılan tələbələr qollarına qandal vurulmuş halda polis şöbəsinə aparılır?!” Bu xəbərdən təsirlənmiş Cənab Bürucerdi ondan soruşur ki, bu səhnəni öz gözüylə görüb, ya yox. Rəhmətlik Fazil deyir ki, bəli, öz gözüylə görüb. Bundan sonra Ayətullah Bürucerdi zəng edib şəhərin polis rəisini yanına çağırtdırır. Polis rəisi gələndə, Bürucerdi ağa, qəzəbli halda deyir: “Deyəsən qocalıb ağlını itirmisən. Tələbəyə qandal vurursan? Qayıt!” Ayətullah Bürucerdinin zəhmindən qorxuya düşmüş polis rəisi qaçmağa məcbur olur. Bu hadisə tələbələr arasında bir partlayışa səbəb olur. Qum elmi hövzəsində dərslər dayanır, e’tiraz dalğası bütün İranı bürüyür.”

O, tələbələrə xüsusi diqqət yetirirdi. Bu da onun qayğıkeşliyini göstərirdi. Özünün bir o qədər də varlı olmasına baxmayaraq, imkan daxilində tələbələrə əlindən gələn yardımı əsirgəmirdi.

Sadə yaşayış Ayətullah  Fazilin bariz məziyyətlərindən idi. Kiçik və sadə bir evdə yaşayırdı. Ailə üzvlərinin

çoxluğu, onun məişətini əsl probleme çevirmişdi. Xeyli sonralar mənzili genişləndi və hazırda şiə dünyasının böyük mərceyi-təqlidi, Həzrət Ayətullah əl-üzma Fazil Lənkəraninin dəftərxanası burada yerləşir.

Uzaqgörənliyi də ona məxsus məziyyətlərdəndir. Lənkəran qəzasında yaşadığı dövrlərdə, kommunistlər müsəlman dindarların fəaliyyətinə problem yaradırdılar. Bu durum onun iki dəfə İrana mühacirət edərək yenidən geri qayıtmasına səbəb olmuşdur. Anası dünyasını dəyişərkən Fazil ağa İranda idi. O zaman Sovetlər İttifaqının təhlükəsizlik orqanı onu təqib edirdi. DTK dəfələrlə onu yaxalamağa cəhd etmişdisə də uğur qazana bilməmişdi.

Bərəkətli ömrünün hər anını fiqhi və üsuli məsələlərin açıqlanmasına xalqın hidayət olunmasına həsr etmiş, özünü tam varlığı ilə İslam dünyasına bağlamış bu əzəmətli və azad insan hicri-qəməri tarixi ilə 1392-ci ilin səfər ayının on dördündə, 78 yaşında vəfat edir. Onun cəsədi izdihamlı cəmiyyətin iştirakı ilə Qumda həzrət Fatimeyi-Məsumənin (ə) məqbərəsi yaxınlığında, Şeyxan adlanan məkanda torpağa tapşırıldı.

Qısa tarixçənin bu yerində, hörmətli mərceyi-təqlid, rəhmətlik Ayətullah  Fazilin oğlu Ayətullah  Məhəmməd Fazil Lənkəraninin həyatından kiçicik fraqmentlər gətirmək istərdik.

O, nadir hallarda da olsa atası ilə birlikdə dəvət olunmuş mərasimlərə gedərdi. Çünki bütün səyini mütaliə və tədqiqat işlərinə sərf edən şəxs bu məclislərə getməyi öz inkişaf yolunda vaxt itkisi hesab edirdi. Belə məclislərə çox vaxt cənab Şəhristani Mərhum Ayətullah Fazillə gedirdi.18 Ayətullah  Bürucerdinin dərslərini ali səviyyədə qələmə almış tələbələrdən biri də Ayətullah  Fazil Lənkəranidir. O, özünün güclü hafizəsi sayəsində mətləbləri dərsin gedişatında deyil, zehnində saxlayaraq mənzilində yazırdı. Bir dəfə Ayətullah əl-üzma Bürucerdi onun şəxsi işinə

baxıb, atası mərhum Ayətullah  Fazilə belə demişdi: “Artıq kamil müctehiddir.” Bu zaman onun 20 yaşı var idi. Bu söz mərhum Ayətullah  Fazilin sevincinə səbəb oldu. Qum elmi hövzəsində ümumi səth dərslərinin tədrisinə  də elə o zamandan başlamış və otuz  ildən artıqdır ki, ali (xaric) fiqh və üsul dərslərini tədris edir. Yazdığı əsərlər, gecə-gündüz çəkdiyi zəhmətlərin bəhrəsidir.

Ayətullah  Məhəmməd Fazil Lənkərani atası haqqında belə bir əhvalat da danışır:

“Atamın vəfatından doqquz il sonra, İran İslam inqilabının zəfərinin ilk illərində Əfqanıstan vaqeələri zamanı şəhid olmuş bir cavanın meyitini Quma gətirdilər, Ayətullah Fazil Lənkəraninin məzarının aşağı hissəsində onun üçün qəbir qazdılar. Bu zaman onun məzarının divarı söküldü və Ayətullah Lənkəraninin cəsədi göründü. Onun kəfənsiz bədəni heç bir dəyişiklikliyə uğramamış və tam sağlam şəkildə qalmışdı. Bu hadisə şəhidin dəfnində iştirak edənlərin  də heyrətinə səbəb oldu.”

Bu hadisəylə bağlı bir məsəl var ki, deyərlər: «Qızıl torpağa düşsə öz tərkibini itirib aradan gedər. Lakin imanlı şəxsin bədənini çürütməyə həmin torpaq acizdir.»

O, Ayətullah Fazil Lənkəraninin yaxın adamlarından hesab edilir. Höccətül-İslam Yusif Dəbestani Qarabağ zonasının kəndlərindən olan Şirvanlıda (Bərdə rayonunun Şirvanlı kəndi) dünyaya göz açdı. Demək olar ki, Ayətullah əl-üzma Bürucerdi Quma gələn zamandan, Lənkərani ağa, Ayətullah Bürucerdinin silahdaşlarından olduğundan, Cənab Dəbestani onunla tanış olur və bu tanışlıq Ayətullah Fazilin vəfatına kimi öz qüvvəsini itirmir. Ayətullah Fazil şəkər xəstəliyinə mübtəla olub gözləri tutulduqda, cənab Dəbestani, onun üçün fiqhi kitabları oxuyur və Fazil ağa da qulaq asırdı.

## *ŞEYX YUSİF DƏBİSTANİNİN DEDİKLƏRİNDƏN*

Şeyx Yusif Dəbistani Qarabaği Bərdənin Şirvanlı kəndində anadan olmuşdur. Dəqiq təvəllüdünü bilmir. Yalnız onu xatırlayır ki, Azərbaycanda qurulmuş Sovet Hakimiyyətinin təhlükəsizlik orqanı işçiləri atasını təqib etdiyi üçün ailələri Tiflisə qaçmalı olmuş və orada tanışların köməyilə doğum haqqında yeni sənəd ala bilmişlər. Həmin sənəddə onun təvəllüdü 1306-cı il (h. ş.) göstərilib. Hər halda Şeyx Yusif yaşının 85 civarında olduğunu inkar etmir.

Amma yaxşı yadındadır ki, atası ailəsini Yevlax dəmiryol vağzalına, oradan Culfaya gətirib İrana yola salmış, özü isə xeyli müddət qaçaq həyatı keçirmək məcburiyyətində qalmışdır. Şeyxin təbirincə ailəsini ələ keçirə bilməyən "ÇK" işçiləri onların Şirvanlıdakı malı-mülkünü tezliklə qəsb etmişlər. Beləliklə, ailə İranda hər şeyi yenidən başlamalı olmuşdur.

Şeyx Yusif Dəbistani Qarabaği keçdiyi həyat yolunu bu kitabda verməkdə məqsəd on minlərlə müsəlman azərbaycanlı ailəsini dağıtmış mühiti, onun fəsadlarını oxuculara  bir daha xatırlatmaqdır. Fazil Lənkərani isə həmyerlilərinin, başqa dindaşlarının keşməkeşli həyatından xəbərdar olduğundan, daha doğrusu, Azərbaycandan hicrət etmiş insanların acınacaqlı taleyini bölüşdüyündən hal əhli idi və imkanı daxilində onların dadına çatırdı.

Şeyx Dəbistani Qarabaği bu barədə deyir:

–Əvvəllər Təbrizdə olurduq. Əlli ildən artıqdır ki, Qumda yaşayıram və cənab Fazil Lənkərani ilə tanışlığımın

tarixi də bir o qədər olmuşdur. Çox qeyrətli adam idi. Allah ona rəhmət eləsin. Onunla görüşdük, imdad istədik, o da Ayətullah Bürucerdiyə vəziyyətimizi danışdı, ondan bizim üçün vəkalətnamə aldı, şərait yaratdı.. Beləliklə, həyatımız yavaş-yavaş qaydasına düşməyə başladı. Kürdüstanın Piranşəhr məntəqəsinə axund təyin olunmağım da Məhəmməd Fazil Lənkəraninin qayğısı sayəsində baş tutdu.

Sosial qayğılarım xeyli azalmış, elmimi artırmağa, əsərlər yazmağa, minbərdən xalqa şövqlə İslami maarifçilik ideyalarını təbliğ etməyə həvəsim artmışdı. Allahdan qismət oldu ki, Həcc ziyarətinə də gedə bildim. İndi desəm, yəqin ki, inandırıcı çıxmaz. Həqiqətən mənim Məkkə ziyarətim 3 tümənə başa gəldi, amma o zamanlar bu, az məbləğ deyildi, xeyli pul idi. Fazil Lənkərani ilə ünsiyyətimiz günbəgün möhkəmlənirdi. Ziyarətdən sonra da faytona minib evimizə gəldi, açdığımız süfrə başında əyləşdi.

Qoy sözlərimdən elə çıxmasın ki, o ağa yerlibaz, tərəfkeş idi və ya təkcə mənimlə sıx əlaqə saxlayırdı. Xeyr! O bütün əzabkeş tələbələrin, ehtiyaclıların, Allah, İslam yolunda çalışanların, elm öyrənmək istəyənlərin və əlbəttə, Əhli-beytçilərin dostu, arxası idi. O qədər elmli, əməllərində dürüst, səmimiyyət sahibi, müəllim kimi sevimli, alim kimi şöhrətli, həqiqət və ədalət aşiqi idi ki, şiə aləminin məşhur müctəhidi Bürucerdi ağa Məscidi-Əzəmin İmam Museyi-Kazımin (ə) qızı, imam Rizanın (ə) bacısı həzrət Məsumə xanımın Qumdakı məşhur və əzəmətli ziyarətgah kompleksi nəzdində yeni məscidi inşa etdirəndən sonra camaat namazının pişnamazlığını məhz Fazil Lənkəraniyə həvalə eləmişdi. Burada pişnamaz olmaq Qumda, eləcə də İranda söz sahibi olmaq demək idi. Arxasında boş yer olduğunu heç vaxt eşitməmiş, görməmişdim. Özüm də müntəzəm camaat namazlarında iştirak edər, ibadətdən sonra piyada, yavaş-yavaş onların evlərinə tərəf gedərdik. Həmin ev indi Məhəmməd Fazil

Lənkəraninin dəftərxanasıdır. Bəli, məscidlə evə qədər olan yol boyu olan söhbətlər, müşküllərimizdən, görmək istədiyimiz işlərdən, şah zülmünün nəticələrindən, vətəndən və müsəlman xalqımızın acınacaqlı həyatından olardı. Onların darvaza qapılarına nə vaxt çatdığımızı hiss etməzdik. Bir də görərdim ki, Fazil qapının cəftəsini tıqqıldadır: "Fatma, mənim balam, gəl qapını aç!" deyir. Rəhmətliyin doqquz övladı vardı. Beşi qız, dördü oğlan. Fatma ən kiçiyi idi. Kiçik övlada münasibət, yəqin ki, hamıya aydındır. İndi o Fatma balamız Hacı xanımdır. İranın Türkmənistanla həmsərhəd məntəqəsi olan Qurqan şəhərinin imam-cüməsi, Vilayəti-fəqihin buradakı nümayəndəsi Aytullah Nurmüfidinin həyat yoldaşıdır.

Bütün varlığı ilə malik olduğu İslam təəssübkeşliyi, bununla bağlı qarşıya çıxan müşküllərə görə daim gərginlik onun səhhətinə təsir etməyə bilməzdi–həkimlər onda şəkər xəstəliyi aşkar etmişdilər. Gözləri zəifləmişdi. Mən hər gün ona baş çəkirdim. Tədqiqat etmək istədiyi əsərləri onun üçün ucadan oxuyurdum. O, diqqətlə qulaq asır və iradlarını deyirdi. Mən də yerindəcə düzəlişlər edirdim.

Çox zaman yeni evlənənlərin əqdini də biz ikimiz oxuyurduq: bir tərəfini o oxuyurdu, bir tərəfini də mən. Elə vaxt olurdu ki, əqdi oxuyub bitirdikdən, ailə həyatı quranlara təbrik edəndən sonra Fazil Lənkəraninin tələbə oğlu Məhəmmədə baxıb gülümsəyirdim. Onun nurani üzündə, elə bir ifadədən savayı heç nə yox idi–oxumaq!

Cavanlığından şan-şöhrətdən qaçan idi. Allahın razılığına çalışardı. Dünya üçün olan işlərə ürək qızdırmazdı. Şah rejiminin ən qatı vaxtlarında dünyəvilikdən uzaq, mənəviyyat aləminin nümayəndələri üçün çox çətin idi.

Əlhəmdülillah! Allah-təalanın hikmətilə hər şey bircə-bircə yerini aldı. Məhəmməd də evləndi, oğlu Məhəmmədcavad Lənkərani də ailə həyatı qurdu və

Ayətullah dərəcəsinə çatdı. Maşallah! Ot kökü üstə bitər. Elmə həvəs göstərməkdə, bilik qazanmaq bəhsləşməsində atasına, rəhmətlik babasına çəkib. Fazil Lənkərani ərəbcə risalə yazıb təhvil verəndə müasirləri olan qüdrətli alimlərin hələ risalələri yox idi. Bununla belə həmişə fikirli idi. Ürəklərimizi bir-birimizə açıb çox mətləbləri deyə bilirdik. Qəmginliyinin səbəbini soruşanda könülsüz də olsa deyərdi: "Əqidə yolunda nə qədər sabitqədəm olmağa çalışsaq da, canlı insanlarıq. Yusif, qəriblik özünü tez-tez büruzə verir. Mən də başqaları kimi yerli olsaydım, buranın dər-divarı mənə kömək olardı, indi iztirabım yox idi, elmdə xeyli irəli gedə bilərdim. Əmirəlmöminin əleyhissəlam da qəriblik dövrü keçirib. O cənabın bu barədə dediklərini bilirsən. Bəli, quş qanadla uçar, mənim qanadım yoxdur. «Münqəti əz vətən» (yəni "vətəndən əli üzülmüş mühacirlərik – **red**.) Məhəmmədin ki elmə bir belə həvəsi var, qorxuram şərait onun həvəsinə görə olmaya, çox nigaranam ondan ötrü. "Qərib qoyunun quzusu da qərib olar" deyiblər. Bunu deyəndə dostum, həmkarım, müəllimim, mənəvi böyüyüm Fazilin gözləri yaşardı.

Bütün bunlar ona dəlalət edir ki, o, anadan olduğu mühiti, Lənkəran qəzasının Ərkivan məntəqəsini unuda bilmirdi. Amma Allah-təalanın lütfü ilə tale elə gətirdi ki, oğlu Məhəmmədin yolu işıqlı oldu. Nurdan nur izi qaldı və ondan da yeni nur yarandı... Bu danışdıqlarım bir nəticədir. Nəticə işin gedişatından yaranır. İşin gedişatını xatırlayanda görürsən ki, rəhmətliyin nəfəsi İslama xidmətlə gedib gəlirdi. Hər cümə evlərində Quran rövzəxanlıq, mərsiyə məclisləri təşkil olunardı. Mərhum Fazil Lənkəraninin məziyyətlərindən çox deyilib, yəqin bundan sonra da deyiləcək, yazılacaq, kitablar bağlanacaq və bir nümunə kimi cavanlara təqdim olunacaq. Belə olanda mən istərdim ki, o cənabın məziyyət siyahısının başında "qeyrətli idi" kəlməsi yazılsın. Yadımdadır, onların evlərindən çıxıb küçə

ilə gedirdik. Gördük ki, jandarm iki ərdəbilli tələbənin qollarına qandal vurub aparır. Səbəbini soruşduq, guya rejimin əleyhinə danışıblar. Fazil Lənkəraniyə tərəf dönəndə gördüm ki, hirsindən rəngi qaçıb. Dedi ki, Yusif, mən bu hala dözə bilmərəm, gedək Bürucerdi ağanın yanına. Getdik. Bürucerdi ağanın hüzurunda öz hiddətini zorlamağa çalışan Lənkərani ayaqlarını yerə vurub dedi: "Tələbəni qandallamaq nə deməkdir?" Bir azdan digər tələbələr də əhvalatı eşidib yoldaşlarına havadarlıq məqsədilə Bürucerdi ağanın evi ətrafına toplaşdılar və bu yığnaq 15 gün davam etdi. Əlbəttə, nüfuzlu Bürucerdi ağa tələbələri buraxdırdı, amma mövcud haqsızlığa dözümsüzlük göstərmək, haqqın müdafiəsinə qalxa bilmək yəqinliyi yaddaşlarda həkk olundu. Biz yalnız sonralar təhlil aparıb gördük ki, İranda İslam inqilabının rişəsi, haradan və necə başlayıb.

## *MARAQLI GÖRÜŞ*

1994-cü ilin yazında Ayətullah Şeyx Məhəmməd Fazil Lənkərani Azərbaycandan İrana qonaq və ziyarətçi kimi gəlmiş məşhur ruhani mərhum Şeyx Məhəmməd İbrahimi ilə görüşdü. Bu görüş bir neçə cəhətdən çox maraqlı idi. Əvvəla ona görə ki, Ayətullah Fazil Lənkərani İslam dünyasının tanınmış çöhrələrindən olduğu halda, Qum Elmiyyə hövzəsinin rəisi, şiə aləminin mərcəyi-təqlidi, Şeyx Məhəmməd İbrahimi isə Qafqazın tanınmış din xadimi, Azərbaycanın ən savadlı və təcrübəli ruhanisi, eyni zamanda ölkə müsəlmanlarının yekdilliklə qəbul etdikləri «Şeyx» idi. İkincisi, bu şəxsiyyətlərin hər ikisi əslən Ərkivanlı idilər, canlarında, qanlarında Azərbaycanın - Ərkivanın məhəbbətini daşıyırdılar. Üçüncüsü, hal-hazırda öz ölkələrinin iftixarı sayılan bu alimlərin ataları yaxın dost, məsləkdaş və ustad-şagird olmuşlar.

Şeyx Məhəmməd İbrahiminin atası, şöhrəti dillər əzbəri olan mücahid alim Şeyx Qüdrətullah Nəcəfi-Əşrəfdə təhsilini başa vurduqdan sonra, ilk əvvəl öz doğma kəndi Ərkivanda, daha sonra Cəlilabad rayonunda tədrislə məşğul olmuşdur. Ərkivanda tədris etdiyi illərdə mərhum Fazil Lənkəraninin iste'dad, bacarıq və təqvası onun gözündən yayınmamış, bu səbəbdən öz sevimli şagirdinin elmi inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Söhbətimizin əvvəlində qeyd etdiyimiz maraqlı görüşdə məhz bu «ustad-şagird» münasibəti xatırladıldı. Ayətullah Məhəmməd Fazil Lənkərani buyurdu: Mərhum atam deyərdi ki, mənim din alimi olmağımda, bu müqəddəs yola bütün varlığımla bağlanmağımda ustadım Şeyx Qüdrətin rolu digər

ustadlarımın tə'siri ilə müqayisəolunmazdır. O qeyd edirdi ki, mənim hər nəyim varsa, Şeyx Qüdrətdəndir. Mərhum Şeyx Məhəmməd də öz növbəsində atasının Şeyx Fazilə yüksək məhəbbətindən, ona çox ümid bəslədiyindən danışdı. O, atasının dilindən belə söyləyirdi: Mən Fazili İrana göndərdim ki, həm zalım kommunistlərin şərindən amanda qalsın və həm də müctəhid olsun. Onda müctəhid olmaq ləyaqəti var idi. Mən onu dua etdim, İmam Zamana (ə) tapşırdım və bir e'timadnamə ilə böyük alimlərin yanına göndərdim. Siz onun həyatını izləyin, gəlib-gedənlərdən xəbər tutun, əgər bir gün onu görsəniz mənim salamımı çatdırın. Bura çatanda Şeyx Məhəmməd Ayətullah Fazil Lənkəraniyə xüsusi intonasiya ilə söylədi: Mən atanızın ziyarətinə nail ola bilmədim, ona görə də atamın salamını sizə çatdırıram. Bu sözdən sonra hər iki Şeyx kövrəldi.

***Bizə bu əhvalatı görüşün iştirakçısı olmuş İ.Hüseynzadə danışdı. Ona minnətdarlıq edirik.***

# *QUM ŞƏHƏRİ*

Qum İran İslam Respublikasının paytaxtı Tehrandan 150 kilometr cənub-qərbdə çılpaq dağlar qoynunda yerləşən, özünəməxsus yaranma tarixinə malik şəhərdir. Hicri tarixi ilə 83-cü ildən müsəlmanların məskunlaşdığı məntəqəyə çevrilib.

Abbasilər və Əməvilər dövrünün sitəmlərindən, yüksək vergi siyasətindən, mənəvi və cismani təzyiqlərdən usanıb abrına sığınan imamzadələr Ərəbistan cəmiyyətini tərk edir, şiəliyin bərqərar olunduğu yerlərə pənah aparırdılar. Əhli-beytdən olan 7-ci imamımız Musa əl-Kazımın (ə) qızı, 8-ci imamımız həzrət Rzanın (ə) bacısı Həzrət Mə’sumə də onlarla imam övladı ilə yanaşı burada məskunlaşmışdır. (İmam Rzanın (ə) iki baacısı isə Bakıya hicrət etmişdir) Tarix göstərir ki, bu sitəm, köçhaköç İranda Səfəvilər dövrünə qədər davam etmiş və sonra Qumda məscid tikintisi, abadlaşdırma işləri, bazar və karvansaraların inşası və s. tikintilər geniş vüsət almışdır. Bu işlərlə yanaşı şəhərsalma və memarlıq abidələrinin ucaldılması II Şah Abbasın hakimiyyəti zamanı özünün zirvə mərhələsinə çatmışdır və Qum bir şəhər kimi formalaşmışdır.

## *Şəhərin adı haqqında*

Şəhərin İslamaqədərki adının “Komidon” olduğu bildirilir. Lakin bu məntəqənin Qum (Qom) kimi çağrılmasına aid hədislər və rəvayətlər mövcuddur ki, onların reallığa daha uyğun olduğunu möhtərəm mənbələr də təsdiq edir. Əhli-beytdən olan iki hədisə, daha sonra bir rəvayətə nəzər salaq. Şiə hədislərinin birində deyilir ki, İslam Peyğəmbəri (s) Meraca gedəndə bu ərazinin üzərindən keçərkən iblis məlunu görür. Məlun torpaq üzərində oturub dizlərini qucaqlamış halda gözlərini yerə zilləyibmiş. Məhəmməd Peyğəmbərin (s) mübarək dilindən bu zaman “Qum!” sözü çıxır. Yəni qalx burdan, get! (Məlun)

İkinci şiə hədisində buyurulur ki, intizarında olduğumuz Qaimi Ali Muhəmməd (ə)–yəni on ikinci İmam Mehdi Sahibəz-Zaman (ə) zühur edən zaman bu şəhər əhalisindən kömək alacaq. O zaman İmama (ə) köməkçi olmaqdan ötrü yerbəyerdən nidalar səslənəcək: “Qum!” “Qalx!”

Rəvayət isə belədir ki, Nuhun (ə) gəmisi təlatümlə üzə-üzə su sahəsinin bu yerinə çatanda (Qum şəhərinin üstünə) həyəcan nisbətən səngiyir, gəminin hərəkətində bir aramlıq hiss olunur. Sonra yenə də əvvəlki fırtına qalxır.

Qum şəhərinin İslamaqədərki vaxtından tutub bu günümüzə qədər həm dünyada, həm də İranda çox şeylər, çox münasibətlər dəyişilib. Amma, demək olar ki, dəyişilməz bir məsələ o vaxtdan davam edir. O da adı Qum şəhəri ilə bağlı insanlara rəhbərliyin mənfi münasibətidir...

## *Problemli Qum*

İndi bir milyondan çox əhalisi olan Qum şəhəri müsəlman dünyasının, xüsusilə də şiə aləminin mühüm elm mərkəzidir. Keçən əsrin əvvəlinə kimi bu yükü Livanın Cəbəlamil vadisi, İraqın Kərbəla və Nəcəf şəhərləri çəkirdisə, hazırda ictimai-siyasi hadisələr, digər proseslər və münasibətlər estafeti Qum şəhərinə "təhvil verilmişdir."

Şəhər əhalisinin nəzərə çarpacaq qədər tərkib hissəsi İslam alimlərindən və tələbələrdən təşkil olunmuşdur.

Qum, eyni zamanda, indi İİR-nın ən problemli şəhərlərindəndir. Bu müşküllərin bünövrəsi buranın şiə–Allahdeyən qaydada yaşamaq istəyənlərin pənah yeri statusu olan zamanda qoyulmuş, Şahlıq dövründə zirvə həddinə çatmışdır. İranda İslam inqilabı qələbə çalandan sonra insanlar Allah qayda-qanunları ilə yaşamağa üstünlük versələr də, kənar təzyiqlər səngimək bilmir. Qonşu respublikadan gəlib burada elmi Hövzənin vəsaiti hesabına yaşayıb-oxusalar belə, sonra vətənə qayıdan məzunlar iş tapmır, Qumda təhsil aldıqlarına görə "etibarsız" hesab olunurlar. Bu şəhər hakim dairələrin yaddaşında nədənsə «İnqilab beşiyi», «Müxalifətçilər şəhəri» kimi qalmışdır...

Pəhləvi sülaləsindən olan hakimlər Qumun inkişaf etməməsi naminə ardıcıl tədbirlər həyata keçirmişlər. Sosial-iqtisadi problemlərin həllinə başı qarışan şəhər sakinlərinin evləri daxma-daxma artmış, şəhər, təbii olaraq lüzumsuz olaraq sahəsini genişləndirmişdir. Nəticədə cəmi 1 milyon əhalisi olan Qum, sakinlərin say nisbətinə görə böyük əraziyə malik indiki şəkli almışdır. Qaz, su, elektrik xətləri, yol nəqliyyat məsrəfləri və s. urbanizasiya xərcləri minimum ola biləcək həddi xeyli aşır. Torpaq sahəsinin

qiyməti artdıqca, mərkəzdə ev və mənzillərin dəyəri də xeyli qalxır.

Əlverişsiz təbii şərait kənd təsərüfatının daha sürətlə inkişafını ləngidir. Xatırladaq ki, yayda havanın hərarəti kölgədə bəzən 50 dərəcəyə çatır. Qışda nadir hallarda qısa müddətli qar görünür, payız və baharda isə yağış suları şoran torpaqları sirab edə bilmir. Əhali içməli suyu pulla alır. Kiçik sənaye obyektləri nəzərə alınmazsa, əsas məşğuliyyət növü iaşə sahəsi və ticarətdir. Amma şəhərə hər il milyonlarla zəvvar gəlir. İİR-nın yeni seçilmiş Prezidenti Cənab Mahmud Əhmədinəjadın məqsədyönlü siyasəti özünü müqəddəs Qum şəhərinin abadlaşdırılmasında da göstərir. Mə'sumə xanımın ziyarətgah kompleksi yenidən qurulur və onun bir kilometr radiusunda genişləndirmə layihəsi həyata keçiriləcək.

## *Qumla bağlı bə'zi rəqəmlər*

* Şəhərin əhalisi bir milyonu ötmüşdür.

* Burada 600-ə yaxın ziyarətgah mövcuddur.

* Tarixi 1000 ildən çox olan "Hövzeyi-elmiyyə" mərkəzinin ən mütəşəkkili Qum şəhərində yerləşir.

* 75 xarici ölkədən dini təhsil dalınca bura 10 min tələbə gəlmişdir.

* Qumda dini təhsil müəssisələrində 300 azərbaycanlı tələbə oxuyur.

* Qumda oxuyan bütün tələbələrin (90 min) təhsil və yaşayış xərclərini müctəhidlər ödəyir.

* Bu şəhərdə 40 minə yaxın yüksək dini-elmi dərəcəsi olan alim məskunlaşıb.

* Təkcə Ayətullahul-üzma Şeyx Məhəmməd Fazil Lənkəraninin dəftərxanası yalnız 2005-ci ildə 20 min müsəlmanın məktubunu cavablandırmışdır.

## *Şİə aləmİnİn mərcəyİ-təqlİdİ Ayətullahül-üzma Hacı Şeyx Məhəmməd Fazİl Lənkəranİnİn ömürlüyündən*

Ayətullahül-üzma Şeyx Məhəmməd Fazil Lənkərani 1310-cu hicri şəmsi ilində (1931-ci miladi) İranın müqəddəs Qum şəhərində dünyaya gəlmişdir.

Alim özü və valideynləri haqqında buyurur: «Mən bu ailəmizin dördüncü oğluyam və yalnız mən ruhani oldum. Hələ orta məktəbdə müəllim bizə "gələcəkdə nə olacaqsınız?" adlı inşa mövzusu verəndə mən yazdım ki, "ruhani olmaq istəyirəm". Özü də bu sözləri elə bir dövrdə yazırdım ki, o zamanlar ruhanilər bəzilərinin nəzərində ağılsız və yolunu azmış kimi qiymətləndirilirdi.»

Məhəmməd ibtidai təhsil aldıqdan sonra on üç yaşında Qum Elmi Hövzəsinə daxil olub İslam dininin incəliklərini öyrənməyə başlayır. İstedadlı və bacarıqlı olduğu üçün adətən, normal halda 10-15 ildə oxunulub qurtaran müqəddimat və səth dərslərini altı ildə oxuyub başa çatdırır. On doqquz yaşında ikən Ayətullah Bürucerdinin "İstidlali fiqh və üsul" dərslərinin xaricinə gedir. Yaşının az, ağıl və zəkasının kifayət olması ilə ustad və tələbələrin diqqətini cəlb edir. Onun səmimi dostu və elmi müzakirələrdəki yoldaşı, əvvəldə qeyd etdiyimiz kimi, İmam Xomeyninin (r) oğlu şəhid Ayətullah Mustafa Xomeyni olmuşdur.

Cənab Məhəmməd Fazil Lənkərani özünün təhsil illərini bu cür xatırlayır: «Orta məktəbi qurtardıqdan sonra İslami elmləri öyrənməyə son dərəcə rəğbətlə başladım... Ərəb ədəbiyyatının orta və ali səviyyəsinin bütün dövrələrini (kurslarını) yüksək səviyyədə oxudum. "Yüksək

səviyyədə” deməkdə məqsədim budur ki, mən hər kitabı dərslərin gedişatında iki dəfə oxuyurdum. Əvvəlcə müəllim dərsi sinifdə tədris edirdi, dərsdən sonra isə həmin dərsləri dostlarımla birgə hazırlayıb yenidən mübahisə edirdim. Elə buna görə də dərslərimdə irəli getdim və ilk dövrənin dərslərini altı il ərzində başa vurdum. Dəqiq yadımdadır, on doqquz yaşım olanda Ayətullah Bürucerdinin xaric dərslərində iştirak edirdim. İlk təhsil günlərimdə elmi mübahisə etdiyim bir dostum var idi. Dərsləri onunla bir yerdə hazırlayırdıq. Qışın soyuq günlərində “mütəhhər hərəmin” eyvanında açıq havada əyləşib elmi mübahisə etməyə məcbur olurduq. Ayətullah Bürucerdi bir məclisə dəvət olunmuşdu. Mən də atamla birlikdə bu məclisdə idim. Ayətullah Bürucerdi “Mütəvvəl” kitabından bir şer oxudu və bu şerin təhlili izahını məndən soruşmağa başladı. Mən dərhal cavab verdim. O cavabımdan razı qalıb mənə əlli tümən pul hədiyyə etdi. Bu məbləğ o günlərdə çox dəyərə malik idi. Belə bir böyük şəxsiyyətin hədiyyə verməsi məni daha da ruhlandırdı və bundan sonra öz dərslərimə və əməllərimə daha diqqətlə nəzarət etməyə başladım.»

Məhəmməd Fazil Lənkərani on bir il müddətində Ayətullahül-üzma Bürucerdinin üsul və fiqhin xaric dərslərində, həmçinin doqquz il Ayətullahül-üzma İmam Xomeyninin (r) dərslərində iştirak etmiş, bu iki elm mənbəyindən son dərəcə bəhrələnmişdir.

O, Ayətullah Əllamə Təbatəbainin fəlsəfə və təfsir dərslərində iştirak edərək bu görkəmli şəxsiyyətin də maarif dolu elm dəryasından imkan olduqca faydalanmışdır.

Ayətullahül-üzma Məhəmməd Fazil Lənkərani Qum Elmiyyə Hövzəsində bir müddət səth dərslərini tədris etmişdir. İndi 30 ildən çoxdur ki, üsul və fiqh fənlərini tədris edir. Bu dərslərdə Qum Elmiyyə Hövzəsinin 700-dən çox alim və tələbələri iştirak edir.

Xeyli vaxtdır ki, onun xaric dərslərinin lent yazısı İİR radiosundan efirə buraxılır və İranın hər məntəqəsində, habelə, dünyanın müxtəlif yerlərində elm adamları ondan faydalanırlar.

İmam Xomeyni (rəhmətullahi ələyh) tağut Pəhləvi rejiminin törətdiyi zülm və fəsada qarşı mübarizəyə başlayanda, Ayətullahül-üzma Məhəmməd Fazil Lənkərani ən yaxın dost, sirdaş kimi onunla qədəm-qədəm hərəkət edir. İslam İnqilabının qələbəyə çatması üçün yorulmadan fəaliyyət göstərir, Qum Elmiyyə Hövzəsinin fəal üzvlərindən sayılırdı. Dəfələrlə dövlət məmurları tərəfindən tutularaq həbs edilmiş, axırda isə "Bəndəri Lənge"yə sürgün edilmişdir. Orada dörd ay qalandan sonra Yəzd şəhərinə sürgün olunur və iki il yarım orada qalır.

Əhli-beyt (əleyhimussəlam) məhəbbəti onun Qum şəhərinin mühüm yerlərində camaat namazına imamlıq etməyə sövq edir. Ayətullah Nəcəfi Mərəşinin vəfatından sonra tələbələr və Qum camaatının təkidi ilə Həzrəti Məsumə ələyhəssəlamın hərəmində camaat namazına imaməti öhdəsinə götürdü ki, minlərlə alim, tələbə və ziyarətə gələnlər onun arxasında namaz qılıblar.

Həzrəti İmam Xomeyninin (r.ə) vəfatından sonra möminlərdən çoxu təqlid məsələsində ona müraciət etməyə başladılar. Mərhum Ayətullah Ərakinin vəfatından sonra isə, Qum Elmiyyə Hövzəsi Müdərrislər Şurası (Camieyi-Müdərrisin) tərəfindən rəsmi olaraq ilk şəxs kimi İslam ümmətinə mərcəyi-təqlid seçildi. İndi onun dünya müsəlmanları arasında yüz minlərlə müqəllidi var.

## *Ali (xaric) dərslər*

19 yaşlı bu cavan oğlan mərhum Ayətullah Bürucerdinin ali fiqh dərslərində iştirak etməyə başlayır. Tələbələr təəccüblə bir-birinə baxır və onun bu sinfə təsadüfən gəldiyini düşünürlər. Lakin o, dərslərdə mütəmadi iştirak edir.

Fatimiyyə günləri (cəmadil-əvvəl ayının 13-dən cəmadis-sani ayının 3-ədək olan 20 gün) imiş. Onların evində əza məclisi qurulubmuş. Bir gün Ayətullah Bürucerdi onu göstərib atasından soruşur: “O da dərsdə iştirak edirmi?” Mərhum Fazil cavab verir: “Məhəmməd nəinki sizin dərsinizdə iştirak edir, hətta buyurduğunuz bütün mətləbləri ərəbcə yazır”. Ayətullah heyrətlənib, onun yazdıqlarını istəyir və yarım saat ərzində diqqətlə oxuyub deyir: “Güman etməzdim ki, o bu yaşında dərslərin bütün incəliklərindən xəbərdar olsun və onları gözəl ibarələrlə, özü də ərəbcə yazsın”.

Həmin yazıların 1957-ci ildə “Nəhayətüt-təqrir” adlı 1-ci cildi, bir neçə ildən sonra isə 2-ci cildi çapdan çıxdı. Bu kitabdan söhbət düşəndə mərhum Ayətullah Bürucerdi deyərmiş: “Cavan tələbə – cavan müctəhid! Mən dünyadan köçəcəyəm, məndən qalan isə bu kitab olacaq”.

Bir müddət sonra Ayətullah İmam Xomeyni üsul elminin ali dərslərinin tədrisinə başlayır və Məhəmməd Fazil Lənkərani 7 il bu dərslərdə də iştirak edir, uyğun elmin bütün sirlərinə yiyələnir. Özü bu barədə deyir:

“Ayətullah Bürucerdi ömrünün son 7-8 ilində gündə yalnız bircə saat tədrislə kifayətlənirdi. Təbii ki, tələbə üçün bu çox azdır. Ona görə də mən əlavə dərs yeri axtarırdım.

Bir dəfə eşitdim ki, İmam Xomeyni üsul dərslərinə başlayıb. Mən onun necə tədris etdiyini bilmirdim. Amma, çox keçmədi anladım ki, axtardığımı tapmışam.

İmam Xomeyni fəlsəfə, irfan və digər elmlərdə də ustad olduğundan mətləbləri elə bəyan edirdi ki, hər şey gün kimi aydın olurdu”.

İmam Xomeyninin tədris etdiyi dərsləri tələbəlik həyatının ən şirin xatirələri və özünün ən böyük iftixarı adlandıran alim daha sonra deyir:

“İmam Xomeyninin dərslərində iştirak etdiyim vaxtlar bir tələbə kimi mənim ən şirin günlərim sayılır. Onun dərsləri bəzən 90 dəqiqəyə qədər uzanırdı, amma nə özü yorulurdu, nə də tələbələr. O dərslərin şirin xatirəsi hələ də yadımdadır. Mən onlardan ləzzət alırdım. O günlər Allahın mənə bəxş etdiyi ən şərəfli anlar idi”.

Beləliklə, istedadlı tələbə 11 il mərhum Ayətullah Bürucerdinin, 9 il isə İmam Xomeyninin dərslərində iştirak etməklə, 30 yaşında ikən müctəhidlik məqamına çatmışdır. Ayətullah Möhsininin dediyinə əsasən, Ayətullah Bürucerdi onun artıq müctəhid olduğunu dəfələrlə qeyd etmişdi.

## *Bir xatirə*

“Bizim İmam Xomeyni ilə münasibətimiz eyni ailə üzvlərinin münasibəti kimi idi. Onun mənə və mənim də ona xüsusi məhəbbətim var idi. O mənim atamla və mən onun oğluyla yaxın dost olduğumuzdan, ailəvi get-gəlişimiz vardı. Yadımdadır, bir hadisə ilə bağlı mən çox nigaran idim. O vaxt artıq Mustafa şəhid edilmişdi. İmam mənə dedi: “Mən səni oğlum Mustafanın yerində bilirəm. Mənim üçün sizin aranızda heç bir fərq yoxdur”. O deyirdi ki, məni körpəliyimdən böyüdüb. Doğrudan da belə idi".

Onu da qeyd etmək lazımdır ki, İmam Xomeyninin tapşırığı ilə, vəfatından sonra onun ixtiyarında qalan şəri ödənişlər (xüms, zəkat və s.) məhz Ayətullah Fazil

Lənkərani və Qum elmi hövzəsinin rəyasət heyəti tərəfindən elə buranın işlərinə xərclənmişdir.

## *Digər dərslər*

Məhəmməd Fazil Lənkərani beş ilə qədər hikmət və fəlsəfə dərsləri almış, mərhum Əllamə Təbabaidən bəhrələnərək Səbzəvarinin "Mənzumə" və Molla Sədranın "Əsfar" kitablarını öyrənmişdir. Bunlardan əlavə o müxtəlif ustadların əxlaq və ideoloji bəhslərə aid dərslərində də iştirak etmişdir. Lakin onun əsas ixtisası şiə fiqhi və üsul elmləridir.

## *Tədris*

Məhəmməd Fazil Lənkərani hövzəyə daxil olduqdan bir neçə il sonra, 16 yaşında ikən təhsillə yanaşı tədrisə də başlamışdır. Uzun illər ərəb dili, məntiq, üsul, fiqh və s. dərsləri tədris etdikdən və yüzlərlə şagird yetişdirdikdən sonra Məkasib, Rəsail və Kifayə kitablarını tədris etməyə başlayır. Onun Kifayə dərslərində 600-700 tələbə iştirak edirdi. Bu dərslər hövzə tələbələri tərəfindən böyük rəğbətlə qarşılanır və o, hövzənin ən məşhur ustadlarından hesab olunurdu. Həyatının uyğun dövrünü xatırlayan Ayətullah deyir: "Şərhi-lümə" kitabının İrs bölməsini tədris etdiyim vaxt dərsdə təxminən 100 nəfər iştirak edirdi. Bir gün diqqət yetirib gördüm ki, onların hamısı yaşca məndən böyükdür."

60-cı illərin sonlarında Məhəmməd Fazil Lənkərani, Kifayə dərsində iştirak edən tələbələrinin xahişi ilə ali (xaric) üsul dərsinin tədrisinə başlayır və beləliklə böyük alim və müctəhidlər arasında seçilir.

Nitqinin şirinliyi, şiə dünyasının məşhur fiqh və üsul alimlərinin elmi əsasları barədə dərin məlumatı, əhli-sünnə alimlərinin nəzərləri ilə tanışlığı, güclü tədqiqat və

araşdırmaları, habelə, şagirdlərini elmi bəhslərdə yaxından iştirak etməyə çağırıb möhkəm dəlillər və tutarlı cavablarla onların iradlarını aradan qaldırması, elmi hövzənin bu yorulmaz ustadının məziyyətlərindən sayılır. Elə buna görə də səthi dərsləri başa vuran tələbələr onun dərslərinə can atırdılar. Bir müddətdən sonra tələbələrinin xahişi ilə o, ali (xaric) fiqh dərslərinin də tədrisinə başlayır. Bu dərslər də hövzənin ən rövnəqli dərslərinə çevrilir. Bu cür tədrisdən bəhrələnmiş tələbələr indi elmi hövzənin adlı-sanlı ustadlarından və İslam dünyasının sayılıb-seçilən elmi, ictimai və siyasi simalarından hesab olunurlar.

Yaşına və səhhətində yaranan ciddi problemlərə baxmayaraq, Ayətullah Şeyx Məhəmməd Fazil Lənkərani bu gün də özünün ali dərslərini davam etdirir.

## *Elmi hövzədə xidməti*

İmam Xomeyni İslam inqilabının qələbəsindən sonra Qum elmi hövzəsinin idarəsini Ayətullah Məhəmməd Fazil Lənkəraniyə tapşırmışdı. O, hövzənin Müdərrislər Şurasına başçılıq edirdi.

Bir gün doktor Behişti gileylənib demişdi: “Siz niyə bizə dövlətin idarəçiliyində kömək etmək üçün Tehrana gəlmirsiz?” Ayətullah Fazil Lənkərani belə cavab vermişdi: “Siz hövzədən ayrılıb bu işlərlə məşğulsuz. Daha hövzədə bir kimsə qalmayıb ki, biz də Tehrana gələk“. İmam Xomeyni də onun bu fikri ilə razılaşaraq, Qumda qalmasını müsbət qarşılamışdı.

On il elmi hövzənin İdarə Heyətinin sədri və Feyziyyə mədrəsəsinin müdiri vəzifəsində çalışmış alim digər məsul şəxslərlə birgə tələbələrin həm elmi, mənəvi və həm də məişət məsələləri ilə ciddi maraqlanırdı.

Tələbələrin elmə yiyələnmələrini sürətləndirmək məqsədilə onları elmi dərəcələr üzrə qruplaşdırmaq,

“Məhdiyyə” tələbə qəsəbəsinin təsis edilməsi, Feyziyyə mədrəsəsinin böyük iclas zalının tikilməsi və bir çox başqa işlər onun təkliflərindəndir.

Onun tədris sistemində səmərələşdirici təkliflərindən biri də hövzənin ayrı-ayrı ixtisaslara bölünməsidir. Hövzəyə müdiriyyəti dövründə bununla bağlı çox zəhmət çəkmiş, mərceyi-təqlid olduğu zaman isə “Məsum imamlar“ fiqh mərkəzini yaratmışdı.

Ayətullah dünyanın müxtəlif bölgələrində olan dini-elmi hövzələrə dəyərli xidmətlər göstərir. Qum elmi hövzəsinin 43 min, Məşhəd elmi hövzəsinin 10 min, İsfahan elmi hövzəsinin 6 min tələbəsinə, habelə, digər hövzələrin minlərlə ruhani və tələbələrinə onun dəftərxanası tərəfindən aylıq təqaüd verilir.

Ayətullah Lənkəraniyə görə, dini tələbələrin təqaüdü yalnız şəri ödənişlər vasitəsilə təmin olunmalıdır. Onun fikrincə, nəyin bahasına olursa-olsun, elmi hövzələr heç bir dövlət və hökumətə bağlı olmamalı və öz tarixi, mənəvi müstəqilliyini qorumalıdır. Bir neçə il əvvəl hövzəyə dövlət büdcəsindən pul ayrılması barədə səslənən bir təklifə cavabında bunu elmi hövzə və onun gələcəyi üçün ciddi təhlükə hesab etmişdi. Onun ayırdığı təqaüdlər isə müqəllidləri (ona təqlid edənləri) və digər möminlər tərəfindən dəftərxanaya köçürülən şəri ödənişlər fondundandır.

Arzularından biri Qurana təfsir yazmaq olan Ayətullah Lənkərani, fiqhi bəhslərə görə buna vaxt tapmasa da, cümə axşamı və cümə günləri hövzədə istirahət günləri olmasından istifadə edib Quran təfsiri mövzusunda çıxışlar etmiş və bu çıxışlar “Mədxəlüt-təfsir” adlı kitab şəklində çapdan çıxmışdır.

## *Ayətullah Lənkərani mərceyi-təqlid kimi*

On ikinci imamın təxminən 1100 il öncə başlayan böyük qeyb dövrü davam edir. Bu dövrün əsas səciyyəvi cəhəti ilahi höccətin gizliliyi və buna uyğun olaraq mərceyi-təqlidlik institutunun meydana çıxmasıdır. Qeyb müddətində özünün elmi, təqvası və ədaləti ilə digərlərindən seçilən müctəhidlər, mərceyi-təqlid kimi tanıtdırılır. Belə müctəhidlər Quran, hədis və digər mənbələrdən istifadə edərək şəri hökmləri, xüsusilə də yeni və şübhəli, mübahisəli məsələlərin hökmünü bəyan etməli, müctəhid olmayanlar isə onlara təqlid edərək əmrlərini həmin hökmlərə uyğunlaşdırmalıdırlar.

İmam Xomeyninin vəfatından sonra hövzənin böyük ustadları Ayətullah Məhəmməd Fazil Lənkəraniyə müraciət etdilər ki, mərceyi-təqlid olsun. Lakin alim qətiyyətlə bildirdi ki, Ayətullah Gülpayqani və Ayətullah Əraki olan yerdə başqalarını, yəni onu önə çəkmək düzgün deyil. Onların hər ikisinin vəfatından sonra, (1994-cü ilin dekabr ayında) Ruhanilər cəmiyyəti və onun ardınca Qum elmi hövzəsinin Müdərrislər Şurası yeddi müctəhidi mərceyi-təqlid kimi elan etdi. Ayətullah Məhəmməd Fazil Lənkəraninin adı bu yeddi nəfərlik siyahının başında dururdu.

## *Məziyyətləri*

Sadə həyat tərzi, təvazökarlıq və mehribanlıq Ayətullah Məhəmməd Fazil Lənkəraninin əsas məziyyətlərindəndir. Bu xüsusiyyətlər hələ uşaq ikən onun təbiətinə nüfuz etmiş, cavanlığında elmi hövzənin, habelə, Ayətullah Bürucerdi, İmam Xomeyni və Əllamə Təbatəbai kimi tarixi şəxsiyyətlərin elmindən və mənəvi dəyərlərindən faydalanmaqla kamilləşmişdir.

Fazil Lənkərani digər hövzə tələbələri kimi sadə yaşayış tərzi keçirmişdir. O, ailə həyatı qurduqdan xeyli sonra da, hətta, övladlarının sayı beşə çatdıqda belə ikiotaqlı ata evində yaşayırdı. Yalnız bundan sonra qayınatasının hədiyyə etdiyi yeni mənzilə köçdü. Yarıməsrlik tikili olmasına baxmayaraq, o indi də həmin evdə yaşayır.

O heç zaman şəxsi rifahı üçün çalışmamışdır. Hətta ailədə kimsə zəruri olmayan məişət əşyası almaq istədikdə, onun etirazı ilə üzləşməli olur. Oğlu Şeyx Məhəmməd Cavad Lənkərani deyir: "Bir gün anam təzə pərdə alıb, asmışdı. Atam onu görən kimi dedi: "Bu saat onu burdan aç!" Lakin, sonra anam məndən xahiş etdi ki, atamı razı salım, axı evdə pərdə lazımdır..."

Şeyx Məhəmməd Cavad əlavə edərək deyir: "Atamın mərceyi-təqlid olduğu bu on iki ildən artıq dövrdə bir neçə günlük Məşhəd ziyarətini çıxmaq şərti ilə o, bütün yay tətillərini, havası olduqca isti və ağır olan Qum şəhərində keçirir. Halbuki, ətraf kəndlərdə ab-havası yaxşı olan yerlər çoxdur. Lakin o, tələbələrin zirzəmilərdə, dar və qaranlıq otaqlarda yaşadığını görəndə, öz rahatlığı barədə düşünə bilmir. Buna görə də geyindiyi paltarlar da çox sadədir. Son 20 ildə əksər vaxtını hövzə işlərinə sərf edir, hətta yay tətillərini də. Bir dəfə yayda xəstəliyinə görə Tehranda qalmalı oldu. Amma hövzə işlərilə bağlı 52 dəfə Quma gəldi və bəzən gecənin yarısına qədər uzanan iclaslarda iştirak etdi".

Şahidlərin söylədiyinə görə, Ayətullah Fazil Lənkərani elmi dərəcəsi, alim nüfuzuna baxmayaraq, atasının qulluğunda həmişə bir xidmətçi kimi dururdu.

Ayətullah Bocnurdi deyir: "O, ibadətə və misal üçün deyim ki, gecə namazına çox böyük diqqət göstərir. Amma daha çox elmi, savadı və əxlaqı ilə tanınır. Belə məsələləri heç yerdə bəyan etmir və bunu yalnız onun yaxın adamları bilir. Onunla qohum olduğumdan mənə bəllidir ki, çox sadə

həyat tərzi keçirir. Onun mərceyi-təqlid olmazdan qabaqkı və sonrakı yaşayışı arasında heç bir fərq yoxdur".

Ayətullah Nurmufidi deyir: "İnsan bəzi dahilərin yanında olanda, özü ilə onun arasında bir pərdə hiss edir, qəriblik duyur. Lakin, Ayətullah Lənkərani o qədər təvazökar insandır ki, onun yanında özünü çox rahat hiss edirsən. Belələri indi çox azdır".

Şeyx Məhəmməd Cavad: "O, mərceyi-təqlid olduğu vaxtdan bu günədək bir dəfə də soruşmayıb ki, filan yerdə mənə təqlid edənlər nə qədərdir? Və yaxud mənim risaləm çap olundu, ya yox? O, bir neçə il həzrət Məsumənin (s) hərəmində imamlıq etmişdir. Dəfələrlə deyirdi ki, minlərlə tələbənin iqtida etdiyi bu namazla, əvvəllər kiçik məsciddə qıldığım namaz arasında heç bir fərq yoxdur".

## *Əhli-beyt (ə) məhəbbəti*

Ayətullah Məhəmməd Fazil Lənkərani Peyğəmbərə (s) və Əhli-beytə (ə) qurulan əza və bayram məclislərindən əlavə, hər həftə cümə günləri səhər çağı öz dəftərxanasında qurulan rövzə məclislərində də iştirak edir. Həmçinin, Fatimeyi-Zəhranın (ə) şəhadəti münasibəti ilə hər ilin 20 günlük Fatimiyyə əyyamında evlərində əza məclisləri təşkil olunur. Mərhum atasının başladığı bu iş 60 ildən artıqdır ki, davam edir.

Ayətullah əzadarlıq və bayram məclislərinin xurafatdan qorunmasına xüsusi diqqət göstərib, özünün bəyanatlarında və şəri suallara verdiyi cavablarda zəif rəvayətlərdən istifadə etməməyə və dinimizə yad olan ahəng və üslublardan çəkinməyə çağırmışdır.

## *Siyasi səhnədə*

İnsanlara və müsəlmanlara diqqət və qayğıkeşlik, onların problemlərinin həlli üçün səy göstərmək, görkəmli alimin həmişə diqqətdə saxladığı məsələlərdəndir. O, beynəlxalq münasibətləri və dünyada baş verən ictimai-siyasi prosesləri izləməklə İslam və bəşəriyyət düşmənlərinə qarşı həmişə barışmaz mövqe tutmuşdur.

Fələstin, Qarabağ, İraq, Əfqanıstan və digər müsəlmanları müdafiə, habelə, Salman Rüşdinin mürtəd elan edilməsi hökmünü himayə etməsi, bu qətiyyət və barışmazlığa əyani sübutdur.

Ayətullah müsəlmanların birliyi naminə edilən müdarat təqiyyəsini şəri nöqteyi-nəzərdən düzgün bilir. Onun nəzərinə görə, bu məqsədlə əhli-sünnənin camaat namazlarına iqtida etmək olar. Lakin bu heç də istənilən adamla kompromisə getmək demək deyil. Məsələn, bir neçə il öncə Mədinə şəhərindəki Peyğəmbər (s) məscidinin imamı Şeyx Hüzeyfi şiələrin ünvanına nalayiq sözlər işlətmişdi. Ayətullah Məhəmməd Fazil bunu eşidərkən bu məzmunlu bir bəyanatla çıxış etdi: “Mən tövsiyə etmişdim ki, şiələr Məscidül-həram və Məscidün-nəbidə qılınan camaat namazlarında iştirak etsinlər. Bu tövsiyəm yenə də qüvvədədir. Lakin bəyan edirəm ki, müsəlmanlar arasında təfriqə salan bu şəxsə iqtida etmək düzgün deyil!”

O, bunu özünə vəzifə bilir və ona görə də heç nədən çəkinmirdi. Bilirdi ki, bu bəyanatı onun həcc mərasimindəki nümayəndəliyi üçün problemlər yarada bilər. Xoşbəxtlikdən çox keçmədi ki, Mədinə şəhərinin əmiri Hüzeyfini imamalıqdan azad etdi.

İmam Xomeyni öz hərakatını başlayan gündən Şeyx Məhəmməd Fazil həm bir sıravi vətəndaş və həm də Qum

elmi hövzəsi Müdərrislər Şurasının üzvü kimi fəaliyyətə qoşulmuşdur. Həmin fəallıqlara görə dəfələrlə həbs olunmuş, işgəncəyə məruz qalmış və nəhayət, ab-havası yaxşı olmayan məntəqələrə sürgün edilmişdir. O ilk dəfə yayın qızmar çağında 4 ay müddətinə yandırıcı "Ləngə" limanına göndərilmişdir; elə bir 4 ay ki, öz təbirilə desək, 40 ilə bərabər zəhmət və məşəqqətlə keçmişdir. Onun ardınca isə, iki il yarım Yəzd şəhərində, səhra təbiətli bir rayonda qalmağa məcbur edilmişdir. Oğlu Şeyx Məhəmməd Cavad Lənkərani bu barədə deyir: "Ləngə limanında sürgündə olduğu 4 ay ərzində bədəni xeyli zəiflədi. Hökumət adamları qorxuya düşüb, onu Yəzdə köçürtdülər. Atam, İmam Xomeyninin mərceyi-təqlid olduğunu elan edən 12 müctəhiddən biri idi və məhz buna görə sürgün edilmişdi".

Özünün sürgün həyatında "Təhrirül-vəsilə" kitabına şərh yazan Məhəmməd Fazil Lənkərani, öz elmi fəaliyyətindən əlavə, insanlara ictimai-siyasi məlumatlar vermiş, onları İslam hərəkatına kömək göstərməyə çağırmışdır.

İslam dininin hələ 1400 il əvvəl terrorizmə qarşı mübarizəyə başladığını bildirən Ayətullah, ABŞ-ın Əfqanıstan və İraqa hücumları ərəfəsində də etiraz bəyanatı ilə çıxış etmiş, təcavüzkar erməni quldurlarının Qarabağı işğal etməsinə dair bəyanatla çıxış etmişdir.

## *Məhəmməd Fazil Lənkəraninin Azərbaycan gənclərinə müraciəti*

Azərbaycanın imanlı cavanları, mənim din qardaşlarım bir neçə kəlmə nəsihət istəmişlər. Təbərrük olaraq zikr edilməsini münasib bildiyim hədisdə məsum imam buyurmuşdur ki, Allahın nəzərindən heç bir vaxt kənarda olmadığını bil. İnsan özünü həmişə Allahın hüzurunda hiss etməli, bütün əməl və rəftarlarını Allahın razılığını qazanmaq istiqamətində tənzimləməlidir. İnsanın oturuşu-duruşu, yuxusu və oyaqlığı, hərəkəti və sükutu, işarələri və hətta bütün qəlbindən keçənlər Allahın hüzurundadır.

Əzizlərim, insanın ilahi ruhdan üfürülmüş nəfsi (canı) onun cismində Allahın əmanətidir. Dünyada həyat və varlıqdan üstün bir nemət yoxdur. Kamilliyin hər hansı bir mərtəbəsinə çatmaq istəsəniz, əvvəlcə özünüzü tanımalısınız. Nəfsi (özünü) tanımaq bilik qapılarının açılması üçün mühüm bir müqəddimədir. Çünki “özünü tanıyan Allahını tanıyar”. Təəssüf ki, insan gənclik dövrünü bu həqiqətdən xəbərsiz keçirir. Elə ki, qocalıq qapını döyür, insanın bütün diqqəti zəif və əzabkeş bədənini qorumağa yönəlir.

İnsan gənclikdə nəfsinin tərbiyə və təzkiyəsinə (gözəlləşdirilməsinə) qadir olur. Bu mühüm işdən ötrü əziz cavanlar həmişə Qur’ani-kərimə yaxın olmalı, susuzluqlarını bu ilahi çeşmədə yatırmalıdırlar. “Əllah, Əllah, fil-Quran” bütün övliyaların tövsiyəsidir. Qurandan faydalanmaq və bu sahilsiz ilahi okeanın bir guşəsinə çatmaq üçün əzəmətli və əvəzsiz Əhli-beyt maarifi ilə tanış olmaq lazımdır. Onların yolu, həyatı və ölümü kamillik istəyində olan insan üçün çox münasib bir nümunədir. İslam

dininin mühüm üstünlüklərindən biri kamil insanların tərbiyəsidir. Bu məsələyə heç bir məktəbdə İslamdakı qədər diqqət yetirilmir. Məsumların öz bərəkətli ömürlərini hansı yolda sərf etdiklərini öyrənərək, həmin yolla səfərə çıxmalıyıq. Gənclərin diqqət yetirməli olduqları ən zəruri məsələlərdən biri məsum imamların həyatının öyrənilməsi və bu mövzuda düşünməkdir.

Əziz gənclər, ayıq olun! Bu gün küfr və zor dünyası İslamla gənclər arasında təfriqə yaratmaqdadır. Onlar gənclərin doğru yoldan azdırılması üçün qüvvələrini səfərbər etmişlər. Dinin və dini şəxsiyyətin məhvi üçün fəaliyyət göstərən azdırıcı vasitələr və mexanizmlər günbəgün artmaqdadır. Boş vaxtlarınızdan və mövcud imkanlarınızdan düzgün faydalanın, həqiqi dini tanımaq üçün ömrünü İslami araşdırmalara sərf etmiş mütəxəssislərdən istifadə edin.

Allah-təaladan diləyirəm ki, müsəlman dünyasını, xüsusilə gəncləri şeytanların şərindən hifz etsin, səadət və kamillik qapılarını onların üzünə daha artıq açsın. İnşəallah.

## *AYƏTULLAH-ÜZMA ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN YALNIZ ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ*

Aşağıda adları çəkilən kitablar Ayətullah Məhəmməd Fazil Lənkəraninin elmi araşdırmalarının bəhrəsidir:

1. “Nəhayətüt-təqrir” (Ayətullah Bürucerdinin ali (xaric) dərsləri)
2. “Mötəmədül-üsul” (İmam Xomeyninin ali üsul dərsləri)
3. "Təfsilüş-şəriə" (Təhrirül-vəsilənin şərhi)
4. “Tibyanul-üsul”
5. Üsul dərsləri (16 cilddə)
6. “Əl-Ürvətül-vüsqa” kitabına haşiyə
7. “Misbahul-fəqih” kitabının taharət bölməsinə haşiyə
8. “İzahul-Kifayə”
9. “Mədxəlüt-təfsir”
10. Fiqh qaydaları
11. “Əl-İctihad vət-təqlid”
12. Müdarat təqiyyəsi
13. Fəraq və təcavüz qaydalarına dair risalə
14. Həcc hökmləri
15. Həcc və ümrə risaləsi
16. Həcc haqqında sual-cavablar
17. “Əl-Əhkamul-vazihə”
18. Oruc
19. Qəzavət
20. Şəriət hökmlərinin izahı
21. Şəri suallara cavab (İstiftaat)
22. Şübhəli paltarla namaz qılmağa dair risalə

23. Yeni fiqhi məsələlər

24. Mündəricatlar məcmuəsi (“Biharul-ənvar,” “Əl-Qədir” və “Təfsir-əl-mizan” kitablarının mündəricatı)

25. Həmd surəsinin təfsiri

26. Əhli-beyt və yaxud Təthir ayəsinin parlaq simaları

27. Məsum imamlar və yaxud vəhy keşikçiləri

28. Peyğəmbərlərin məsumluğu

29. İmam Əlinin (ə) nəzərində ölkə idarəsi (Həzrət Əlinin (ə) Malik Əştərə yazdığı məktubun şərhi)

30. “Təqriratul-üsul”

31. “Mənasikul-həcc”

## *AYƏTULLAH-ÜZMA ŞEYX MƏHƏMMƏD FAZİL LƏNKƏRANİNİN «TOVZİHUL-MƏSAİL» ƏSƏRİ HAQQINDA AYRICA DANIŞMAQ İSTƏYİRİK*

**Bu əsər bir kitaba yerləşsə də, o ağanın, əgər belə demək caizdirsə, monumental əsərlərindəndir. Əsər həm Ayətullahın müqəllidləri, həm də bütün zümrədən olan digər müsəlmanlar üçün maraq kəsb etməklə ictimai xarakter daşıyır və bununla da başqa kitablarından seçilir. Kitabda Cə’fəri təriqəti ardıcılları üçün gündəlik həyatda sual doğru biləcək 2896 məsələnin müfəssəl izahı verilir.**

**Risalədən böyük məmnunluqla seçmə fraqmentlər təqdim edirik.**

## *MÜDAFİƏ MƏSƏLƏLƏRİ*

**M:2888.** Əgər düşmən müsəlmanların ölkəsinə, sərhədlərinə hücum etsə, bütün müsəlmanlara, mümkün olan hər vasitə ilə–can və mal sərf etməklə onu qorumaq, müdafiə etmək vacibdir. Bu işdə cameüş-şərait müctehidin icazəsinə ehtiyac yoxdur.

**M:2889.** Əgər əcnəbilərin müsəlmanların ölkələrini istila altına almaq planlarından təhlükə törənərsə–istər birbaşa olsun, istərsə də daxildəki və xaricdəki casuslarının, əlaltılarının vasitəsi ilə–İslam ölkələrini müdafiə etmək mümkün olan hər vasitə ilə vacibdir.

**M:2890.** Əgər əcnəbilər tərəfindən İslam ölkələrinin daxilində plan çəkilsə və onlara hakim olmasından qorxu törənsə, müsəlmanlara vacibdir ki, mümkün olan hər vasitə ilə onların planlarını pozub nüfuz dairələrinin genişlənməsinin qarşısını alsınlar.

**M:2891.** Əgər əcnəbilərin siyasi, iqtisadi və ticarət nüfuzunun genişləndirilməsi vasitəsilə müsəlman ölkələrinin istila altına alınması qorxusu törənərsə, müsəlmanlara vacibdir ki, mümkün olan hər vasitə ilə öz ölkələrini müdafiə edib, istər daxili istərsə də xarici əcnəbilərin əllərini kəssinlər.

**M:2892.** Əgər İslam dövlətləri ilə əcnəbi dövlətlər arasındakı siyasi əlaqələrdən onların İslam ölkələrinə istər siyasi, istərsə də iqtisadi cəhətdən hakim olması qorxusu törənərsə, müsəlmanlara vacibdir ki, bu sayaq əlaqələrlə müxalifətçilik edib İslam dövlətlərini, bu əlaqələri kəsməyə vadar etsinlər.

**M:2893.** Əgər əcnəbilərlə ticarət əlaqələrinin bərqərar olunmasından müsəlmanların iqtisadiyyatına zərbə dəyməsi,

nəticədə iqtisadi və ticarət əsarətinə düşmələri gözlənirsə, bu cür əlaqələrin kəsilməsi vacib, bu cür ticarət əlaqələri haramdır.

**M:2894.** Əgər İslam dövlətləri ilə əcnəbi dövlət arasında bağlanan iqtisadi və ya ticarət müqavilələri İslam və müsəlmanların mənafeyinin xilafına olarsa, caiz deyil. Əgər hər hansı bir dövlət bu cür əlaqə yaratsa, sair dövlətlərə vacibdir ki, mümkün olan hər yolla onu, bu əlaqələri kəsməyə vadar etsinlər.

**M:2895.** Əgər bə’zi İslam ölkələrinin rəhbərləri, yaxud məs’ul işçiləri əcnəbilərin İslam və müsəlmanların mənafeyinə zidd olan nüfuzunun (istər siyasi, istər iqtisadi, istərsə də hərbi) genişlənməsinə səbəb olarsa, gərək bu xəyanət vasitəsi ilə olduğu məqamından kənarlaşdırılsın. Əgər fərzən o məqamı aşkar etməsi haqq olsa da, müsəlmanlara vacibdir ki, mümkün olan hər yolla və şəriət me’yarlarına riayət etməklə onları cəzalandırsınlar.

## *Lənkəraninin dəftərxanası*

Mərcəyi-təqlid Məhəmməd Fazil Lənkərani dəftərxanasının informatika şöbəsinə daxil olan məktubların sayı, məzmunu və göndərilmə ünvanı ilə maraqlandıqda xeyli fakt və rəqəmlərlə üzləşirsən. Əksər məktubların məzmunu şəri suallara cavab almaq istəyindən ibarət olsa da, məsləhət, təşəkkür, arzu və tökliflər də az deyil. Ümumiyyətlə, 2005-ci ilin mart ayından keçən 11 ay ərzində informatika şöbəsinə 47. 715 məktub daxil olub. Onların sayı ötən illərə nisbətən 7 dəfə artıb, təbii ki, verilən sualların sayı da çoxalıb. Məsələn, təkcə miladi 2005-ci ilin 11 ayı ərzində 15 dildə 60 mindən çox sual daxil olub. İdarəyə təkcə ingilis dilində 4681, ərəbcə 12002, farsca 29424, türkcə 194, rusca 286, Azərbaycan dilində 495, fransızca 92, urdu dilində 170 məktub gəlmişdir. Fil Dişi Sahili, Hindistan, Almaniya, İspaniya, İndoneziya və digər ölkələrdən göndərilmiş məktubları həyəcansız oxumaq mümkün deyil.

Hacı Şeyx Məhəmməd Fazil Lənkərani tədqiqat işləri, elmi əsərlər yazmaqla yanaşı, İİR-in ali məktəb rəhbərlərilə, yüksək dini dərəcəli ruhanilərlə dərs də keçir. Dövlət və hökumət adamları ilə görüşə də qısa zaman ayırır.

# İRAH TƏƏSSYRATLARI: BİLDİKLƏRİMİZ VƏ GERÇƏKLİKLƏR

## *MƏRCEYİ-TƏQLİDLƏR VƏ YA DÖVLƏT İÇƏRİSİNDƏ DÖVLƏT HAQQINDA*

## *YAZI*

İran təəssüratları arasında bir məqamı qeyd etmək lazım gəlir ki, mərceyi-təqlidlər burada dövlət içərisində dövlət, hətta daha üstün statusa malikdirlər. Müsəlmanların şəri vergiləri hesabına maliyyələşən mərceyi-təqlidlər ilahiyyat universitetləri, elmi-dini araşdırma mərkəzləri yaradır, onları maliyyələşdirir, ali məktəblərdə təhsil alan tələbələrin yaşayış və təhsil üçün lazım olan xərclərini ödəyirlər. Bundan başqa ayətullahların ölkənin mühüm məntəqələrində, xarici ölkələrdə təmsilçiləri, xeyriyyə vəqfləri fəaliyyət göstərir. Ehtiyaclı müsəlmanlar mərceyi-təqlidlərin dəftərlərinə müraciət edib yardım əldə edə bilirlər.

Bundan əlavə, məmur bürokratiyası ilə üzləşən, məhkəmələrdə ədalətsizliyə məruz qalıb haqları tapdanmış insanlar ağalara müraciət edərək onların köməyindən bəhrələnə bilirlər. Yazılmamış qanunlara görə, İranda hətta ən ali dövlət orqanları müctəhidlərin dəftərindən gələn müraciətlərə qısa zamanda baxaraq həll edirlər. Öyrəndiyimiz məlumatlardan biri də bu oldu ki, İranda dini təhsil alan 90 min nəfər tələbənin təhsil və yaşayış xərclərini hamısını müctəhidlər ödəyir. Hətta İslam inqilabından sonra hökumət dini təhsil alan tələbələrə

yardım etmək istəsə də, mərceyi-təqlidlər buna razı olmayıblar. Bu isə şiəliyin təməl prinsipləri ilə əlaqədardır.

Tarixən şiə ruhaniləri həmişə hakimiyyətlərə müxalif, müstəqil fəaliyyət göstəriblər. İslam inqilabı zamanı bu siyasət dəyişsə də, sonradan dindarların sürətlə nüfuzdan düşdüyünü nəzərə alan ruhani liderlər hökumətlə dindarlar arasında məsafə yaratmağa çalışırlar. Hətta söyləyirlər ki, son dövrlərdə məhz dini liderlərin göstərişi ilə dövlət orqanlarındakı ruhanilərin sayı azalıb. Bu səbəbdən, kənar təsəvvürlərin əksinə olaraq, İranda ruhanilər və bu sahədə təhsil alanlar o qədər də yüksək komfortla təmin olunmayıblar...

Qumda məşhur islam alimi, dünya şöhrətli mərceyi-təqlid Ayətullah Fazil Lənkəranini ziyarət etdik. İslam dünyasının bu böyük alimi də sadə, bir neçə otaqdan ibarət dəftərində əyləşir. Bir məqamı da qeyd edim ki, islam mərceyi-təqlidlərinin əksəriyyətinin yaşı 70-dən artıqdır. Xəstəlik və gözlənilən terror təhlükəsilə əlaqədar bu insanlara yaxınlaşmaq, onlarla təmasda olmaq, fotolarını çəkmək yasaqlanıb. Yalnız çox çətinliklə buna nail olmaq mümkündür. Xüsusən də İranın dini lideri Ayətullah Xameneyi jurnalistin partlayıcı qurğunu işə salması nəticəsində yaralandıqdan sonra din xadimlərinin təhlükəsizlik tədbirləri gücləndirilib. Bu və digər səbəbdən bu şəxslərlə görüşümüz 10 dəqiqədən artıq çəkmirdi.

Şeyx Fazil Lənkərani Azərbaycan müsəlmanlarına salam-dualarını göndərdi və Allah dinində olmağı arzuladı. Xəstəlikdən əziyyət çəkdiyi üçün çox danışa bilməyən şeyx Qarabağ müharibəsi ilə bağlı fikirlərini və dəftərinin fəaliyyəti ilə bağlı məlumatı oğlu, dəftərinə rəhbərlik edən Ayətullah Cavad Lənkərani vasitəsilə bizə çatdırdı.

Xatırladım ki, Fazil Lənkəraninin atası Masallının Ərkivan kəndindəndir və İrana ötən əsrin əvvəllərində köçüb.

## *QARABAĞ AZƏRBAYCANLILARIN VƏHDƏTİ SAYƏSİNDƏ AZAD OLUNACAQ!*

Cavad Lənkərani Azərbaycan torpaqlarının hələ də işğal altında qalmasının onları da narahat etdiyini söylədi: "Əvvəllər də qeyd etmişik ki, işğalın bu qədər davam etməsi məsələnin imperialist maraqlarla üst-üstə düşməsi, eləcə də vasitəçi dövlətlərin münaqişənin ədalətli həllində maraqlı olmamasından doğur. Ağanın nəzəri budur ki, onlar münaqişəni uzatmaqla məsələni unutdurmaq və xalqı öz taleyi ilə barışmağa məcbur etməyə çalışırlar. Ancaq biz ümid edirik ki, məsələ tez bir zamanda Azərbaycan xalqının vəhdəti, yekdilliyi və möhkəm iradəsi sayəsində ədalətli həllini tapacaq".

Elmi-dini mərkəzlərin, dəftərlərin, əsasən də Şeyx Fazil Lənkəraninin dəftərinin fəaliyyəti haqda məlumat verən C.Lənkərani İranda fəaliyyət göstərən və «hövzeyyi elmiyyə» adlanan mərkəzlərin dövlətdən ayrı olduğunu bildirdi: «Artıq 1000 ildən artıqdır ki, bu sistem fəaliyyət göstərir. Ağanın dəftəri dini təhsil alan tələbələrin təminatında, onların təhsil və məişət qayğılarının təmin olunmasında və digər sahələrdə yaxından iştirak edir».

Dəftərin ikinci fəaliyyət istiqaməti xalqın dini ehtiyaclarının ödənilməsidir. Yəni həm ölkə daxilində, həm də xaricdə müsəlmanların şəri məsələlərlə bağlı suallarını cavablandırmaqdır. Bu suallar məktublar, telefon və internet vasitəsilə göndərilir. Hər bir suala müvafiq formada cavab

verilir. Məktublara yazılı şəkildə, telefonla verilən suallara isə dəftərdə əyləşən 10 nəfər din alimi gün ərzində səhər saat 8-dən 20-dək cavablandırır. Təkcə ötən il Fazil Lənkəraninin dəftərinə internet vasitəsilə 20 mindən artıq sual ünvanlanıb və onların hər birinə cavab verilib. Bundan başqa dəftərə gəlib suallarını özləri soruşanlar da olur ki, onların da sualları cavablandırılır.

Bundan başqa xalqın problemlərini dinləmək, baş vermiş ədalətsizliklərlə bağlı şikayətləri müvafiq dövlət idarələrinə çatdırmaq müctəhidin dəftərinin vəzifələrindən biridir: «Eyni zamanda ayrı-ayrı yerlərdə məscid, hüseyniyyə (ibadət və tədris mərkəzləri) və kitabxanaların inşası və təminatı bizim vəzifələrimizdən biridir. İl ərzində dəftər tərəfindən regionlara, hətta ən ucqar kəndlərə sabit və mövsimi təbliğatçılar göndərilir. Sabit təbliğatçılar ruhani olmayan məntəqələrdə bir-iki il qalaraq dini təbliğ edir, mövsimi təbliğatçılar isə Məhərrəm-Səfər və Ramazan aylarında bölgələrə gedərək islamı təbliğ edirlər».

Cavad Lənkəraninin sözlərinə görə, dəftərin nəzdində dini ədəbiyyatların müxtəlif dillərə tərcümə və çap edilərək yayılmasını təşkil edən mədəni-maarif şöbəsi fəaliyyət göstərir. Qeyd edək ki, dünyanın 10 ölkəsində və eləcə də İranın əsas şəhərlərində Fazil Lənkəraninin dəftərinin nümayəndəlikləri fəaliyyət göstərir. Cavad Lənkərani qeyd etdi ki, dəftərin fəaliyyət sahələrinə daxil olan işlərdən biri də İrandan və dünyanın başqa ölkələrindən gələn müsəlmanların həcc və ümrə ziyarətlərinin təşkilinə yardım göstərməkdir. Fazil Lənkəraninin Məkkə və Mədinə şəhərlərində fəaliyyət göstərən nümayəndəlikləri ziyarət zamanı müsəlmanların şəri suallarını cavablandırır, onlara ziyarət əməllərini yerinə yetirməyə kömək edirlər.

Bundan başqa F.Lənkəraninin dəftərinin nəzdində «Məsum İmamların fiqhi» adlı beynəlxalq elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. İranın bir sıra şəhərlərində və dünyanın 5 ölkəsində şöbələri olan bu mərkəz elmi-dini mövzuda araşdırmalar aparır və sonradan bu tədqiqatların nəticəsi olaraq ədəbiyyatlar nəşr olunur. Bu məlumatı da bizə Cavad Lənkərani söylədi.

Kənan Rövşənoğlu
Musavat qəzet

Ayətullahül-üzma gərgin iş rejiminə baxmayaraq Rusiyanın paytaxtı Moskva şəhərində fəaliyyət göstərən "Əhli-Beyt" icmasının, burada nəşr edilən eyni adlı qəzetin, "Salam" uşaq jurnalının və "İman" mətbu orqanının nümayəndələrini 2006-cı il Aşurasından sonra qəbul edir. Yarım saata qədər davam edən görüşdə alim Rusiya, eləcə də onun paytaxtında müsəlman-şiə icmasının fəaliyyəti ilə maraqlanır, mövcud mürəkkəb ictimai-siyasi şəraitdə dindaşlarına görə qayğılandığını bildirir. Eyni zamanda da müqəllid qonaqlarının şəriət məsələlərilə bağlı suallarını cavablandırır. Həmin sual-cavabdan fraqment:

**Sual:** Məlumdur ki, yüz minlərlə müsəlman azərbaycanlı kişi hazırda Rusiya ərazisində çörək qazanmaqla məşğuldur. Onların bəzilərindən xanımları şikayətçidirlər. "Aylarla evə pul göndərmir, ailələrinə baş çəkmirlər. Biz biganə ərlərimizdən boşana bilərikmi?" soruşurlar. Bu vəziyyətin şəri hökmü nədir?

**Cavab:** Belə hallarda həmin şəxsin təqlid etdiyi müctəhid — hakimi-şər öz ixtiyarından istifadə edərək, kişi istəməsə belə həmin xanımı boşatdırmaq hüququndadır. Bu

şərtlə ki, ərlə ilkin söhbət aparılmalı, onun bundan sonra xanımı ilə əlaqə saxlayıb, yardım edib-etməyəcəyi öyrənilməlidir. İslami qaydada ailəsinin qayğısına qala bilməyəcəyi müəyyənləşsə, xanımı boşayır. Yox, əgər, kişi peşman olsa, öhdəlik götürsə və ona əməl etməyə başlasa, nigahları əvvəlkitək dürüst sayılır.

**Sual:** Danimarkanın üzdəniraq karikaturaçılarına dünyanın hər bir müsəlmanı kimi, Moskvada yaşayan azərbaycanlılar da sərt mövqe nümayiş etdirmək istəyirlər. Amma onların çoxu Rusiya vətəndaşı olmadıqları, yarıleqal şəraitdə yaşadıqları üçün İslam düşmənlərinə qarşı kəskin çıxış edə bilmirlər. Belə hallarda onlar özlərini necə aparmalıdırlar?

**Cavab:** Karikatura ilə bağlı hər bir müsəlmanın borcudur ki, ona etiraz mövqeyini bildirsin. Amma müsəlmanlar hicrət etdikləri ölkənin siyasi, ictimai şəraiti, ab-havanı nəzərə almalıdırlar. Elə bir tədbir keçirməməlidirlər ki, özlərinin təhlükəsizliyinə, dini fəaliyyətlərinə və ya hər hansı ictimai mövqelərinə xələl gəlsin, əsaslı problem yaransın. Bunu məhərrəmliyin əzadarlıq məclislərində də nəzərə almaq lazımdır.

**Sual:** Rusiya şəraitində yaşayan müsəlman, risaləsini əldə edə bilmədiyi müctəhidə təqlid edə bilərmi?

**Cavab:** Hər bir müsəlman əgər özü müctəhid deyilsə və ya ehtiyat əməllərə sərbəst riayət edə bilmirsə, müctəhidə təqlid etməlidir. Təqlid müctəhidin özündən soruşmaq, onun hökmünə bələd olan alimlərdən öyrənmək və ya o müctəhidin risaləsini əldə edib orada yazılmış hökmlərə əsaslanmaq yolu ilə həyata keçirilir. Bunların heç birinə imkan olmadıqda müqəllid – təqlid edən İslamın qayda-qanunlarına başa düşdüyü tərzdə əməl etməlidir. Qeyd etmək lazımdır ki, bayaq dediyimiz imkansızlıq, doğrudan

da obyektiv, üzürlü səbəblərdəndirsə, o müsəlmanın səyləri, əməlləri və nəhayət, üzrü qəbuldur.

**Sual:** Moskva çoxmilyonlu, izdihamlı qeyri-müsəlman şəhəridir. Metro vaqonlarında, kiçik tutumlu marşrut avtobuslarında sərxoş, itini qoltuğuna vuran və İslama zidd digər əməl sahibləri ilə yanaşı getməli olursan. Bu bizim üçün günah, ya haram sayılırmı?

**Cavab:** Dediyiniz icbari həyat tərzinin sizin üçün günahı və ya qəbahəti yoxdur. Amma çalışmaq lazımdır ki, dediyiniz şəxslər rütubətli, nəm olsalar, onlara toxunulmasın. Sərnişinlərin sıx olduğu nəqliyyatda ətrafınızdakıların üst-başları quru olarsa, eybi yoxdur.

**Sual:** Rusiya şəraitində əgər bir məscidin bünövrəsini din xadimi ilə yanaşı, həmin şəhərin qeyri-müsəlman meri qoyursa, tikinti də müvafiq olaraq hər iki tərəfin yardımı ilə həyata keçirilərsə, bu doğru sayıla bilərmi? Məlumdur ki, burada şəhərin büdcəsi həm də haram vəsaitlə formalaşır.

**Cavab:** Məscid tikintisi üçün möminlərin vəsaiti, halal ianələr, yardımlar ortaya qoyulursa, bu zaman mənbəyi şübhəli olan vəsaitlərdən imtina edilir. Yox, əgər bu cür təşəbbüs və ya imkan yoxdursa, onda dediyiniz qaydada məscid tikintisinə irad tutmaq olmaz.

Mərcəyi-təqlid idarəsinin Moskva şəhərindəki filialının müqəllidləri ilə əlaqələrini lazımınca dəyərləndirir, Əhli-beyt (ə) ardıcıllarının mətbuat nümunələri və burada dərc edilən materiallarla maraqlanır, dəyərli tövsiyələr verir.

## *Şeyx Məhəmməd Fazil Lənkərani dəftərxanasının nümayəndəlikləri*

### MOSKVA

Ayətullah Hacı Şeyx Əhməd Xudai 2 ilə yaxındır ki, mərcəyi-təqlid, ayətullahül-üzma Məhəmməd Fazil Lənkəraninin Moskvada səlahiyyətli nümayəndəsidir. Qısa müddət ərzində müdrik alim təvazökarlığı, qayğıkeşliyi, hidayət yolunun səbrli təbliğatçısı kimi tanınmışdır. Şeyxin iştirak etdiyi məclislər müsəlmanlar üçün əsl dərs prosesini xatırladır. Yüzlərlə müdavim onu dinləyir, qeydlər edir, sonra suallarına cavab ala bilirlər. Artıq 2 dəfə ramazan ayını, bir Aşuranı və İmamın (ə) təziyəsini yola vermiş Hacı, Rusiya şəraitində - dinlər, məzhəblər arasında təriqətini saxlamış dindaşlara daxili bir sevinc, əminlik bəxş edə bilmişdir.

1993-cü ildən Bakıda ayətullahül-üzma Məhəmməd Fazil Lənkəraninin nümayəndəsi işləmiş, 4 il sonra mərcəyi-təqlidin təklifi ilə Qum şəhərinə çağırılmışdır. Son illər Moskvaya keçmiş müttəfiq respublikalardan, uzaq xarici ölkələrdən axının güclənməsi, Cəfəri məzhəbinə qulluq etməli müsəlmanların itaətində kənar təsirlərin güclənməsi nəzərə alınaraq təcrübəli, dünyagörmüş Hacı Şeyx Əhməd Xudai Rusiya paytaxtına göndərilmişdir.

İşə Moskvada İslami durumla tanışlıqdan başlayan Hacı maarifçiliyin gücləndirilməsinə böyük ehtiyac olduğu qənaətinə gəlir. Özü iki müstəqil və üç tərcümə əsərinin müəllifi olan alim Moskva şəraitində kitablarının ifa edə biləcəyi rolu doğru qiymətləndirərək tezliklə Qur'ani-kərim təfsirinin rus və Azərbaycan dillərində olan iyirmi cildliyin

mövcud nüsxələrini gətirdib paylayır. Şəri məsələlərə aid, namazqılma qaydaları, məsumlarla bağlı kitablar tez bir zamanda oxucularını tapır. Hacı buyurur ki, Azərbaycan əhlinin əksəriyyəti Cəfəri məzhəbinə qail olduğundan orada başa düşülmək problemi yoxdur. Moskvada iqlim, ərazi genişliyi, vaxt çatışmazlığı, bürokratik əngəllər və s. müşküllərlə yanaşı, dinlər və təriqətlərin təzyiqi işləməyi çətinləşdirir.

Xudai ağa özü gördüyü işlərdən, hidayət yolunda fəaliyyətindən könülsüz danışır və bunu təvazökarlıqdan uzaq sayır. Çətinliklə də olsa, bir sıra şeyləri öyrənirik. Ağa deyir: "Allah-təala qismət edib Moskvada yaşayan və dini təhsili olan gəncləri bir araya yığa bilmişik. Həftədə bir dəfə onlarla görüşümüz olur (ağa onlara dərs keçir – **red.**). Günləri çörək qazanmaqla keçən bütün müsəlmanları bir araya toplamaqdan, onlarla iş aparacaq müəllimlərlə görüşüb təcrübə mübadiləsi etmək daha faydalıdır. Hər cümə axşamı Kumeyl duası oxuyuruq. Çərşənbə axşamı Təvəssül duası günüdür. "İnter Azərbaycan" kabel televiziyası ilə həftədə 45 dəqiqəlik maarifçilik mövzusunda dini proqram hazırlamaq da bizə qismət olub. Qur'an dərsləri qoymuşuq, ərəb-fars dilini öyrənirik.

Moskvada Azərbaycan dilində nəşr olunan dini qəzetlərdə məqalələrlə mütəmadi çıxış etmək boynumuzda bir haqdır. Bir sözlə, İslamın sıravi əsgərləriyik."

Xudai ağanın oturduğu nümayəndəlik heç zaman boş olmur. Ən müxtəlif dini, şəri məsələlərlə bağlı gündə onlarla müsəlman ona müraciət edir. Müxtəlif ünvanlara məclis aparmağa dəvət alır. Rusiyanın ən ucqar şəhərlərindən belə onun ziyarətinə adamlar gəlir. Arada yarım saat fasilə olan kimi Şeyx Əhməd Xudai ibadət edir, Qur'an oxuyur, xütbələrə hazırlaşır. Əməkdaşımız onun fəaliyyətini müxtəlif vaxtlarda izləmiş və şəklini çəkmişdir. Onu da qeyd edək ki, hörmətli alim Rusiyada – Moskvada

yaşayan bütün həməqidə yoldaşlarına Əhli-beyt və “İman” vasitəsilə müraciət edərək demişdir: “Allah-təalanın izni ilə istəyirəm ki, qardaş-bacılarımız oturuş-duruşları, əxlaqları, insanlarla təmasları ilə Cəfəri adını doğrultsunlar, bu məsləkin daşıyıcıları olduqlarını nəinki bir an belə unutmasınlar, hətta bütün müsəlmanlara nümunə olsunlar...”

**(Ya Peyğəmbər!) De:**
**“Mən risalətimin**
**müqabilində Əhli-**
**Beytimə məhəbbətdən**
**başqa bir şey istəmirəm!”**

***(“Şura” surəsi, 23)***

## *Şeyx Məhəmməd Fazil Lənkəraninin Moskvada yaşayan müqəllidlərinin 2005-ci il Ramazan təəssüratları*

**(Yazılar Rusiyada populyar olan “Əhli-Beyt” qəzetinin noyabr, dekabr saylarından götürülmüşdür.)**

**Ramil Babayev**:- Allah-təalanın İslamda qoyduğu elə qanunlar var ki, əvvəlki dinlərdə olmuş insanlara da aiddir. Onlardan biri orucdur. Bu barədə Qur’ani-Kərimdə ayə də var. Yəqin elə ona görədir ki, uca Allah ramazan ayında şeytanın əl-ayağını, cəhənnəmin qapılarını bağlayır. Özünün mübarək əfv, fəzilət süfrəsini açır. Ağıllılar Yaradanın qonağı olmaq fürsətini qaçırmırlar, bu nadir şərəfdən faydalanmağa çalışırlar. Doğrudan da, ildə cəmi bir dəfə və bir ay imkan yaranır ki, on bir ay səndən asılı və asılı olmayan səbəbdən etdiyin günahlardan təmizlənəsən, bağışlanmaq üçün əllərini Allahın dərgahına uzadasan.

Şübhəsiz ki, oruc tutanlar bu müraciəti xütbə məclislərində, alimləri ziyarət edərkən, camaat namazlarında, iftar məclislərində etməlidirlər. Mən də mömin dostlarımla bu qaydalara riayət etməyə çalışdım. Yeri gəlmişkən onu da deyim ki, Moskvadakı ibadətlərimlə vətəndə yaşadığım oruc-namazlarımı müqayisə edirəm və fərq görürəm. Fərq ondadır ki, Azərbaycanda dörd tərəfin müsəlmandır, çoxlu dini kitablar və məscidlər var, mütəmadi olaraq alim söhbətlərini dinləməyə imkan yaranır, ən azından hüzr məclisləri xütbələr üçün meydan açır. Moskvada isə bu işləri yalnız "Əhli-beyt" cəmiyyəti həyata keçirir. Onların mövqeyi, fəaliyyəti çox şərəfli və məsuliyyətlidir. Minlərlə soydaşımız məhz onların sayəsində tövbə etmiş, dinə-imana gəlmiş və ya imanlarının kamilliyinə doğru yol tapmışlar. Bu gün mən təsəvvürümə gətirə bilmirəm ki, "Əhli-beyt" cəmiyyətinin tədbirləri olmasa, mən daha harada iman məclisi axtarıb tapa bilərəm. Hazırda isə biz "Əhli-beyt"dən mənən dolu çıxandan sonra iş yerimizdə bir təbliğat meydanı görürük.

Builki ramazan yadımda həm də onunla qalacaq ki, iki azərbaycanlı yoldaşımızı Allah yoluna dəvət etdik, sıralarımız möhkəmləndi. Bilirsiniz ki, "Çerkizovski" dediyimiz ticarət mərkəzində çoxsaylı azərbaycanlı işləyir, əgər "Əhli-beyt"in hər üzvü burada ildə bir-iki nəfəri iman yoluna dəvət edə bilsə, yaşadığımız cəmiyyət nə qədər saflaşar, ədalət artar, yaşamaq asanlaşar. Şəriətlə bağlı sual yarananda isə Ayətullah Məhəmməd Fazil Lənkəraninin risaləsi köməyimizə çatır...

Hər ramazanda olduğu kimi, bu il də imam Əlinin (ə) zərbətlənməsi və şəhadəti günləri, Qədr gecələri mərasimləri ən çox yaddaqalan oldu. Axı özü iftarsız qalıb yeməyini miskinə vermiş (bu barədə Qur'ani-Kərimdə "Həl-əta" surəsi nazil olmuşdur – red.) Əlinin (ə)

şücaətlərinə, onun əbədi həyat nümunəsinə necə istinad etməyəsən?!

**Şahin Axundov:**- İslam qaydaları ilə yaşamağa, xüsusən də oruc tutmağa 1999-cu ildən başlamışam. Çox peşmanam ki, daha əvvəldən ibadətim olmayıb. Üç il əvvəl Ağdamda əsgəri xidmətdə olanda komandirlərin qəti etirazına baxmayaraq orucdan qalmırdım, çünki orduda buna nəzarət etmək həmişə mümkün deyil. Amma namaza qətiyyətlə mane olurdular. Heç cür anlamıram, daha doğrusu, razılaşmıram ki, əgər bir şey insanın iradəsini, müqavimətini möhkəmləndirirsə, adamı kökünə, Allahına bağlayırsa, şeytan, kafir, düşmən üzərində qələbəyə hazırlayırsa, əsgəri mübariz edirsə onu niyə təbliğ yox, qadağan edirlər?!

Ramazan ayı həm də zikr ayıdır, götür-qoy, düşüncə ayıdır. Mən də oturub dərindən fikirləşəndə gördüm ki, Azərbaycanın erməni işğalı altında olan Qarabağ ərazisi ilə əlaqəli hadisələr məhz dinimizə — Allah-təalanın buyurduqlarına etinasız qalmağımızdan irəli gəlib. Əhaliyə hələ kiçik yaşlarından İmam Hüseyn (ə) məktəbindən dərs deyilsəydi, Əhli-beyt yolu öyrədilsəydi, düşmən Azərbaycan torpaqlarından bir ovuc götürməyi ağlına belə gətirməzdi. Amma mənə elə gəlir ki, yenə gec deyil. Moskvada "Əhli-beyt" cəmiyyətinin fəaliyyətindən faydalansaq, imanımızı kamilləşdirsək, Allah yolunu öyrənib imkan daxilində başqalarına da təlqin edə bilsək, zəhmətlərimiz boşa getməz. Bu mənada yenicə başa çatmış ramazan ayını həyatımda ən mənalı və fəzilətli hesab edirəm. Builki xütbələr, təbliğat, "Əhli-beyt" qəzetinin yazıları, Şeyx Məhəmməd Fazil Lənkəraninin"Şəriət hökmlərinin izahı" risaləsi, cəmiyyət üzvlərinin etiqadı məni kamilliyə doğru bir addım da irəli aparıb. İndi dərk edirəm ki, din alimləri niyə xütbə söyləyəndən sonra başqa

bir alimin xütbəsinə qulaq asmağa tələsirmişlər. Bu məziyyət istər-istəməz mənim kimi İslamda elmi dərəcəsi olmayan sıravi müsəlmanlara da təsir edir və bizi öz bacarığımız səviyyəsində fəal olmağa sövq edir. Allah qismət elədi bu il ramazanda maddiyyata sıx bağlı, dünya işlərini axirət işlərindən daha əhəmiyyətli sayan adamlarla təsirli söhbətlərim oldu. Tutduğu orucu ac qalmaqdan başqa bir şey olmayan bəzilərinə izah etməyə çalışırdım ki, - əlbəttə, Allahdan kömək diləyə-diləyə - ramazan ayında göz, qulaq, dil, qəlb, hətta, düşüncə belə pəhrizdə olmalıdır.

Yeri gəlmişkən, onu da deyim ki, işimlə bağlı ("Halal" kafesində xörəkpaylayanam) qəribə hisslər keçirirdim. İftar vaxtı möminlərə xidmət etməkdən xüsusi zövq alırdım, amma günün günorta çağı, xörək, çay sifarişi eşidəndə o bığıburma, sağlam soydaşlarımın halına yanırdım: "Axirətdə cavabınız nə olacaq?" – deyə düşünürdüm.

**Sevda Həsənova:**- Allah-təala qismət elədi, 2005-ci ilin ramazan ayından lazımınca bəhrələndik. İbadətlərimizi vaxtında, böyük şövqlə yerinə yetirirdik, hiss edirdim ki, qəlbimdə ilahi eşq, məhəbbət get-gedə alovlanır. Hər il ondan əvvəlki ramazana nisbətən imanın kamilliyinə çalışmağı da vərdiş halına gətirmək lazımdır. Builki iftar süfrələrimizin həm sayı, həm də çeşidi, Allah yetirdi, bol oldu, təbii ki, süfrə başına da daha çox mömin xanım toplaşmışdı. Allah qismət elədi ərəb dilindən sonra bu il fars dilini də öyrəndim. İndi ədəbiyyat oxumağa daha çox imkanım var, daha çox müsəlman qardaş-bacılarla ünsiyyət yaratmaq şərait yaranıb. Həddi-büluğa çatmış, milliyyətcə rus olan bir qızı – yenə də Allah-təalanın yardımı sayəsində - İslama gətirdik. Qız özünə azərbaycanlıya məxsus ad seçdi.

Beş ildir Moskvada yaşayıram, builki kimi bərəkətli ramazan olmamışdı. Məscidə ibadətə gələn xanımların, dinə aid məsələlərinin izahı ilə müraciət edənlərin, islami qaydada geyinmək üçün məsləhət almaq istəyən qızların sayı da xeyli çox oldu. Ortaya çıxan şəri sualların cavabını isə müqəllidi olduğumuz Həzrət Ayətullah Məhəmməd Fazil Lənkəraninin risaləsindən tapırdıq.

Gileylərim də az deyil. Rusiya paytaxtında yaşayan azərbaycanlı qız-gəlinlərimizin bəziləri yerli hava ilə oynamağa meyillidirlər. Yəni açıq-saçıq geyinməyə üstünlük verirlər, təmtəraqlı, halallıq olmayan məclislərdə kişilərlə yanaşı iştirak etməkdən (hətta ramazan ayında) çəkinmirlər. Günahın bir hissəsi o xanımların özündədirsə, bir hissəsi də onların həyat yoldaşlarında və ya qardaşlarındadır. Onlar unudurlar və ya başa düşmək istəmirlər ki, Azərbaycandan çıxmaq hələ Allahın nəzərindən qaçmaq deyil. Yaradanımız hər zaman hər yerdədir, ona görə də xanımlarımız özlərini İslam əxlaqına uyğun aparmalıdırlar. İstərdim ki, hamımız dua edək, Allahdan xanımlarımıza əfv diləyək, dinə-imana gəlməyi arzulayaq və onları da gələn ramazanda sıralarımızda görək, inşallah!

Cənab Məhəmməd Fazil Lənkərani dəftərxanasının Moskva nümayəndəliyinin fəaliyyətə başladığı 2005-2006-cı illər Moskvada Əhli-beyt aşiqlərinin iman yolunda yüksəliş dövrü sayıla bilər. Həmin illərdə keçirilən məhərrəmlik ayının əzadarlığı, Aşura məclisləri də bunu təsdiq edir.

Moskva şəhəri, 2006-cı il, Aşura günü, “Prospekt Mira” məscidi. Əhli-beyt aşiqləri üzdəniraq Danimarka karikaturaçıya qəti etirazlarını bildirirlər. “İslamın düşmənlərinə ölüm!”, “Peyğəmbərimizin (s) ünvanına yönəlmiş təhqirləri bağışlamarıq!” şüarları səsləndirilir.

## *Şəban ayının fəziləti və əməlləri*

**(Cənab Məhəmməd Fazil Lənkəraninin tövsiyəsi)**

Şəban çox böyük fəzilətə malikdir və hədislərə əsasən bu ay İslam Peyğəmbərinə (s) aid edilmişdir. Həzrət Peyğəmbər (s) bu ayda oruc tutub onu mübarək Ramazan ayına birləşdirirdi. Həzrət Məhəmməd (s) buyurmuşdur: "Şəban mənim ayımdır. Hər kəs mənim ayımda bircə gün oruc tutarsa, behişt ona vacib olar."

İmam Sadiq (ə) buyurmuşdur: "Şəban ayı daxil olduqda İmam Zeynul-abidin (ə) səhabələrini yanına çağırıb buyurardı: "Ey mənim səhabələrim! Bu ayın necə ay olduğunu bilirsiniz. Həzrət Peyğəmbər (s) buyurardı ki, bu mənim ayımdır. Siz də Şəbanda Peyğəmbərin (s) məhəbbətinə görə oruc tutun...."

Əmirəl-möminin İmam Əli (ə) buyurardı: "Hər kəs Şəban ayında Peyğəmbərin (s) məhəbbətinə görə və Allaha yaxınlaşmaq üçün oruc tutarsa, Allah da onu sevər, Qiyamət günündə onu Öz kəramətinə yaxınlaşdırar və Behişti ona vacib edər."

İslam peyğəmbəri həzrət Məhəmməd (s) buyurmuşdur: "Allah bu ayda mənə kömək edənə - yəni bu ayda oruc tutana – rəhm etsin..."

## *Şəban ayının əməlləri*

Şəban ayının əməlləri iki hissəyə bölünür: müştərək və məxsusi əməllər.

### *Müştərək əməlləri:*

Müştərək əməllər aşağıdakılardan ibarətdir:

1-Hər gün yetmiş dəfə "Əstəğfirullahə və əs'əluhut-tövbə" sözünü deməsk;

2-Hər gün yetmiş dəfə "Əstəğfirullahəlləzi la ilahə illa huvər-Rəhmanur-Rəhimul-Həyyul-Qəyyum və ətubu iləyh" sözünü demək;

3-Sədəqə vermək;

4-Bu ay ərzində min dəfə "La ilahə illəllah və la nəbudu illa iyyahu muxlisinə ləhuddin və ləv kərihəl-muşrikun" demək;

5-Bu ayda Məhəmməd və Ali Məhəmmədə (səlləllahu ələyhi və Alihi və səlləm) çoxlu salavat göndərmək;

6-"Məfatihul-cinan" kitabında qeyd olunmuş məxsus namazı qılmaq;

7-"Məfatihul-cinan" kitabında imam Zeynul-abidindən (ə) nəql olunmuş məxsus salavatı məğrib və habelə, bu ayın yarısının gecəsi çağlarında oxumaq;

8-"Məfatihul-cinan" kitabında İbn Xaləveyhin imam Əlidən (ə) nəql etdiyi münacatı oxumaq.

### *Məxsusi əməlləri*

Şəban ayının məxsusi əməlləri "Məfatihul-cinan" kitabında ətraflı şəkildə bəyan olunmuşdur. Burada isə onlardan bir neçəsini diqqətinizə çatdırırıq:

1- Bu ayın **birinci günündə** oruc tutmaq; (Bu günün orucunun fəziləti və faydaları barədə hədis və rəvayətlər də mövcuddur)

2- Bu ayın **üçüncü günündə** imam Hüseyn (ə) dünyaya gəlmişdir və həmin gün oruc tutmaq daha fəzilətlidir;

3- Şəban ayının **on dördüncü gününün gecəsi** çox fəzilətli sayılır. Hətta, bəzi hədislərə əsasən, bu gecə Qədr gecəsindən sonra üstün sayılan bir gecə kimi adlanmışdır. Bu müqəddəs gecədə qüsl etmək və səhərədək oyaq qalıb namaz, istiğfar və dua ilə məşğul olmaq, həmçinin, Kumeyl duasını oxumaq tövsiyə olunmuşdur.

4-Şəban ayının **on beşinci günü** imam Mehdi Sahibəz-Zamanın (ə) anadan olduğu müqəddəs bir gündür. Bu gündə O həzrəti (ə) ziyarət etmək, Onun üçün dua etmək və Allahdan Onun tezliklə zühurunu diləmək müstəhəb sayılır.

5-Şəban ayının son **üç günündə** oruc tutmaq. İmam Rza (ə) buyurmuşdur: «Hər kəs Şəban ayının son üç günündə oruc tutub onu Ramazan ayına çatdırarsa, Allah-təala ona iki ardıcıl ayın oruc savabını verər.»

6-Həmçinin, bu ayda çoxlu tövbə və istiğfar etmək də tövsiyə olunmuşdur. Bu haqda ətraflı məlumat üçün Şeyx Abbas Quminin (r) "Məfatihul-cinan" kitabında "Şəban ayının əməlləri" bölməsinə baxa bilərsiniz.

## *USTAD ŞEYX MƏHƏMMƏDCAVAD FAZİL LƏNKƏRANİNİN QISA AVTOBİOQRAFİYASI*

Şiə dünyasının böyük müctəhidi Ayətullah Şeyx Məhəmməd Fazil Lənkəraninin oğlu Şeyx Məhəmmədcavad Fazil Lənkərani 1962-ci ildə müqəddəs Qum şəhərində dünyaya gəlmişdir.

O, ibtidai təhsilini Qum və Yəzd şəhərlərində almış, orta təhsilini təcrübi elmlər üzrə başa vurmuşdur. 1977-ci ildə orta məktəbdə oxumaqla yanaşı, dini hövzə dərslərini

də davam etdirmişdir. Məhəmmədcavad Fazil Lənkərani fitri istedadı və çalışqanlığı sayəsində hövzənin ümumi səth dərslərini başa çatdıraraq 1982-ci ildə Ali (xaric) fiqh və üsul dərslərinə başlamış, bu dərslərdə atası Ayətullah Məhəmməd Fazil Lənkəranidən və Ayətullah Vəhid Xorasanidən bəhrələnmişdir. O, 1995-ci ildə müctəhid dərəcəsinə çatmışdır.

Şeyx Məhəmmədcavad Fazil Lənkərani təfsir və fəlsəfə dərslərində Ayətullah Həsənzadə Amulinin və Ayətullah Cavadi Amulinin şagirdi olmuş, İbn Sinanın "Şifa", Molla Sədranın "Əsfar" kitablarını və digər mühüm fəlsəfi əsərləri dərindən öyrənmişdir.

Ustad Lənkərani artıq 20 ildir ki, tələbələrə dərs deyir. O, dörd dəfə "Məalim", üç dəfə "Məkasib" və dörd dəfə "Kifayə" əsərlərini tədris etmişdir.

Onun bu dərsləri alimlərin nəzərində mötəbər dərslərdən sayılır. Şeyx Ənsari, Müqəddəs Ərdəbili, İmam Xomeyni və digər bu kimi şəxsiyyətlərə həsr olunmuş mötəbər elmi konfranslarda onun çoxsaylı elmi məqalələri oxunmuş və nəşr edilmişdir.

## USTAD ŞEYX MƏHƏMMƏDCAVAD FAZİL LƏNKƏRANİNİN ƏSƏRLƏRİ:

1. "Risalətun fit-təqiyyə";
2. "Risalətun fi şərtiyyətil-ibtila";
3. "Risalətun fi həqiqətil-vəz";
4. "Hucciyyətul-kitabə fil-fiqhil-islami";
5. "Ət-təvaf minət-tabiqil-əvvəl, dirasətun fiqhiyyətun istidlaliyyə";
6. Molla Əhməd Nəraqinin "Müstənədüş-şiə" kitabındakı istinbat üsuluna qısa bir baxış";

7. “İslam hökuməti və Vilayəti-fəqih nəzəriyyəsində ədalət prinsipi”;

8. “Zühur dövründə din”;

9. “Fiqh elmi və zaman-məkan çərçivəsi”;

10. “Quran təhrif olunmayıb”;

11. “Məscidül-həram”ın birinci mərtəbəsində təvaf etmək barədə fiqhi araşdırma”;

12. “Ayı görmək üçün teleskop kimi yeni cihazların etibarlılığı”;

13. “Təqliddə ictihad bəhsi” (istidlali və istinbati);

14. “Ali (xaric) Üsul dərsləri kursu”;

15. “Qəvaidül-fiqhiyyə”;

## «MƏSUM İMAMLAR» BEYNƏLXALQ FİQHİ ARAŞDIRMALAR MƏRKƏZİ

Mərkəz 1997-ci ildən fəaliyyət göstərir. Burada tədqiqatçı din alimləri, müctəhid və fəqihlər, zaman, məkan və şəraitə tam bələd ola bilən alimlər yetişdirilir. Üsul və fiqh sahəsində dərindən araşdırma və mütaliə aparmaq qabiliyyətinə malik gələcəkdə qarşıya çıxa biləcək hər hansı yeni məsələlərə cavab verə biləcək (tibb, iqtisadiyyat, ictimai-siyasi, şəri, sosial və digər sahələrdə) dini kadrlar hazırlanır. Elmi kitabları və məqalələri nəşr olunması ilə bağlı mütəxəssislər hazırlanır.

Mərkəzin fəaliyyəti, əsasən, 5 sahədə cəmləşib:

**1.Təlim-tərbiyə və tədris.**

**2. Tədqiqat və elmi-əsərlərin (materialların) çapı.**

**3. Qədimdən bu günə qədər mövcud ədəbiyyatı araşdırıb yenidən çap etmək.**

**4. Kitabxananın fəaliyyəti.**

**5. İnformatika.**

Təlim-tərbiyə və tədris sahəsinə 5 nəfərdən az olmamaq şərtilə alimlər rəhbərlik edirlər. Yuxarı səviyyəli tələbələr (onlar, adətən, dini təhsilə malik olurlar) həmin alimlərin nəzarəti və göstərişləri sayəsində elmi mövzular üzərində işləyirlər.

Hazırda fiqh və üsul elmləri sahəsində 8 bu cür qrup mövcuddur ki, hər qrupa da 20-30 tələbə cəlb edilmişdir. Bu tələbələrin çəkdikləri zəhmətin son bəhrəsi müctəhidlik olacaq. Ayrılıqda həmin qrupların hərəsi haqqında qısa məlumat verəcəyik. Qeyd etmək lazımdır ki, bu təhsil sisteminin İİR-da əvvələr analoqu olmadığı üçün indi zəruri

olmuşdur. Belə ki, yeni islami dövlətdə hər cür instituta–idarəetmə, bank sistemi, məhkəmə və prokurorluq, müəllif hüquqları, icarəvermə, şəri qaydalar, Həcc əməlləri, məzhəblərarası münasibəti və onlarla digər sahə islami prizmadan öz həllini tələb edir. Və təbii ki, mütəxəssislərə ehtiyac var. Mövcud təhsil sistemi də öz növbəsində həm nəzəri, həm praktik, həm də yeni-yeni tədrisin avadanlıqlarla təchizi baxımından təkmilləşir. Beləliklə, qruplar:

**1. Prokurorluq və məhkəmə qanunları.**
**2. Həcc qrupu.**
**3. İcarə qrupu.**
**4. Fiqh üsulu (I qrup)**
**5. Fiqh üsulu (II qrup)**
**6. Namaz (ibadət) qrupu**
**7. Yeni məsələlərin araşdırılması qrupu.**
**8. İslam iqtisadiyyatı (xüms) qrupu.**

1. Bu sahədə oxumaq imtahan yolu ilə ali dini təhsili olan aspirantlar qəbul edilir. Onlarla hər gün 2 saatlıq ali dərs keçilir. Bu tələbələr də öz növbəsində hər həftə apardıqları araşdırmalarla bağlı izahat, hesabat, (seminar) verirlər. Onlara, eyni zamanda, Quran və hədislərdən hökm çıxarmaq qaydaları, söz yaradıcılığı və digər fənlər də tədris edilir.

2. Tədqiqat və elmi araşdırmalar təhsil sahəsində görkəmli alimlər cəmləniblər. Onlar istər tədris üçün, istərsə digər sahələrdə çalışan elm adamlarının istifadəsi üçün ixtisas ədəbiyyatı tərtib edib çapa verirlər. Mərkəzin fəaliyyəti dövründə onlarla adda bu cür kitab işıq üzü görmüşdür.

3. İslami kitabxanalarda minlərlə qədimi əsərlər qorunur. Amma onlar çox zaman müasir insanlar tərəfindən çətin qavranılır, ya da uzun illərin təbii şəraiti kitabları

yararsız hala saldığı üçün istifadə oluna bilmir. Bəzi müəlliflərin elmi mülahizələrində yanlışlıqların, dəqiq olmayan faktların olduğu da müşahidə edilir və s. Burada İslam ümməti (millət və təriqətdən asılı olmayaraq) nümayəndələrinin elmi işləri böyük səbr, qayğı və diqqətlə araşdırılır, bəzən korifeylərlə yazılmış əlyazmalar belə, sistemləşdirilir. Deyilən sahədə indiyə qədər onlarla qədimi əsərə "yeni həyat" bəxş edilib. Məhz bu cür səylərin nəticəsində (bu sahədə görülən işlər bəzən illərlə davam edir) Nəsrəddin Tusi, Şeyx Amili, Şeyx Müfid və digər korifeylərlə oxucuların yeni görünüşü mümkün olmuşdur.

4. Mərkəzin nəhəng bir elmi müəssisə olduğunu nəzərə alsaq, onun zəngin kitabxanasız ötüşdüyünü təsəvvür etmək mümkün deyil. Zəngin kitabxanaya zərurət ödənilibsə də, sahəsi, oxucuların rahatlığı və s. texniki imkanların hələlik məhdudluğu etiraf edilməlidir. (Bu sahədə görülən işlər haqqında irəlidə danışılacaq).

Hazırda mövcud kitabxanada təkcə ixtisaslar üzrə 20 mindən çox kitab saxlanılır. Bunlardan əlavə ayrı-ayrı mövzular üzrə kitab fondu da tələbə və müəllimlərin öhdəsinə verilib. Elmi nailiyyətlərlə bağlı dünya ədəbiyyatı müntəzəm olaraq alınır və kitabxananın fondu təzələnir. Mövcud kitablar isə kompüterə yığılır ki, tələbə və müəllimlər evdə oturaraq hazırlaşa bilirlər. Mərkəzin kitabxana fondundan kənar şəxslərin istifadəsinə də icazə verilir. Hər qəbildən olan oxucu üçün biblioqraf işi kompüter vasitəsilə yüksək səviyyədə həyata keçirilir.

5. Bunu demək artıqdır ki, müasir elmi, texniki, təhsil və digər müəssisələrdə informatikasız keçinmək mümkün deyil. Bu baxımdan "Məsum İmamlar" Beynəlxalq Fiqhi Araşdırmalar mərkəzi də rəqəmsal sistemli modern avadanlıqla təchiz olunmuş, peşəkar mütəxəssislərin işlədiyi informatika xidmətinə malikdir. Buranın işinə qısa nəzər salaq:

İnternet sistemi daxil olan suallara cavabları, məktublaşmaları, kitabxana kitablarının məzmunundan istifadəni, ayrı-ayrı ölkələrin lazımi kitablarından bəhrələnməyi və digər zəruri məsələləri təmin edir.

Mərkəzin tədqiqat və araşdırmalarının məhsulu olan əsərlər, keçirilən dərslər də internetə salınır ki, dünyanın hər yerində faydalanmaq mümkün olsun. Beləliklə, İranın Qum şəhərində “Məsum İmamlar” Beynəlxalq Fiqhi Araşdırmalar Mərkəzindəki tədris prosesində hər bir ölkənin vətəndaşı iştirak edə bilər. Buna “elektron mədrəsə” də deyilir.

İnformatika xidməti bölməsində materiallar uyğun saytla hələlik 24 dildə hazırlanmışdır, başqa dillər üzərində də gərgin iş gedir.

Mərkəzin təsisçisi və rəhbəri şeyx Məhəmmədcavad Fazil Lənkəraninin saytını xatırladırıq:

WWW.-fazel.com

Bu sayt 8 rubrikadan ibarətdir:

**1. Tərcümeyi hal.**

**2. Əsərləri ilə qısa tanışlıq.**

**3. Tədris və elmi işləri**

**4. Ayrı-ayrı mənbələrə verdiyi müsahibələr.**

**5. Şəkil albomu.**

**6. Xatirələr.**

**7. Ustadla birbaşa təmas xətti.**

**8. Ustad Şeyx Məhəmmədcavad Fazil Lənkərani-nin məsləhət bildiyi və nəzarətində olan saytlar.**

Ayətullah-üzma Hacı şeyx Məhəmməd Fazil Lənkərani dəftərxanasının nəzdində fəaliyyət göstərən Mərkəz, təbii ki, baş idarənin sayt xidmətini də öhdəsinə götürmüşdür. Saytı xatırladırıq:

## WWW.Lankarani.org

Bu sayt İİR-da və bütün ölkələrdə yaşayan müqəllidlərin hörmətli mərceyi-təqlidlə və ya onun dəftərxanası ilə əlaqə saxlamaqda, xidmətdən bəhrələnməkdə əvəzedilməz rol oynayır. Əvvəllər məktub vasitəsilə aparılan şəri sual-cavablar həftələrlə vaxt aparırdısa, indi bu işə bir gün kifayət edir. Təqdim olunan saytın rubrikaları bunlardır:

**1. Avtobioqrafiya.** Xatırladaq ki, cənab Məhəmməd Fazil Lənkəraninin avtobioqrafiyası üç mənbədə hazırlanmışdır:

a) Fiqhi Mərkəz mərceyi-təqlidi alim-şəxsiyyət kimi təqdim edir.

b) "Cümhuri-İslam" qəzeti onun həyat yolunun ictimai-siyasi yönünü qabardır.

v) "Cami-cəm" qəzetinin hazırladığı avtobioqrafiyasında isə daha çox onun mənəvi aləminə diqqət yetirilir.

**2. Əsərləri.** Burada cəmi 46 əsəri haqqında məlumat tapmaq mümkündür. Qeyd olunmalıdır ki, qüdrətli alimin çap etdirmədiyi onlarla əsəri var. Təqdim olunan kitabların bə'ziləri çoxcildlidir (məsələn, 20 cild).

**3. Hökmlər və fətvalar.**

**4. Dərsləri.** Burada Lənkərani ağanın indiyə kimi keçdiyi ali (xaric) dərslərin videoyazısı yerləşdirilib.

**5. Görüşlər.** Burada müxtəlif vaxtlarda alimin mühüm məsələlərlə bağlı məsul görüşləri toplanılıb.

**6. Bəyənatları.**

**7. Dəftərxanasının fəaliyyəti.** Bu da öz növbəsində üç qismə ayrılır:

a) Nəşriyyat;

b) İİR üzrə müxtəlif mövzularda aparılan müsahibələr;

v) Tədbirlər: əlamətdar hadisələr, konfranslar və s.

**8. Məhəmmədcavad Fazil Lənkəraninin əsərləri ilə tanışlıq.** (Burada Ayətullahın indiyə kimi çapdan çıxmış yalnız 15 kitabı göstərilir).

**9. Məhəmməd Fazil Lənkəraninin kitabxanasındakı əsərlərin siyahısı, nadir əlyazmalar, qədim və müasir dünya alimlərinin kitabları.**

**10. Şəkil qalereyası.**

**11. Məsləhət olunan saytlar.**

**12. Məhəmməd Fazil Lənkərani dəftərxanasının şöbələri haqqında xəbərlər.**

**13. Xüsusi səhifə.** Burada əlamətdar hadisələrlə bağlı materiallar verilir və onlar təqvimə uyğun olaraq təzələnir.

**14. Münasibətlər.** Bu bölmədə alimin bütün görüşləri, onunla aparılmış müsahibələr və mülahizələri özünə yer almışdır.

Dəftərxananın nümayəndəlikləri:

İİR daxilində fəaliyyət göstərən əsas nümayəndəliklər:

1. Məşhəd. (2 nümayəndəlik)
2. Tehran. (2 nümayəndəlik)
3. Təbriz.
4. İsfahan.
5. Kərəc.
6. Əhvaz və s.

**Xarici ölkələrdəki rəsmi nümayəndəliklər:**

1. Birləşmiş Ərəb Əmirliyi (Dübey)
2. Səudiyyə Ərəbistanı (Mədinə)
3. Suriya (Dəməşq)
4. Əfqanıstan (Kabul)
5. Küveyt (Küveyt)

6. Rusiya Federasiyası (Moskva)

Qeyd: Bir çox xarici ölkələrdə isə dəftərxananın işini qeyri-rəsmi nümayəndələr aparır.

## *“MƏSUM İMAMLAR” BEYNƏLXALQ FİQHİ ARAŞDIRMALAR MƏRKƏZİNİN YENİ BİNASI HAQQINDA*

Qum şəhərində “Məsum İmamlar” Beynəlxalq Fiqhi Araşdırmalar Mərkəzinin yeni binası üçün torpaq sahəsi ayrılmışdır. Altı mərtəbəli (birinci və ikinci qatlar yeraltıdır) əzəmətli tikintinin daş-divar hissəsi, demək olar ki, sona çatmışdır. Araşdırmalar Mərkəzinin binadaxili və digər son tamamlama işləri 2007-ci ilin Novruz bayramına kimi tamamlanmalıdır.

Zirzəmi qismində yerləşən birinci mərtəbədə ictimai zalın və böyük yeməkxananın fəaliyyəti nəzərdə tutulur. İkinci mərtəbədə Mərkəzin idarəçiləri üçün kabinetlər, imtahan otaqları və qaraj olacaq.

Binanın yerüstü hissəsinin ilk mərtəbəsində birdəfəlik 1500 kişinin ibadət edə biləcəyi məscid olacaq. Mərkəzin yeni binadakı əsas fəaliyyətinə həm də tədris işləri daxil olduğu üçün sinif otaqlarının rahatlığına və səmərəlilik baxımından istifadəsinə xüsusi diqqət verilmişdir. Burada 35 sinif otağı, rəis və müdirlərin kabinetləri yerləşəcək.

İkinci mərtəbədə xanımlar üçün məscid (300 nəfərlik), 35 sinif otağı nəzərdə tutulub. Hər sinifdə 20 tələbənin təhsillə məşğul olacağı hesabı ilə bu elm ocağında 1400 tələbənin oxuyacağı ehtimal olunur.

Üçüncü mərtəbədə 40 sinif, konfrans zalı, ixtisas otaqları, 1300 oxucunun istifadəsinə veriləcək kitabxana və s. olacaq.

Dördüncü mərtəbə şərti olaraq “kitabxana” adlanacaq. Buradakı ümumi kitabxananın sahəsi 1500, xüsusi

kitabxananın sahəsi isə 1200 kvadrat metr olacaq. Kompüter zalı və təhqiqat mərkəzi də burada yerləşəcək.

Yeni Araşdırmalar Mərkəzinin tikintisinə 24 yaşlı azərbaycanlı Məcid Muxtari nəzarət edir. İnşaat işləri ilə bağlı məlumatları da o verdi və bildirdi ki, yeni bina 2007-ci ilin Novruz bayramı üçün istifadəyə verilməlidir.

## *ALİMİN ƏSƏRLƏRİ HAQQINDA BİR NEÇƏ SÖZ*

Şeyx Məhəmmədcavad Fazil Lənkəraninin bütün əsərlərini İslami nəzərdən qiymətləndirmək qüdrətimiz çatmadığından yalnız müəyyən təhsil görmüş, hazırlıqlı müsəlman oxucu kimi bu kitablarla bağlı müəyyən rəy söyləyərkən 7 məqama toxunmaq istəyirik:

1. Gənc alimin əsərləri konkretlilik baxımından, yə'ni mətləbləri uzatmayaraq ən əhatəli terminlərlə oxuculara təqdim edildiyi üçün fərqlənir;

2. Ustad seçdiyi mövzuların aktuallığına hamıdan əvvəl özü inandığı üçün oxucunu da inandıra bilir.

3. Əsərlərindəki mətləbləri çatdırarkən zahiri bəzək-düzəkdən qaçmağa səy edir, fikrin rişəsinə çatıb əldə etdiyini oxucuya təqdim etmək istəyir.

4. Bayağı təsvir üsullarından, rəvayətlərdən, e'tibarsız, lakin cəzbedici hədislərdən imtina edir. Ağılla, məntiqlə, dərin fəlsəfi düşüncəyə və nəhayət, Quran və Əhli-beytdən olan mənbələrə söykənir.

5. Onun əsərlərində "birdən bunu başa düşməzlər" kimi ehtiyatlanmaq hesabına alimlik, tədqiqatçılıq vərdişinə xilaf çıxmaq hallarına rast gəlmirsən. Fikirlərin dərinliyi indi daha çox müşahidiə olunan "xoşa gəlmək" ən'ənəsinin üzərindən xətt çəkir, oxucunu dərin mətləb arxasınca aparmağa sövq edir. Bu xüsusiyyət alimin oxucu və tələbələrə inamından, hörmətindən, hardasa bir qədər ərkyana tələbindən irəli gəlir.

6. Şeyx Məhəmmədcavad Fazil Lənkəraninin əsərlərini oxuyarkən müəllifi fani dünyadan təcrid olunub elm

xəzinəsində məşğul təsəvvür edirsən. (Hazırda bir çox hörmətli alimlər və şahidlər bu fikri onun atası, möhrətəm mərceyi-təqlid Məhəmməd Fazil Lənkərani haqqında da deyirlər).

7. Ustad Məhəmmədcavad şəxsiyyət kimi də, alim təki də təvazö sahibidir.

Deyilənlərə misal üçün iste'dadlı tədqiqatçı alim, müəllim olan Ayətullah Şeyx Məhəmmədcavad Fazil Lənkəraninin son zamanlar çox oxunan, eyni zamanda da müxtəlif rə'ylər səbəb olmuş "Quran təhrif olunmayıb" kitabından bir parçanı təqdim edirik.

*Şeyx Məhəmmədcavadın əsas ruhani fəaliyyəti elmi araşdırmalar və tədris olsa da, o, Ayətullah Məhəmməd Fazil Lənkərani dəftərxanasının müdiri və "Mə'sum imamlar" Beynəlxalq Fiqhi Araşdırmalar Mərkəzinin sədri vəzifəsində də çalışır.*

## *TARİX TƏKRARLANIR*

İslam elmlərində müvəffəqiyyət qazanıb yüksək nəticələrə çatmaq olduqca çətindir. Bu işdə uzun illər yorulmaz sə'ylər, sarsılmaz iradə, xüsusilə ilahi tövfiqin olması labüddür. Amma ictihad dərəcəsinə çataraq, müctehidlik məqamına yiyələnmək olduqca ağırdır. Məsələnin ağırlığını aydınlaşdırmaq üçün qeyd etməliyik ki, orta hesabla hər min nəfər tələbədən yalnız 1-2 nəfəri bu böyük məqam və şərəfə nail ola bilir. Bu dərəcəyə yüksəlmək üçün bə'zən 40-50 il zəhmətlərə qatlaşmaq lazım gəlir. Ona görə də istisnai olaraq bə'zilərinin gənc yaşlarında bu şərəfə nail olması kimlərdəsə şübhə yaradır, hətta iman və təqvası zəif olan şəxslərin heç bir əsas olmadan, kimlərinsə ictihadını inkar etməsinə səbəb olur. Ayətullah-üzma Şeyx Məhəmməd Fazil Lənkərani bu məsələyə uyğun olaraq nəql edir: Bir gün atam evə çox pərişan halda qayıtdı. Onu görən kimi dərin narahatlıq hissi keçirdiyini başa düşdüm. Səbəbini soruşdum. Açıqlamaq istəmədi və fikrimi yayındırmaq üçün dərslərim barədə soruşdu. Əl çəkmədim, onu narahat görmək mənə ağır idi. Atam çarə görməyib sözə başladı: Bilmirəm bu camaatla necə davranasan. Bu gün böyük alimlərdən biri yanıma gəlib məni təhqir etdi. Deyirdi ki, guya kitab yazıb sənin (gənc Fazilin) adına çap etdirirəm. Hətta and içdim ki, bu kitabları oğlum özü yazır, onların yazılıb çap olunmasında bir kimsənin azacıq da olsa rolu yoxdur, inanmadı. İsrar edirdi ki, belə bir kitabı bu yaşda cavanın yazması qeyri-mümkündür. O zaman mənim 20 yaşım var idi və Ayətullah Bürucerdinin xaric dərslərinin təqriri olan «Nəhayətut-təqrir» kitabını yazmışdım. Kitabın mürəkkəbliyi, mətnlərin səlis və rəvan olması, ərəbcə yazılması, xüsusilə gənc bir tələbənin əsəri olması bir çoxlarında şübhə yaratmışdı.

Eyni problem nəvə Fazil üçün də qarşıya çıxmışdır. Gənc yaşında ictihad məqamına çatması, fiqh-üsul mövzularında kitablar yazması bir çoxları üçün müəmmalı görünür. Amma şükürlər olsun ki, texnika inkişaf etmiş, bir çox müəmmaların izahı asan olmuşdur. Gənc müctəhid Şeyx Məhəmmədcavad Fazil Lənkəraninin tədris etdiyi fiqh və üsul elminin xaric dərslərinin video yazıları onun öz saytında yerləşdirilmişdir. Bu məsələdə araşdırmaq aparmaq istəyənlər həmin sayta müraciət etməklə keçirilən dərslərin səviyyəsindən hər şeyi başa düşərlər.

# *BƏ'Zİ TERMİNLƏRİN İZAHI*

***"Nur sırası" kitabı təkcə dini təhsil almış insanlar üçün deyil, geniş oxucu kütləsindən ötrü nəzərdə tutulduğundan bəzi terminlərin izahının verilməsi məqsədəuyğun hesab edildi.***

**Müctəhid**–Lüğəti mənası çalışqan və ictihad edən deməkdir. Şəri hökmləri Quran, hədis və digər mənbələrdən əldə edib bəyan edən ali rütbəli ruhani.

**Ayətullah**–Lüğəti mənası Allahın nişanə və əlaməti deməkdir. Müctəhidlik məqamına yiyələnən ruhanilərə hörmət əlaməti olaraq Ayətullah deyilir.

**Ayətullah-əl üzma**–Allahın böyük nişanəsi deməkdir. Böyük müctəhidlərə, xüsusən də digərləri tərəfindən təqlid edilən müctəhidlərə deyilir. Ayətullah və Ayətullah üzma bəzən eyni mənalarda da işlənir.

**Mərceyi təqlid**–mənası təqlid yeri, təqlid mənbəyi deməkdir. Başqa müsəlmanlar tərəfindən təqlid edilən müctəhidlərə deyilir.

**Fiqh**– İslamda şəri hökmləri, vacib, halal, haram və digər bu kimi məsələləri öyrənən elm; qanun elmini, fiqh elmini mükəmməl bilən ruhanilərə fəqih və müctəhid deyilir.

**Tovzihul-məsail**–Şəri məsələlərin izahı deməkdir. Hər hansı bir müctəhidin Tovzihul-məsaili ola bilər, lakin adətən mərceyi-təqlid olan müctəhidlər tərəfindən yazılır. Uyğun kitabda namaz, oruc, xüms, həcc və sair bu kimi mövzuların şəri hökmləri bəyan olunur.

**Fətva**– hər hansı bir məsələ barəsində mərceyi təqlidin rəyi.

**İstifta**–fətvanı soruşmaq deməkdir. Hər hansı bir məsələnin şəri hökmünü bilən üçün mərcəi təqliddən istifta olunur. Uyğun sözün cəm forması "İstiftaat" adlı kitablarda, mərceyi-təqlidə və yaxud onun dəftərxanasına verilən şəri suallar, onların cavabları yerləşdirilir.

**Elmi hövzə**–Elmi hövzə şiə alimləri tərəfindən yaradılan dini mədrəsələr məcmusudur. Maliyyə mənbəyi mərceyi-təqlidlərə verilən xüms və zəkatın bir qismi və bəzən də xeyriyyəçi insanlar tərəfindən göstərilən yardımlardan ibarətdir. Bu mədrəsələrdə ənənəvi dini fənlər, o cümlədən ərəb dili qrammatikası, təfsir, fiqh, üsul, məntiq, fəlsəfə və digər dərslər keçirilir.

Bir elmi hövzədə onlarla dini mədrəsələrin olması mümkündür. Lakin bəzən bir mədrəsəyə də elmi hövzə deyilir.

Elmi hövzənin min ildən artıq yaşı vardır. Bu gün dünyanın bir çox şəhərlərində, o cümlədən Nəcəf, Qum, Dəməşq, Məşhəd və İsfahanda elmi hövzə mövcuddur. Hazırda ən böyük və mərkəzi elmi hövzə Qum elmi hövzəsi sayılır.

Son illərdə Qum elmi hövzəsinin tədris sistemində əsaslı islahatlar nəticəsində müxtəlif ixtisasların tədrisi də həyata keçirilir. İndi bu mədrəsələrdə Quranşünaslıq, hədisşünaslıq, İslam fəlsəfəsi və ürfan, İslam tarixi, İslam iqtisadiyyatı, ərəb dili, din və məzhəbşünaslıq, şiəşünaslıq, fiqh və üsul, fiqh və İslam maarifi, İslam hüququ və digər sahələr üzrə mütəxəssislər yetişdirilir.

**Üsul**–Lüğəti mənası qaydalar, prinsiplər deməkdir. Fiqhi araşdırmalarda lazım olan qayda-qanunlar toplusudur. Şəri hökmləri əldə edərkən fiqhi dəlillərdən–Quran, sünnə, icma və ağıldan istifadə yollarını öyrədir.

**Müqəddimə dərslər**–Ənənəvi elmi hövzələrdə üç tədris mərhələsinin–müqəddimə səth və ali (xaric) dərslərin birincisi. Bu mərhələdə, adətən, ərəb dilinin qrammatikası haqda mükəmməl biliklər və ümumi İslam maarifi tədris olunur. Ali məktəblərin bakalavr mərhələsilə eyniləşdirmək olar.

**Səth dərsləri**– Ənənəvi elmi hövzənin ikinci tədris mərhələsi bu mərhələdə fiqh və üsul, habelə İslam fəlsəfəsi və Quran təfsiri haqqında dərin biliklər öyrədilir. Fiqh elminə aid olan "Şərhi-lümə" və "Məkasib", üsul elminə aid olan "Rəsail" və "Kifayə" kitabları bu mərhələdə tədris olunur.

**Ali (xaric) dərsləri**–Ali dərslər fiqh və üsul elmlərinə aid olub, müctəhid və mərceyi-təqlidlər tərəfindən tədris edilir. Müctəhid bu dərslərdə qabaqcadan apardığı tədqiqatlardan istifadə edərək hər hansı bir fiqhi məsələ və yaxud üsul elminə aid qanunla bağlı müxtəlif nəzərləri tənqidi baxımdan araşdırır, aldığı nəticəni və şəxsi rəyini bəyan edir. Bu dərslər tələbələrə uyğun elmlərin tədqiqat metodunu öyrətməklə yanaşı, həm də onları tədqiqata sövq edərək bir növ müctəhidliyi hazırlayır. Sözügedən mərhələni Fransa təhsil sisteminin doktorantura mərhələsilə eyniləşdirmək olar.

**Müdərrislər şürası**– Elmi hövzənin böyük alimlərindən ibarət olan müdərrislər (müəllimlər) şurası.

**Təfsir–**Quran ayələrinin səlahiyyətli İslam dini alimləri tərəfindən şərhi.

**Təqiyyəsi**–fövqəladə və xüsusi şəraitdə öz məzhəbi əqidəsini imkan daxilində gizli saxlamaq.

**Hüccət**–Sübut, dəlil, bəhanəni kəsmək vasitəsi, ilahi hökm və əmrlərin təzahür vasitəsi.

## *İstifadə olunmuş ədəbiyyat*


1. "Qur'ani-Kərim", tərcüməçilər Ziya Bünyadov, Vasim Məmmədəliyev.

2. "Azərbaycan tarixi", c. 1, Bakı, 1964

3. "Azərbaycan tarixi", c. 2, Bakı, 1961

4. Abdullayev H., "İz istorii Severo-Vostoçnoqo Azerbaйdjana v 60-80 qq. XVİİİ veka", Baku, 1958q.

5. "Azərbaycan Sovet Ensiklopediyası", cild İV, Bakı, 1980

6. "Azərbaycan Sovet Ensiklopediyası", cild Vİ, Bakı, 1982

7. Ayətül-üzma Hacı Şeyx Məhəmməd Fazil Lənkərani, "Şəriət hökmlərinin izahı"; Bakı, 2005.

8. Zahir Əmənov, "Ərkivan" kitabı.

9. Coğrafiyaşünaslıq təşkilatı tərəfindən hazırlanmış böyük dünya atlası, səh. 50.

10. Höccətül-İslam Dəbestani ilə müsahibə.

11. Gəncineye daneşməndan, c. 2, səh. 272.

12. Müfradat, müəllif: Rağib İsfahani, səh. 536.

13. Rusiya müsəlmanları, səh. 51.

14. Həmin qaynaq, səh. 94.

15. Nur əs-səqəleyn, c. 1, səh. 541.

16. Tövbə, 20.

17. Gəncineye daneşməndan, c. 2, səh. 271.

18. Höccətül-İslam Dəbestani ilə müsahibə.

19. Hövzə jurnalı (Məcəlleye-hövze) 43 və 44-cü sayı.

20-23. Höccətül-İslam Dəbestani ilə müsahibə.

24. Əməl meydanında elm adamları, c. 3, səh. 237.

25. Gəncineye daneşməndan, c. 2, səh. 237.

26. Höccətül-İslam Dəbestani ilə müsahibə.
27. Həzrət Ayətullah əl-üzma Fazil Lənkəraninin həyatı.
28. Əməl meydanında elm adamları, c. 2, səh. 369 və 370.

## *Allaha xalisanə tapınmağın nəticəsi*

İyirmi ildən artıq Ayətullah Şeyx Məhəmməd Fazil Lənkəraninin mühafizəçisi olmuş cənab Ümidi belə nəql edir: Bir gün həddən artıq narahat idim. Maddi vəziyyətin ağırlığı və qarşıya çıxan bir sıra problemlər məni məngənə kimi sıxırdı. Həmin gün çox çalışsam da pərişanlığımı ağadan gizlədə bilmədim. Ayətullah Fazil bunun səbəbini soruşdu. Cavabdan yayınmaq istədim. Amma ağanın cavab gözləyən mə'nalı baxışları məni danışmağa vadar etdi. Əhvalatı olduğu kimi söylədim. Ağa təmkinlə qulaq asıb məni dua etdi, Allah-təaladan müşküllərimin tezliklə həll olunmasını dilədi. Daha sonra təsəlli üçün öz başına gəlmiş bir hadisəni xatırladı və dərindən ah çəkib söhbətə başladı:

Şah rejimi dövründə mübariz inqilabçılara, alim və ruhanilərə yönəlmiş amansız rəftarlardan bizə də bir pay düşmüşdü. Məni İran körfəzi rayonlarından biri olan Lingə limanına sürgün etmişdilər. Bu məntəqədə qışın orta aylarında belə istidən və rütubətdən nəfəs almaq olmur. Səhhətimə münasib olmayan bu ab-həva onsuz da zəif və xəstə cismimi taqətdən salmışdı. Yerləşdiyim daxmanın yaxınlığında kiçik bir çayxana vardı. Orada mö'min bir kişi işləyirdi. Səhər, günorta və axşam yemək üçün oraya gedirdim. Həmin mö'min kişi bu sadə və kiçik yerdə mənə xüsusi qayğı göstərməyə çalışırdı. Bir gün səhər yeməyi üçün yenə çayxanaya getmək istədim. Əlimi cibimə saldım. Cibimdə bir tümən də olsun pul qalmamışdı. Qayıdıb oturdum. Günorta və axşam da beləcə sovuşdu. Səhəri gün sübh namazından sonra bir tərəfdən havanın ağırlığı, bir tərəfdən xəstəlik və aclığın tə'sirindən halım pisləşdi. Üzüqibləyə oturub Allahla raz-niyaza məşğul oldum.

Əllərimi İlahi dərgaha açıb belə ərz etdim: «İlahi, vücudumun Sənin dininə xeyri varsa, məni bəndələrin yanında xar etmə, ruzi yetir acından ölməyim. Yox, əgər həyatımın Sənin dininə bir faydası yoxdursa, canımı al. Mən kimsəyə əl açmayacaq, kimsədən borc və ya yardım istəməyəcəyəm.» Allaha təvəkkül edib gözləməyə başladım; həmin günü bir təhər yola saldım. Səhəri gün günortadan sonra təmiz hava almaq üçün körfəzin kənarında əyləşib mavi sulara tamaşa edirdim. Bu vaxt yaşlı bir kişinin sür'ətlə mənə tərəf gəldiyini gördüm. Əvvəlcə onun nəsə istəyəcəyini güman etdim. Özüm möhtac ikən ona nə verə bilərdim?! Xəcalət hissi keçirdim. Nəhayət, həmin şəxs əlində bir bağlama tövşüyə-tövşüyə yaxınlaşıb soruşdu: «Ağa Fazil sizsiniz?» Cavab verdim: «Bəli.» «Bu əmanət sizə çatacaq» – deyə əlindəki bağlamanı mənə tərəf uzatdı. Bağlamanı almayıb onun nə olduğunu soruşdum. Cavab verdi: «Mən bir il idi ki, həccə getməyə hazırlaşırdım. Özüm də balıqçıyam, kiçik bir gəmim var. Səfərə çıxmaq üçün nə lazım idisə tədarük görmüşdüm. Pasport, viza və yol xərcini hazırlamışdım. Bu gün səhər yola düşməli idim. Axşam qəribə bir yuxu gördüm. Həzrət Peyğəmbər (s) yuxuda səfəri tə'xirə salmağımı əmr edib buyurdu ki, həcc üçün topladığım pulu sizə verim. O həzrət buyurdu ki, sənə həccin savabı yazıldı və o pulları ağa Fazilə çatdır. Bu gün səhərdən sizi axtarıram. Çayçı kişi sizin sahildə olduğunuzu deyən kimi bir başa buraya gəlib sizi tapdım. Şükürlər olsun ki, həzrət Peyğəmbərin (s) əmrini yerinə yetirdim!»

## İSLAM DÜNYASININ GÖRKƏMLİ ALİMİ, MƏŞHUR MƏRCƏİ-TƏQLİD MƏRHUM HƏZRƏT AYƏTULLAH-ÜZMA FAZİL LƏNKƏRANİNİN (R) VƏSİYYƏTNAMƏSİNDƏN

### *MƏRHUM AYƏTULLAH-ÜZMA FAZİL LƏNKƏRANİNİN (R) İKİ İL ÖNCƏ QƏLƏMƏ ALINMIŞ MƏKTUBU*

**Rəhman və rəhim Allahın adı ilə**

Allaha həmd-səna, Məhəmməd ailəsinə salavat-salamdan sonra nəzərinizə çatdırıram ki, əziz oğlum Məhəmmədcavad Fazil Lənkərani, həmd olsun Allaha, mənim bilavasitə nəzarətim altında yüksək ictihad dərəcəsinə çatmışdır. O bir neçə il ardıcıl şəkildə fiqh və üsul elmlərinin incəliklərinə vararaq «xaric» dərslərinin tədrisinə məşğul olmuşdur. Məhəmmədcavad çoxsaylı risalə və kitabların müəllifidir. O, işlərimdə mənə yardımçı olmuş, xüsusilə ağır mərcəiyyət məs’uliyyətindən sonra yaxından kömək göstərmişdir. Məhəmmədcavad və qardaşı Əhmədağa Müvəhhidinin yardımları olmasaydı və onlar bütün vaxtlarını mənim işlərimə sərf etməsəydilər, müxtəlif çətinliklər səbəbindən belə böyük bir məs’uliyyətin öhdəsindən gələ bilməzdim. Onlar ən kiçik işlərdə belə mənim rə’yim əsasında addım atmışlar.

Bu iki şəxs deyilənlərdən əlavə bir sıra başqa işlərdə və onların həyata keçməsində ciddi sə’y göstərmişlər. «Mə’sum İmamlar» adına beynəlxalq fiqhi mərkəzin idarəçiliyi mənim mühüm məs’uliyyətlərimdəndir. Bu müəssisə böyük bir binada yerləşir və orada bir qrup

tanınmış alim «xaric» dərslərinin tədrisi ilə məşğuldur. Müəssisədə çoxsaylı kitablar nəşr olunur, internet şəbəkəsi vasitəsilə çeşidli dini suallar cavablandırılır. Binada iyirmi min cild ədəbiyyatı olan kitabxana mövcuddur. Müqəddəs Məşəhəd şəhərində hövzəvi elmlərlə yanaşı digər elmlərin də tədris olunduğu müəssisənin işləri, Suriyada regional baxımdan mühüm əhəmiyyət kəsb edən mərkəzin fəaliyyətləri tənzimlənir və nəzarət altında saxlanılır. Suriyadakı müəssisənin təşkilində məqsəd həzrət Zeynəbin (s.ə.) pak məzarı ətrafında dəyərli alimlər ərsəyə gətirməkdir. Qum elmi hövzəsinin əlli mindən artıq tələbəsinin, müqəddəs Məşhəd, İsfahan, üç yüzdən artıq əyalət tələbələrinin təqaüdlə təminatı mənim öhdəmə düşmüş ağır məs’uliyyətlərdəndir. Bu iki qardaşın yardımları olmasaydı uyğun məs’uliyyətlərin yerinə yetirilməsində aciz qalardım. Tehranda iki, müqəddəs Məşhəddə bir dəftərxana nümayəndəlik fəaliyyət göstərir. Əfqanıstanda və Rusiyadakı dəftərxanalarla rabitəni qorumaq zəruridir. Bir tərəfdən hövzədəki problemlər həll olunmalıdır, digər tərəfdən bu hövzələr vasitəsilə şiə maarifi təbliğ edilməlidir. Adı çəkilməyən bir çox məsələlərin də yetərincə həlli zəruridir. Onu da qeyd etməliyəm ki, müxtəlif münasibətlərlə dini və siyasi bəyanatlar vermək və müraciətlər etmək mənim vəzifələrimdəndir. «İslam cümhuriyyəti» qəzetində dərc olunmuş bəyanatları xatırlayıram. İki bəyanatdan xüsusi qürur duyuram: Həzrət Zəhranın (s.ə.) şəhadəti münasibəti ilə uzun illər ardıcıl nəşr olunmuş bəyanatlar və imam Xomeyni (r) tərəfindən məhkum olunmuş Salman Rüşdinin qətlinin zəruriliyi ilə bağlı bəyanat. Hansı ki, bə’zi ziyalılar Salman Rüşdi ilə keçinməyi münasib sayır və bu münasibətlə addım atırdılar. Mən uyğun fəaliyyətlərə müqavimət göstərib, sərt rəftar etdim.

Ümid edirəm ki, bütün bu işlər və çətinliklər qarşısında dözüm imam Mehdinin (əc.) razılığına səbəb olacaq və həzrətin həqiqi əsgəri olmaq şərəfini əldən verməyəcəyik. Bəli, ən böyük iftixar budur! İmamın zühuru ilə bütün problemlərin həll olunacağına inanırıq. Pərvərdigara, imam Mehdinin (əc.) zühurunu tezləşdir!

## *HİCRİ-QƏMƏRİ 1427-Cİ İLİN MÜBARƏK RAMAZAN AYINA TƏSADÜF ETMİŞ SON VƏSİYYƏT*

-İmam Xomeyninin (r) «Təhrirul-vəsilə» kitabına yazdığım «Təfsiluş-şəriə» adlı şərhin otuz cildə yaxın böyük bir hissəsi çap olunmuşdur. Bu kitablar onlardan yararlanan alimlərə maneəsiz çatdırılsın. Qalan hissələri də çap edib əvvəlki kimi yayın.

-Çap olunmuş kitablarımın bir hissəsi Bacəkdəki mənzildə, bir hissəsi mərhum atamın hüseyniyyəsinin böyük otağında, bir hissəsi isə adətən gündüzlər əyləşdiyim mənzildə yerləşir. Əvvəla, bu kitabların bir yerə toplanıb müraciət edənlərin ixtiyarına verilməsini istərdim. Əlbəttə, oğlum Məhəmmədcavad həmin kitablardan şəxsi kitabxanası üçün ehtiyac duyulan həddə götürə bilər. Sonra isə məsləhət bilinən şəkildə addım atılsın.

-Mənim dəftərxanam kimi tanınmış və mərhum Ayətullah atam üçün vəqf edilmiş hüseyniyyədə cümələr, məhərrəmin ilk on günlüyü, fatimiyyə günləri rövzə məclisləri keçirilməsini istərdim. Sel və zəlzələ kimi maneələr olduqda həmin məclislər başqa yerlərdə təşkil olunsun. Məndən qalan mallar ya Qum hövzəsi tələbələrinin təqaüdinə, ya da «Mə’sum İmamlar» adına beynəlxalq fiqhi mərkəzin idarəçiliyinə sərf edilsin. Təfərrüatları müəyyənləşdirmək canişinimin ixtiyarındadır. Təqaüdlər tam şəkildə yox, məsləhət bilinən həddə verilə bilər.

-Londonda Əhli-beyt (ə) maarifini dünyaya yayacaq müəssisənin təşkil edilməsini istərdim.

-Qeyd etməliyəm ki, Məhəmmədcavad və Əhmədağa mənim dəftərxanamı heç biri əvəz almadan layiqincə idarə etmişlər. Onlara təşəkkür edirəm. Onların haqqı imam Mehdinin (əc.) öhdəsindədir.

-Bacəkdə, Rəzəvi küçəsində hazırda yaşadığım ev möhtərəm həyat yoldaşım Hacı xanım Lacivərdinin mülkü olsun. Ev, evdəki xalı, qab-qacaq, kondensioner kimi əşyalar ona verilsin.

-Yuxarıda sadalanan bütün işlərin həyata keçməsi canişinim Məhəmmədcavadın, bu işlərə nəzarət isə Əhmədağanın öhdəsindədir. Bildirirəm ki, mənə aid olan hər hansı mal şəxsi malım deyil. Nəyim varsa, imama məxsusdur və varislərimin bu malda heç bir haqqı yoxdur.

Məhəmməd Fazil Lənkərani